RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 259 (9426) 28 NOYABR 2023-cü il ÇƏRŞƏNBƏ AXŞAMI

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

# Azərbaycan dünyada həm də güclü idman ənənələri ilə tanınır



## Prezident İlham Əliyev cüdo üzrə milli komandalar üçün Təlim-Məşq Mərkəzində yaradılan şəraitlə tanış olub

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakıda cüdo üzrə milli komandalar üçün Təlim-Məşq Mərkəzində əsaslı təmirdən sonra yaradılan şəraitlə tanış olub.**

AZƏRTAC xəbər verir ki, rəqəmsal inkişaf və nəqliyyat naziri, Azərbaycan Cüdo Federasiyasının prezidenti Rəşad Nəbiyev dövlət başçısına Təlim-Məşq Mərkəzində yaradılan şəraitlə bağlı məlumat verdi.

Qeyd edək ki, bu gün Azərbaycan dünyada həm də güclü idman ənənələri ilə tanınır. İdmanın inkişafı ölkəmizdə dövlət siyasətinin prioritet istiqamətlərindən biridir. Son illərdə inşa olunan nəhəng idman kompleksləri Azərbaycanın idman potensialının nümayişi, gənclərin bu sahəyə meylinin artması ilə nəticələnib. Bütün bunlar isə ilk növbədə, dövlət başçısının idmanın inkişafına göstərdiyi diqqət və qayğının bariz nümunəsidir. Prezident İlham Əliyev dəfələrlə bəyan edib ki, Azərbaycanda dövlət siyasətinin əsas istiqamətlərindən biri kimi idmanın inkişafı, bu sahənin maddi-texniki bazasının möhkəmləndirilməsi daim diqqətdə saxlanılacaq. Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın da idmançılara qayğısı idman ictimaiyyəti tərəfindən yüksək qiymətləndirilir.

Bildirildi ki, Olimpiya növləri üzrə milli komandalar üçün Təlim-Məşq Mərkəzi 1967-ci ildə istifadəyə verilib. Bir vaxtlar "Neftçi" təlim-məşq bazası kimi şöhrət tapan bu idman kompleksi şəhərin mərkəzində, Azadlıq prospekti 149 ünvanında yerləşir.

→ 2



# Qafqazın ən böyük büdcəsi

### Azərbaycanın 2024-cü il büdcəsi Ermənistanla müqayisədə 3,5 dəfə, hərbi büdcəsi 2,1 dəfə, sosial xərcləri 1,5 dəfə artıqdır; Azərbaycanın dövlət büdcəsi Gürcüstanın əsas maliyyə sənədindən 2,1 dəfə, hərbi büdcəsindən 7,2 dəfə yüksəkdir

Gələn il üçün büdcə gəlirləri 34 milyard 173 milyon manat proqnozlaşdırılır ki, bu da 2023-cü ilin dürüstləşdirilmiş göstəricisi ilə müqayisədə 282,5 milyon manat və yaxud 1,2 faiz çoxdur. Dövlət büdcəsinin xərcləri 36 milyard 763 milyon manat həcmində proqnozlaşdırılır ki, bu da 2023-cü illə müqayisədə 139 milyon manat çoxdur.

Xərclərin strukturuna baxdıqda görünür ki, əvvəlki illərdə olduğu kimi, növbəti ildə də əsas hədəflər əhalinin rifah səviyyəsinin yüksəldilməsi, investisiyaların stimullaşdırılması, insan kapitalının inkişafı, ölkənin təhlükəsizliyinin təmin olunmasıdır.

Cənubi Qafqaz ölkələri ilə müqayisə apardıqda isə fərqli göstəricilər ortaya çıxır. Məsələn, qonşu Gürcüstanda vəziyyət fərqlidir. Ölkənin 2024-cü il üçün dövlət büdcəsi 27 milyard 800 milyon lari (10 milyard 500 milyon ABŞ dolları) olacaq. İqtisadiyyatın 5,2 faiz artımı nəzərdə tutulub. Ortamüddətli perspektivdə isə real iqtisadi artım proqnozu 5 faiz təşkil edəcək, orta illik inflyasiya 2,8 faiz nəzərdə tutulub. ÜDM proqnozu 85 milyard 370 milyon laridir. Müqayisə üçün qeyd edək ki, 2012-ci ildə dövlət büdcəsi 8,5 milyard lari, ÜDM isə 27 milyard lari olub. 2024-cü ildə birləşmiş büdcə kəsiri 2,5 faiz, hökumətin borcu isə ÜDM-in 38,2 faizi qədər olacaq. Beləliklə, Azərbaycan büdcəsi Gürcüstanla müqayisədə az qala 2,1 dəfə artıqdır.

Gələn il üçün məğlub Ermənistanda büdcənin xərcləri 3,108 trilyon dram (7,75 milyard dollar), gəliri 2,767 trilyon dram (6,9 milyard dollar), kəsiri isə 341,1 milyard dram (853,3 milyon dollar) hesablanıb. Bu da o deməkdir ki, Azərbaycanın 2024-cü il üçün büdcəsi Ermənistanla müqayisədə 3,5 dəfə artıq olacaq.

Diqqət çəkən məqamlardan biri də Ermənistanın dövlət borcunun yükünün durmadan artmasıdır. Gələn il ölkənin dövlət borcu yenə də artacaq və ÜDM-in 48,4 faizini təşkil edəcək. Ümumiyyətlə, məğlub ölkədə orta hesabla hər il dövlət borcu təxminən 1 milyard dollar artıb. Son məlumatlara görə, Hayastanın dövlət borcu 11,4 milyard dollar civarındadır. Nikol Paşinyan hakimiyyətə gələnə qədər bu, 6,7 milyard dollar idi. Beş ildən az müddət sonra 4,7 milyard dollar borc yığılıb.

→ 6

## Azərbaycan 2024-cü ildən Asiya Parlament Assambleyasına sədrlik edəcək

**Türkiyənin Antalya şəhərində Asiya Parlament Assambleyasının (APA) İcraedici Şurasının iclası keçirilib.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən bildirilib ki, iclasda 20 dövlətin parlament nümayəndə heyəti təmsil olunub.

Tədbirdə Azərbaycan APA-nın 2024-2025-ci illər üzrə sədri seçilib.

*"Azərbaycan"*

## Qlobal lider, yüksələn nüfuz

### İlham Əliyevin müstəqil siyasəti ilə Azərbaycan yeni çağırışlara cavab verən ölkə statusuna sahiblənib

→ 3

## Beynəlxalq təşəbbüslərə Azərbaycanın töhfəsi

Zirvə görüşündə dövlət başçısı İlham Əliyev qeyd etdi ki, SPECA yarananda üzv ölkələr dövlət müstəqilliklərinin problemlərlə, çağırışlarla bol ilk illərini yaşayırdılar. Lakin indi əsas çağırışlar arxada qalıb - biz dövlət suverenliyimizi möhkəmləndirmiş, beynəlxalq aləmin dəyərli üzvlərinə çevrilmiş və iqtisadi cəhətdən sürətlə inkişaf etmişik: "Bu gün dünyanın müxtəlif bölgələrində müharibələr, münaqişələr, qanlı toqquşmalar geniş vüsət alıb. Bizim ölkələrimizdə isə sülh, sabitlik, əmin-amanlıq hökm sürür, inkişaf, quruculuq prosesləri uğurla gedir. Bu, dövlətlərimizin və xalqlarımızın böyük nailiyyəti və uğurudur".

→ 3

## Azərbaycan Qərbin məkrli planlarını iflasa uğradır



Azərbaycanın hazırda dayandığı zirvədən düşmənlərimiz də aydın görünür. Bəlli düşmənimiz yalnız Ermənistan yox, həm də ABŞ və Fransa, eyni zamanda Kanada kimi dövlətlərdir. Vətən müharibəsinin başa çatmasından ötən 3 ilin reallıqları əslində, əvvəldən də bəlli olan belə bir həqiqəti tam təsdiq edir ki, Qərbin bu siyasi mərkəzləri onilliklərboyu Ermənistanın işğal siyasətinə dəstək veriblər, Azərbaycan torpaqlarında ikinci erməni dövlətinin yaradılmasına çalışıblar. Üzdə Azərbaycanın ərazi bütövlüyünə dəstək nümayiş etdirməklə, lakin ikiüzlü siyasət yürütməklə, beynəlxalq hüququn norma və prinsiplərini tapdalayıblar.

→ 8

## Ciblərindən uzağı görməyənlər

### Havayı qrant tələdə olur

2023-cü ildə Azərbaycanda ictimai sektor üzrə qrant layihələri təqdim edənlərin siyahısında fəallıq göstərənlərdən biri də Avropa Şurasıdır. AŞ sosial, iqtisadi, mədəni və digər istiqamətlər üzrə layihələr üçün ümumilikdə 4,5 milyon avro məbləğində vəsait ayırıb. Bunlar üzdə görünən məşhur donorlardır. Bu ilin qrant layihələrində Azərbaycana yer ayırmış təşkilat və fondların siyahısı genişdir. Tanınan və tanınmayan çoxsaylı donorlar Azərbaycanda "ictimai maraq kəsb edən mövzular üzrə araşdırmaların həyata keçirilməsi üçün" yüksək məbləğli qrant müsabiqələri elan ediblər.

→ 8

## "Yalan ayaq tutar, yeriməz"

### Media azadlığından sui-istifadə edənlərin təxribatları ifşa olunur

→ 8

# Azərbaycan dünyada həm də güclü idman ənənələri ilə tanınır

## Prezident İlham Əliyev cüdo üzrə milli komandalar üçün Təlim-Məşq Mərkəzində yaradılan şəraitlə tanış olub

Əvvəli 1-ci səh.










Kompleksin adı 1997-ci ildə dəyişdirilərək Olimpiya növləri üzrə Milli Komandalar üçün Təlim-Məşq Mərkəzinə çevrilib. İdman qurğusu fəaliyyətini bundan sonra cüdo üzrə milli komandalar üçün Təlim-Məşq Mərkəzi kimi davam etdirəcək.

Diqqətə çatdırıldı ki, mərkəzdə əsaslı təmir və tikinti işləri yüksək keyfiyyətlə aparılıb və bu ilin noyabrında başa çatdırılıb. Ümumi ərazisi 2,2 hektar olan idman qurğusunda bütün zəruri infrastruktur yaradılıb. Təlim-Məşq Mərkəzi müasirliyi ilə diqqəti cəlb edir.

Mərkəzdə qadınlar və yeniyetmələr üçün böyük idman zalı yaradılıb. Burada eyni zamanda 60 idmançı məşq edə biləcək.

Əsaslı təmir zamanı Təlim-Məşq Mərkəzinin uzunluğu 96 metr və eni 72 metr olan stadionunun süni ot örtüyü də dəyişdirilib. Həmçinin stadion müasir işıqlandırma sistemi ilə təchiz edilib.

Dövlət başçısı əsas binada yaradılan şəraitlə də tanış oldu.

Burada kişilər və gənc oğlanlar üçün nəzərdə tutulan məşq zalında eyni vaxtda 100 idmançı məşq edə biləcək. Mərkəzdəki bütün məşq zalları Beynəlxalq Cüdo Federasiyasının standartlarına uyğun olan tatamilər ilə təchiz olunub. İdman qurğusunun fiziki hazırlıq zalı da ən yüksək standartlara cavab verir. Məşqçilərin otaqlarında da məhsuldar fəaliyyət üçün hər cür şərait yaradılıb.

Təlim-Məşq Mərkəzinin əhəmiyyətini artıran amillərdən biri də burada 28 yerlik müasir hotel bölməsinin yaradılmasıdır. Hoteldə həm idmançıların, həm də məşqçilərin qalması və istirahəti üçün hər cür imkan var.

Mərkəzdə çalışacaq 50-dən artıq əməkdaş üçün də əsas binada hər bir şərait yaradılıb. Buradakı restoranda idmançılara yüksək səviyyədə xidmət göstəriləcək. Kompleksdə idmançıların sağlamlığı da nəzərə alınıb. Həkim otağı, fizioterapiya və masaj otaqları idmançıların ilkin reabilitasiyası və müalicəsi üçün lazımi cihaz və avadanlıqlarla təchiz edilib.

İdman qurğusunun həyətində geniş abadlıq-quruculuq işləri görülüb, yaşıllıqlar salınıb.

Bu gün Azərbaycanda idmanın cüdo növünə maraq çox böyükdür. Beynəlxalq Cüdo Federasiyasının fəal üzvü olan Azərbaycan bu idman növünün inkişafında çox maraqlıdır. Bu da idmançılarımızın beynəlxalq yarışlarda əldə etdiyi medalların və ölkəmizdə keçirilən beynəlxalq turnirlərin sayında əksini tapıb. Xüsusilə də cüdo üzrə illik nəticələrə nəzər saldıqda görərik ki, Azərbaycan bu idman növündə 2023-cü ildə Avropa Gənclərinin Olimpiya Festivalında, Avropa və Dünya çempionatlarında və digər mötəbər yarışlarda tarixi qələbələrə imza atıb. Belə ki, Azərbaycan cüdoçuları il ərzində bütün yaş qrupları üzrə fərdi və komandalar arasında keçirilən beynəlxalq yarışlarda ümumilikdə 233 medal əldə ediblər. Bu medallardan 73-ü qızıl, 53-ü gümüş və 107-si bürünc olub.

Regionlarda da cüdo üzrə infrastrukturun təkmilləşdirilməsi Azərbaycan Cüdo Federasiyasının əsas fəaliyyət istiqamətlərindən biridir. Belə ki, 2023-cü ildə Gəncə, Ağstafa, Zaqatala, Goranboy, Zəngilan rayonunun Ağalı kəndi, Sabirabad, Zirə və Sumqayıtda cüdo zalları istifadəyə verilib. Respublikamızın bir neçə şəhər və rayonlarında isə cüdo zallarının təmiri davam etdirilməkdədir.







# "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci və 10-cu bəndlərini rəhbər tutaraq **qərara alır:**

"Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 4, maddə 632, № 12, maddələr 2017, 2036; 2017, № 4, maddə 520, № 5, maddə 743; 2018, № 6, maddə 1187; 2019, № 1, maddə 28, № 5, maddə 797, № 6, maddə 986, № 8, maddə 1360, № 11, maddə 1692, № 12, maddə 1903; 2020, № 6, maddə 662; 2021, № 6 (I kitab), maddə 551, № 7, maddə 701, № 12, maddələr 1315, 1329, 1339; 2022, № 5, maddə 426; 2023, № 2, maddələr 169, 205, 210, № 4, maddə 449; Azərbaycan Respublikasının 2023-cü il 14 iyul tarixli 977-VIQD nömrəli Qanunu) aşağıdakı dəyişikliklər edilsin:

1. 1-ci maddə üzrə:

1.1. 1.0.6-cı maddədə "yetirilməli olan" sözləri "yetirməli olduğu" sözləri ilə əvəz edilsin;

1.2. 1.0.7-ci maddədə "yetirilməli olan, Azərbaycan Respublikasının qanunları" sözləri "yetirməli olduğu, Azərbaycan Respublikasının qanunları və digər normativ hüquqi aktları" sözləri ilə əvəz edilsin.

2. 3.3-cü maddədə "Azərbaycan Respublikasının xüsusi qanunları ilə" sözləri "bu Qanunun 1.0.6-cı və 1.0.7-ci maddələrində nəzərdə tutulmuş normativ hüquqi aktlarla" sözləri ilə əvəz edilsin.

3. 6.4-cü maddədə "qanunla" sözü "bu Qanunun 1.0.6-cı və 1.0.7-ci maddələrində nəzərdə tutulmuş normativ hüquqi aktlarla" sözləri ilə əvəz edilsin.

4. 18.2.5-ci maddədən "(qanunla nəzərdə tutulduqda)" sözləri çıxarılsın.

5. 19-cu maddə üzrə:

5.1. 19.1-ci maddənin üçüncü cümləsində "eyni zamanda ərizəçiyə" sözləri "ərizəçiyə eyni zamanda" sözləri ilə əvəz edilsin;

5.2. 19.7-ci maddənin dördüncü cümləsində "müvafiq qanuna" sözləri "bu Qanunun 1.0.6-cı və 1.0.7-ci maddələrində nəzərdə tutulmuş normativ hüquqi aktlara" sözləri ilə əvəz edilsin;

5.3. 19.9-cu maddədə "Azərbaycan Respublikasının qanunlarında" sözləri "Bu Qanunun 1.0.7-ci maddəsində nəzərdə tutulmuş normativ hüquqi aktlarda" sözləri ilə əvəz edilsin;

5.4. 19.11-ci maddənin ikinci cümləsi aşağıdakı redaksiyada verilsin:

"Dövlət rüsumunun və ödənişin ödənilməsi faktını təsdiq edən sənəd bu Qanunun 18.5-ci maddəsində nəzərdə tutulan müddətdə lisenziya və icazə verən orqana təqdim edilmədikdə, lisenziya və icazə verən orqan tərəfindən bu Qanunun 26.2-ci maddəsində göstərilən tədbirlər görülür.";

5.5. 19.19-cu, 25.1.3-cü və 26.1.9-cu maddələrdə "Azərbaycan Respublikasının qanunları ilə" sözləri "bu Qanunun 1.0.6-cı və 1.0.7-ci maddələrində nəzərdə tutulmuş normativ hüquqi aktlarla" sözləri ilə əvəz edilsin.

6. 20.1.1-ci maddədə "qanuna" sözü "bu Qanunun 1.0.6-cı və 1.0.7-ci maddələrində nəzərdə tutulmuş normativ hüquqi aktlara" sözləri ilə əvəz edilsin.

7. 22.1-ci maddənin ikinci cümləsində "Azərbaycan Respublikasının qanunlarında" sözləri "Bu Qanunun 1.0.7-ci maddəsində nəzərdə tutulmuş normativ hüquqi aktlarda" sözləri ilə əvəz edilsin.

8. 23.6-cı maddədən və 23.7-ci maddənin ikinci cümləsindən "icazəni müddətsiz edərək" sözləri çıxarılsın.

9. Aşağıdakı məzmunda 26.1.8-1-ci maddə əlavə edilsin:

"26.1.8-1. lisenziyanın və icazənin verilməsi üçün qanunla dövlət rüsumunun (ödənişin) ödənilməsi tələb olunduqda, dövlət rüsumunun (ödənişin) ödənilməsi faktını təsdiq edən sənəd bu Qanunun 18.5-ci maddəsində nəzərdə tutulan müddətdə lisenziya və icazə verən orqana təqdim edilmədikdə;".

10. 27.1-ci maddədə "müvafiq sahəni tənzimləyən Azərbaycan Respublikasının qanunları ilə" sözləri "bu Qanunun 1.0.6-cı və 1.0.7-ci maddələrində nəzərdə tutulmuş normativ hüquqi aktlarla" sözləri ilə əvəz edilsin.

11. 31.2-ci maddədən "və icazələri" və hər iki halda "və icazə" sözləri çıxarılsın.

12. Həmin Qanuna 3 nömrəli əlavə - "Sahibkarlıq fəaliyyətinə verilən icazələrin siyahısı" üzrə:

12.1. 1-ci maddədə "reyestrindən" sözü "reyestrində qeydiyyatdan" sözləri ilə əvəz edilsin;

12.2. 14-cü maddə aşağıdakı redaksiyada verilsin:

"14. dövlət ekoloji ekspertizasının rəyi;";

12.3. 48-ci maddədə "qeydiyyat vəsiqəsi" sözləri "vəsiqə" sözü ilə əvəz edilsin;

12.4. 54-cü maddədə "nəqlinə" sözü "ötürülməsinə" sözü ilə əvəz edilsin;

12.5. 70-ci maddədən "məhsulların, o cümlədən" sözləri çıxarılsın.

*İlham ƏLİYEV,*
*Azərbaycan Respublikasının Prezidenti*

*Bakı şəhəri, 24 oktyabr 2023-cü il*

# "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 24 oktyabr tarixli 1007-VIQD nömrəli Qanununun tətbiqi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 24 oktyabr tarixli 1007-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin təklifləri nəzərə alınmaqla, Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 24 oktyabr tarixli 1007-VIQD nömrəli Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini altı ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

*İlham ƏLİYEV,*
*Azərbaycan Respublikasının Prezidenti*

*Bakı şəhəri, 27 noyabr 2023-cü il*

# İcma: Ermənistan "etnik müstəsnalıq" kimi qondarma ideologiyanın girovu olmaqda davam edir

**Qərbi Azərbaycan İcması Ermənistanın Elm və Təhsil Nazirliyi tərəfindən Qarabağda "erməni mədəni irsi"nə aid 140 abidənin siyahısının tərtib olunması və beynəlxalq müstəvidə iş aparılması üçün Xarici İşlər Nazirliyinə təqdim edilməsinə dair yayılan məlumatları şərh edib.**

İcmadan AZƏRTAC-a verilən məlumatda deyilir: "Ermənistanın Elm və Təhsil Nazirliyi tərəfindən Qarabağda "erməni mədəni irsi"nə aid 140 abidənin siyahısının tərtib olunması və beynəlxalq müstəvidə iş aparılması üçün Xarici İşlər Nazirliyinə təqdim edilməsi barədə məlumatlar yayılıb.

Qərbi Azərbaycan İcması Ermənistandakı Azərbaycan mədəni irsi ilə bağlı fəaliyyətini özünün suverenliyinə və ərazi bütövlüyünə qəsd hesab edən Ermənistan hökumətinin bu addımı riyakarlıq və irqçilikdir.

Ermənistan hələ də özünün uydurduğu nağıllar aləmində yaşamaqda, "etnik müstəsnalıq" kimi qondarma ideologiyanın girovu olmaqda davam edir. Ermənistan rəsmiləri başqa ölkənin ərazisində olan mədəni irsə iddia etməkdənsə, öz ərazisində Azərbaycan xalqının mədəni irsini məhv etməməli, onu başqa xalqların adına çıxarmamalı və UNESCO-nun faktaraşdırıcı missiyasının Ermənistana səfərinə imkan verməlidir".

SPECA

# Azərbaycanın təşəbbüsü ilə ilk ZİRVƏ görüşü



## Qlobal lider, yüksələn nüfuz

### İlham Əliyevin müstəqil siyasəti ilə Azərbaycan yeni çağırışlara cavab verən ölkə statusuna sahiblənib

**Əlverişli coğrafi mövqeyi, regional və beynəlxalq nəqliyyat yollarının üstündə yerləşməsi, təbii resursları, iqtisadi və hərbi gücü ilə Cənubi Qafqazın lider dövləti olan Azərbaycan həm də dünyada etibarlı tərəfdaş kimi qəbul olunur. Bunun da yeganə səbəbi son 20 ildə Azərbaycanı tarixinin ən qüdrətli dövlətinə çevirən İlham Əliyevin həyata keçirdiyi tam müstəqil siyasətdir.**

Məhz İlham Əliyevin sözünə və vədinə sadiqliyi, irəli sürdüyü qlobal təşəbbüsləri Azərbaycanın nüfuzunu və siyasi çəkisini gündən-günə artırmaqdadır. Bu gün dünyanın siyasi xəritəsində elə bir Azərbaycan var ki, onun dəstəyi olmadan, rəyi nəzərə alınmadan Cənubi Qafqazdakı hər hansı regional məsələni müzakirə və həll etmək mümkün deyil. İstənilən mövzulu qlobal danışıqların aparıldığı platformalarda ölkəmiz mütləq təmsil olunur və əsas söz sahibi kimi çıxış edir. Buna görə də dünyanın aparıcı dövlətləri və təşkilatları Azərbaycanı regionun təhlükəsizlik zəmanəti adlandırırlar. Aparıcı dövlətlər ölkəmizin Cənubi Qafqaz və Xəzər dənizi regionunda əvəzolunmaz tərəfdaş kimi böyük dəyərə malik olduğunu bəyan edirlər. Bütün bunlar bir daha təsdiq edir ki, İlham Əliyevin tam müstəqil siyasəti Azərbaycanı müasir dünyanın yeni çağırışlarına cavab verən ölkəyə çevirib.

Bu gün elə bir beynəlxalq və mötəbər toplantı yoxdur ki, Azərbaycan Prezidenti həmin tədbirlərə dəvət edilməsin və orada müasir dövrün çağırışları, mövcud problemlərinin həlli yolları barədə fikirlər səsləndirməsin. İlham Əliyev təkcə bütün regional məsələlərdə deyil, mahiyyətindən asılı olmayaraq, dünya miqyasında baş verən qlobal hadisələr zamanı qətiyyətli mövqe nümayiş etdirir. Dövlətimizin başçısının təşəbbüsləri qlobal miqyasda beynəlxalq həmrəyliyin və əməkdaşlığın möhkəmləndirilməsi istiqamətində mühüm nümunədir. Buna tək bir misal olaraq İlham Əliyevin Qoşulmama Hərəkatının sədri kimi irəli sürdüyü qlobal təşəbbüsləri, mühüm təklifləri göstərmək olar.

Bütün bunlarla yanaşı, Azərbaycan həm də əhəmiyyətli qlobal konfransların, forumların, toplantıların, idman yarışlarının keçirildiyi məkan kimi də tanınmaqdadır. Elə ay yoxdur ki, ölkəmizdə, xüsusən də Bakıda hər hansısa mötəbər tədbir keçirilməsin. Bütün toplantılara ən yüksək səviyyədə evsahibliyi etmək isə Azərbaycanın beynəlxalq nüfuzunun yüksəlməsinə böyük töhfə verir.

Ötən həftə Azərbaycanın BMT-nin Xüsusi Proqramı - SPECA həftəsinə evsahibliyi etməsini, ardınca proqramın iştirakçı ölkələrinin dövlət və hökumət başçılarının Zirvə görüşünün keçirilməsini də bu prosesin tərkib hissəsi adlandırmaq olar.

Ümumiyyətlə, çoxəsrlik tarixi və mədəni əlaqələr Azərbaycan və Mərkəzi Asiya ölkələri ilə iqtisadi layihələrin reallaşmasına geniş imkanlar yaradıb. Qədim İpək yolu üzrə uzanan ənənəvi Şərq-Qərb dəhlizi Mərkəzi Asiyadan gələn yüklərin daşınması üçün ideal platformadır. Dünya iqtisadiyyatının nəhənglərindən olan Çin də Avropa bazarlarına çıxış üçün bu marşrutdan əbəs yerə istifadə etmir. Azərbaycan və Mərkəzi Asiya strateji əhəmiyyəti artmaqda olan vahid tarixi-mədəni və geosiyasi məkandır. Bu baxımdan, SPECA-nın iştirakçı ölkələrinin dövlət və hökumət başçılarının ilk Zirvə görüşünün paytaxtımızda keçirilməsi olduqca xüsusi əhəmiyyət kəsb edirdi.

Onu da qeyd edək ki, bu il BMT-nin Mərkəzi Asiya Ölkələrinin İqtisadiyyatları üçün Xüsusi Proqramının 25-ci ildönümüdür. Hazırda Azərbaycan SPECA-ya sədrlik edir. İyirmi beş il ərzində üzv ölkələri arasında hərtərəfli əlaqələr uğurla inkişaf edib və bu gün də yüksələn xətlə davam etməkdədir.

İlk Zirvə görüşündə çıxış edən İlham Əliyev də bunun əhəmiyyətini yüksək dəyərləndirməklə yanaşı, dost və qardaş ölkələrlə münasibətlərin ən yüksək səviyyədə inkişaf etdiyini vurğuladı. Əminliklə bildirdi ki, bu tərkibdə keçirilən Zirvə görüşü daha geniş iqtisadi əməkdaşlıq formatına yol açacaq.

Zirvə görüşündə aparılan danışıqlar isə onu deməyə əsas yaratdı ki, SPECA həftəsi ərzində Bakıda təşkil olunan iqtisadi forum dost ölkələr arasındakı biznes əlaqələrinin inkişafına töhfə verəcək.

Bakıda keçirilən "SPECA Ölkələrinin Sərgisi: Dayanıqlı inkişaf üçün regional əməkdaşlıq" sərgisi ölkələr arasında ticarət əlaqələrinin genişləndirilməsinə zəmin yaratmaqla yanaşı, üzv dövlətlər arasında yeni əməkdaşlıq imkanlarının yaranması deməkdir. Bu, bir daha təsdiq edir ki, proqrama üzv ölkələr arasında əlaqələrin gücləndirilməsi, bu istiqamətə yeni sərmayə qoyuluşlarının həyata keçirilməsi, davamlı şəkildə iqtisadi və ticarət əlaqələrinin möhkəmlənməsi prioritetdir.

Azərbaycan SPECA ölkələri ilə əlaqələrini genişləndirir. Son illər Azərbaycanla bu ölkələr arasında, həmçinin həmin dövlətlərin öz aralarında kifayət qədər ciddi iqtisadi münasibətlərin formalaşması müşahidə olunur. Bu da ondan xəbər verir ki, SPECA-ya üzv olan ölkələrlə münasibətlərin genişləndirilməsi prioritetdir.

Hazırda Azərbaycan tərəqqi və inkişaf yolu ilə inamla irəliləyir, regional və beynəlxalq proseslərdə mühüm rol oynayır. Azərbaycan dövləti qarşıya yeni inkişaf zirvələrini fəth etmək məqsədini qoyaraq, xalqın rifahının yüksəldilməsində və dövlətin təhlükəsizliyinin möhkəmlənməsində sanballı nəticələr əldə edib.

Həm sərgi, həm də Zirvə görüşü Azərbaycanın beynəlxalq aktora çevrildiyini, ölkəmizin söz sahibi kimi qəbul olunduğunu təsdiqləyən reallıqdır. Bütün bunlar isə İlham Əliyevin Azərbaycanı inkişaf və yüksəlişə aparan mükəmməl siyasətinin nəticəsidir.

Azərbaycanın bugünkü reallıqlarına nəzər salaraq görmək olar ki, ölkəmiz sözün əsl mənasında müstəqil dövlət kimi dünya xəritəsində öz yerini tutub. Bütün regional məsələlərdə fəal iştirak edən Azərbaycan sabitlik və inkişaf amilinə çevrilib. İlham Əliyevin beynəlxalq aləmdə artan nüfuzu həm ölkəmizi gücləndirir, həm də regionda gedən proseslərə çox müsbət təsir göstərir.

Bütün bunlar Azərbaycanın beynəlxalq münasibətlər sistemində rolunun artmasına böyük təsir göstərməklə yanaşı, İlham Əliyevin də beynəlxalq aləmdə şəxsi nüfuzunun artmasını şərtləndirib.

*Rəşad BAXŞƏLİYEV,*
*"Azərbaycan"*

## SPECA-ya sədrlikdə Azərbaycanın uğurları

**Ölkəmiz növbəti dəfə mötəbər bir tədbirə evsahibliyi etdi. Beynəlxalq tədbirlərin yüksək səviyyədə təşkilatçılığı və humanitar təşəbbüsləri ilə dünyada tanınan Azərbaycan BMT-nin Mərkəzi Asiya Ölkələrinin İqtisadiyyatları üçün Xüsusi Proqramının (SPECA) sədri olaraq proqrama üzv dövlətlərin prezidentləri ilə görüş təşkil etdi.**

Tədbirdə Qazaxıstan, Qırğızıstan, Tacikistan, Türkmənistan və Özbəkistanla yanaşı, Prezident İlham Əliyevin dəvəti ilə Gürcüstanın və Macarıstanın Baş nazirləri, Körfəz Əməkdaşlıq Şurasının Baş katibi qonaq qismində iştirak etdilər. Azərbaycanın adıçəkilən ölkələrlə həm ikitərəfli, həm də beynəlxalq təşkilatlar səviyyəsində geniş əməkdaşlığı var. Bu tədbirdə Azərbaycan Cənubi Qafqazın lideri olaraq qüdrətini bir daha dünyada təqdim etdi.

Məhz SPECA-nın sədri olaraq bu təşkilatın yaranmasının 25-ci il dönümü münasibətilə Bakı şəhərində təşkil olunan tədbir gündəliyə uyğun olaraq vacib məsələlərin müzakirəsi ilə yadda qaldı. Azərbaycanın sədr olaraq uğurlu idarəetməyə verdiyi töhfə Birləşmiş Millətlər Təşkilatı tərəfindən yüksək qiymətləndirilərək, Təşkilatın Baş Assambleyası tərəfindən qətnamə qəbul edildi. Habelə, bu qətnamə ilə bərabər SPECA-nın da BMT-nin himayəsi altında Etimad Fondu təsis olundu və humanitar təşəbbüslərin məkanı olan rəsmi Bakı fonda pul köçürülməsini təmin edərək, növbəti dəfə əməkdaşlıq münasibətlərinə verdiyi dəyəri nümayiş etdirdi.

SPECA-nın yaranmasından keçən müddət ərzində həm regionda, həm də dünyada müxtəlif hadisələr yaşanıb. Heydər Əliyev Mərkəzində keçirilən Zirvə toplantısında dövlət başçısı İlham Əliyev ölkəmizin iqtisadiyyatında baş verən inkişafın və gələcəkdəki potensialların qiymətləndirilməsi ilə bağlı çıxışında Azərbaycan iqtisadiyyatının dünənini bu gününü şərh edərək, gələcəkdəki hədəflərin anonsunu verdi. Son 20 ildə Azərbaycan iqtisadiyyatına qoyulmuş 310 milyard dollar investisiyadan bəhs edilərək, bu prosesin sürətlə davam etdiyi və həyata keçirilən meqalayihələrin əsas istiqamətinin qeyri-neft sektorunun inkişafı olduğu qeyd edildi. Bu illər ərzində iqtisadiyyatın böyüməsi, yoxsulluğun azaldılması ilə bərabər, ölkəmizin suverenliyinin bərqərar edildiyi də qeyd olundu.

Xatırladıldı ki, Azərbaycan torpaqlarını 30 ilə yaxın müddət ərzində öz işğalında saxlamış Ermənistan dəfələrlə sülh danışıqlarından imtina etdi və düşmən ölkənin rəhbərliyinin qərəzli bəyanatları münaqişənin sülh yolu ilə həllinin qeyri-mümkünlüyünü dünyaya nümayiş etdirdi. Bu ölkənin rəhbərliyinin verdiyi absurd bəyanatlar, atdıqları qıcıqlandırıcı addımlar və davam edən təxribatları müharibəni qaçılmaz etdi. 2020-ci ilin 27 sentyabr tarixində başlanan və 44 gün davam edən savaş ölkəmizin tarixi qələbəsi ilə yekunlaşdı. Qələbənin davamı olaraq diplomatik müstəvidə aparılan uğurlu siyasət və atılan addımlar nəticəsində Ermənistan Ağdam, Kəlbəcər, Laçın rayonlarımızı təhvil vermək öhdəliyini üzərinə götürərək, icra etdi.



Təəssüf ki, 2020-ci ilin 10 noyabr tarixində imzalanmış üçtərəfli Bəyanatın bütün şərtlərinə əməl etməyən Ermənistan Azərbaycan torpaqlarında yaratmış olduğu qondarma rejimi ləğv etməyərək, "boz zona"nın qalması üçün imkanlarını səfərbər etdi. Nəticədə, bu ilin sentyabrın 19-da başlanan və 23 saat davam edən lokal xarakterli antiterror tədbirləri ilə "boz zona" birdəfəlik ləğv olundu, ölkəmizin suverenliyi bütün ərazilərimizdə tam bərqərar edildi.

Lakin Azərbaycanın artan qüdrəti, atılan uğurlu addımlar erməni-pərəst dövlətləri narahat edir. Bəzi dairələrin Ermənistana etdiyi təsir nəticəsində sülh müqaviləsinin imzalanmaması da tədbirdə iştirak edən dövlətlərin diqqətinə çatdırıldı. Hansısa xarici dövlətdən dəstəyə ümid edən Ermənistan revanşist hisslərdən əl çəkməli və sülhün qarşısında maneə yaratmamalıdır. Bu məqsədlə rəsmi Bakının verdiyi mesajlar aydındır və dəqiqdir.

Birincisi, Ermənistanın öz məsələsini həll edə bilməyib, xarici dövlətlərdən kömək istəməsi bu dövlətin müstəqil dövlət kimi fəaliyyətini sual altına alır. Bu cür addımlar onu göstərir ki, Ermənistan hakimiyyəti dövlətlərini idarə edə bilməkdə, müstəqil qərarlar qəbul etməkdə acizdir.

İkincisi, Aprel döyüşlərində, Günnüt əməliyyatlarında, şanlı tariximizin ən böyük hadisələrindən biri olan İkinci Qarabağ müharibəsində, "Qisas" və antiterror əməliyyatlarında peşəkar ordumuz Ermənistana sarsıdıcı zərbə vurub. Məhz bu əməliyyatların sonunda aman diləyən və kapitulyasiya sənədinə imza atan Ermənistan olub.

Üçüncüsü, Ermənistanın bu gün sərgilədiyi qətiyyətsiz mövqe, ayrı-ayrı ölkələrin tapşırıqlarını yerinə yetirməsi ilk növbədə bu ölkənin özünə ziyan verir. Regionda sülhün və kommunikasiyaların qurulmasının, eləcə də regionun inkişafına təminat verən Azərbaycanla razılaşmaq əvəzinə atdıqları qeyri-adekvat addımlar Ermənistanı daha çətin vəziyyətə salmağa xidmət edir. Regionda həyata keçirilən layihələrdən məhz təcavüzkar siyasətinə görə daim kənarda qalmış Ermənistanın bu hərəkətlərinə davam etməsi onu deməyə əsas verir ki, bu ölkə regionda reallaşan layihələrdən hər zaman kənarda qalacaqdır.

Məhz ölkəmiz Avropada enerji təhlükəsizliyinin qarantına çevrilməklə bərabər, Şərqlə Qərb arasında əsas nəqliyyat və logistika mərkəzinə çevrilmişdir. İstər Şərqdən-Qərbə, istərsə də Şimaldan-Cənuba həyata keçirilən daşımaların mərkəzi Azərbaycandır. Bu sahəyə uzun illər qoyulmuş investisiyalar həm iqtisadi, həm də siyasi baxımdan ölkəmizin əhəmiyyətini ön plana çıxardır.

Ölkəmiz üçün bu gün əsas prioritet məsələlərdən biri də, Ermənistanın uzun illər işğalda saxladığı, viran qoyduğu tarixi torpaqlarımız olan Qarabağın və Şərqi Zəngəzurun yenidən qurularaq abadlaşdırılmasıdır. Qəbul olunmuş Böyük qayıdış konsepsiyasına əsasən işğaldan azad olunmuş ərazilərdə şəhərlər, kəndlər bərpa edilir. Uzun illər məcburi köçkün həyatı yaşamış həmvətənlərimiz artıq öz evlərinə geri dönürlər.

*Adil ƏLİYEV,*
*Milli Məclis Sədrinin müavini*

## Beynəlxalq təşəbbüslərə Azərbaycanın töhfəsi

**Dünyanın mötəbər beynəlxalq qurumlarında uğurla təmsil olunan, qlobal çağırışlara fəal şəkildə qoşulan Azərbaycan, irəli sürdüyü əhəmiyyətli təşəbbüsləri ilə, həm də ümumilikdə region və Mərkəzi Asiya ölkələrinin dayanıqlı iqtisadi inkişafına töhfələr verir.**

Ötən həftə Azərbaycanın Mərkəzi Asiya Ölkələrinin İqtisadiyyatları üçün BMT-nin Xüsusi Proqramı - SPECA həftəsinə evsahibliyi etməsi, SPECA-nın iştirakçı ölkələrinin dövlət və hökumət başçılarının Bakıda Zirvə görüşünün keçirilməsi də bu baxımdan əlamətdar oldu.

Noyabrın 24-də Qazaxıstanın, Qırğızıstanın, Tacikistanın, Türkmənistanın, Özbəkistanın dövlət başçılarının, Gürcüstanın və Macarıstanın Baş nazirlərinin, eləcə də Körfəz Əməkdaşlıq Şurasının baş katibinin iştirakı ilə Bakıda keçirilən Zirvə görüşündəki çıxışında Prezident İlham Əliyev söylədi ki, bu il SPECA-nın 25-ci ildönümüdür və hazırda Azərbaycan SPECA-ya sədrlik edir: "İyirmi beş il ərzində ölkələrimiz arasında hərtərəfli əlaqələr uğurla inkişaf edib, ancaq SPECA-ya üzv dövlətlərin Zirvə görüşü ilk dəfə keçirilir".

### Unikal coğrafi mövqe

1998-ci ildə BMT tərəfindən Mərkəzi Asiya ölkələrində iqtisadiyyatın davamlı inkişafını və qarşılıqlı əlaqələrin gücləndirilməsini təşviq edən iqtisadi platforma olaraq yaradılan SPECA proqramına Azərbaycan, Qazaxıstan, Tacikistan, Qırğızıstan, Türkmənistan, Özbəkistan və Əfqanıstan üzv dövlətlərdir.

Zirvə görüşündə dövlət başçısı İlham Əliyev qeyd etdi ki, SPECA yarananda üzv ölkələr dövlət müstəqilliklərinin problemlərlə, çağırışlarla bol ilk illərini yaşayırdılar. Lakin indi əsas çağırışlar arxada qalıb biz dövlət suverenliyimizi möhkəmləndirmiş, beynəlxalq aləmin dəyərli üzvlərinə çevrilmiş və iqtisadi cəhətdən sürətlə inkişaf etmişik: "Bu gün dünyanın müxtəlif bölgələrində müharibələr, münaqişələr, qanlı toqquşmalar geniş vüsət alıb. Bizim ölkələrimizdə isə sülh, sabitlik, əmin-amanlıq hökm sürür, inkişaf, quruculuq prosesləri uğurla gedir. Bu, dövlətlərimizin və xalqlarımızın böyük nailiyyəti və uğurudur".

Üzv dövlət olaraq, xüsusilə Azərbaycan ötən illərdə böyük inkişaf yolu keçib. Son 20 il ərzində Azərbaycanın ümumi daxili məhsulu 4 dəfə artıb. Büdcə gəlirləri 30 dəfədən, xarici ticarət dövriyyəsi isə 10 dəfədən çox artmışdır.

Azərbaycanın birbaşa xarici borcu hazırda ümumi daxili məhsulun təxminən 10 faizini təşkil edir. Valyuta ehtiyatları birbaşa xarici dövlət borcumuzu 10 dəfə üstələyir, yoxsulluq səviyyəsi təxminən 50 faizdən 5,5 faizə düşüb.

Azərbaycanda əlverişli investisiya mühiti yaradılıb. Son 20 ildə Azərbaycan iqtisadiyyatına 310 milyard ABŞ dollarından çox sərmayə qoyulub ki, bunun da 200 milyard ABŞ dollarına yaxını qeyri-enerji sektorunun payına düşür.

Son illərdə Azərbaycan özünün nəqliyyat infrastrukturuna milyardlarla ABŞ dolları həcmində sərmayə qoyub, Avrasiyanın "Şərq-Qərb" və "Şimal-Cənub" nəqliyyat dəhlizləri üzərində yerləşən nəqliyyat və logistika mərkəzlərindən birinə çevrilib.

Şərqlə qərbin, eləcə də şimal ilə cənubun kəsişməsində yerləşmək kimi unikal coğrafi məkana malik olması Azərbaycana əlverişli tranzit imkanları yaradır.

### Müəllifi İlham Əliyevdir

SPECA-nın ən fəal üzvlərindən olan Azərbaycan dövlət siyasətində proqrama üzv olan ölkələrlə hərtərəfli əməkdaşlığa xüsusi önəm verir, bu istiqamətdə əməli fəaliyyət göstərir.

BMT-nin Mərkəzi Asiya Ölkələrinin İqtisadiyyatları üçün Xüsusi Proqramı olan SPECA-nın 25-ci ildönümünə həsr olunan Zirvə görüşündəki çıxışlarında üzv ölkələrin dövlət başçıları da məhz bu məqamı xüsusi vurğuladılar, Prezident İlham Əliyevin proqrama mühüm töhfələrindən bəhs etdilər.

Tacikistan Prezidenti Emoməli Rəhmon Azərbaycan Prezidenti İlham Əliyevə sədrlik dövründə bir çox məsələlərin müsbət həllinə nail ola bildiyi üçün minnətdarlığını ifadə edərək vurğuladı: "Şəxsən Siz, hörmətli İlham Heydər oğlu, ən azından SPECA-nın istiqamətində iki əsas sıçrayışa müəllif oldunuz. Birincisi, SPECA-nın son 25 illik tarixi dövründə onun ilk dəfə səviyyəsini iştirakçı ölkələrin dövlət başçıları səviyyəsinə qaldırdınız. İkincisi, uzun müddət idi ki, bu Etimad Fondunun yaradılması alınmırdı, Siz öz sədrlik ilinizdə bu məsələnin müsbət həllinə nail ola bildiniz".

Özbəkistan Prezidenti Şavkat Mirziyoyev Zirvə görüşünün üzv ölkələr üçün əhəmiyyətinə toxunaraq dedi ki, müasir ticarət və logistika mərkəzləri, xüsusi iqtisadi zonalar sərhəd yerlərində tikilməkdədir: "Bu baxımdan biz hörmətli İlham Əliyevin rəhbərliyi ilə azad edilmiş Azərbaycan rayonlarında tarixi ədalətin bərpa olunmasını yüksək dəyərləndirir və Azərbaycanın bu yerlərdə gördüyü inanılmaz quruculuq işini qeyd etmək istəyirik. Əslində, əminəm ki, müsbət və perspektivli dəyişikliklər yeni imkanlar açacaq və regional əməkdaşlıq inkişaf edəcək".

Ümumiyyətlə, Zirvə görüşündəki üzv ölkələrin, eləcə də fəxri qonaqların çıxışlarından da aydın görünürdü ki, bu dövlətlərin hər biri Azərbaycanı hərtərəfli əməkdaşlıq apara biləcəkləri etibarlı tərəfdaş hesab edirlər və Azərbaycanın SPECA-dakı aparıcı rolunu təqdirlə etiraf edirlər.

### Qlobal dialoqların baş tutduğu vacib platforma

SPECA-nın Zirvə görüşünün yekununda Bakı Bəyannaməsi qəbul olunub. Bəyannamədə Şərq-Qərb Trans-Xəzər Orta dəhlizinin SPECA-nın iştirakçı ölkələri ilə Asiya və Avropanın müxtəlif regionlarıyla, onun hüdudlarından kənarda daha səmərəli və dayanıqlı əlaqələrdən biri kimi əhəmiyyətinin və ölkələri dəhlizin potensialından qitələrarası nəqliyyat əməliyyatları üçün istifadə etməyə çağırmaq kimi vacib məqamlar da əksini tapıb.

Ərazilərini işğaldan azad edərək və suverenliyini tam təmin edərək mühüm tarixi zəfərlərə imza atan Azərbaycanın Cənubi Qafqazın lider olkəsi olaraq əldə etdiyi siyasi, iqtisadi, hərbi zəfərlər beynəlxalq əməkdaşlığa da geniş üfüqlər açıb.

Prezident İlham Əliyevin siyasi liderlik qabiliyyəti, yürütdüyü məqsədyönlü siyasət sayəsində dünyanın sayılıb-seçilən ölkəsinə çevrilən Azərbaycan, həm də qlobal dialoqların baş tutduğu vacib platformaya çevrilib.

Bakıda BMT-nin Mərkəzi Asiya Ölkələrinin İqtisadiyyatları üçün Xüsusi Proqramı olan SPECA-nın 25-ci ildönümünə həsr olunan Zirvə görüşünün keçirilməsi də buna bariz nümunədir.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

## Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Vətəndaş Qəbulu Mərkəzində 2023-cü ilin dekabr ayında vətəndaşların qəbulu cədvəli

| Qəbulu aparan şəxs | Qəbul günü |
|---|---|
| Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Hərbi məsələlər şöbəsinin müdiri **Əliyev Məhərrəm Abış oğlu** | 1 |
| Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Ərazi-təşkilat məsələləri şöbəsinin müdiri **Nağdəliyev Zeynal Səfər oğlu** | 4 |
| Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidenti Administrasiyasının İqtisadi siyasət və sənaye məsələləri şöbəsinin müdiri **Əmirov Natiq Ərziman oğlu** | 5 |
| Azərbaycan Respublikası Prezidentinin mətbuat katibi **Qasımov Azər Məhəmməd oğlu** | 5 |
| Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Hüquq-mühafizə orqanları ilə iş şöbəsinin müdiri **Ələsgərov Fuad Murtuz oğlu** | 6, 21 |
| Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri **Əliyeva Fərəh Şirməmməd qızı** | 7 |
| Azərbaycan Respublikası Birinci vitse-prezidentinin Katibliyinin rəisi **Həsənov Altay Tofiq oğlu** | 8, 15, 22 |
| Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri **Vəliyev Ədalət Məqsəd oğlu** | 8 |
| Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidenti Administrasiyasının İqtisadi məsələlər və innovativ inkişaf siyasəti şöbəsinin müdiri **Mövsümov Şahmar Arif oğlu** | 11 |
| Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri **Hacıyev Hikmət Fərhad oğlu** | 12 |
| Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Gənclər siyasəti və idman məsələləri şöbəsinin müdiri **Məmmədəliyev Yusuf Ülfət oğlu** | 13 |
| Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Dövlət nəzarəti məsələləri şöbəsinin müdiri **Həsənov Kərəm Əvəz oğlu** | 14 |
| Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Dövlət qulluğu və kadr məsələləri şöbəsinin müdiri **Məcidov Tələt Tahir oğlu** | 15 |
| Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Qeyri-hökumət təşkilatları ilə iş və kommunikasiya şöbəsi | 18 |
| Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri **İsmayılov Süleyman Abbas oğlu** | 19 |
| Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Hüquq-mühafizə orqanları ilə iş şöbəsinin Əfv məsələləri sektoru | 20 |
| Azərbaycan Respublikası Prezidentinin Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Laçın rayonunda xüsusi nümayəndəsi **Məmmədov Məsim Əhməd oğlu** | 25 |
| Azərbaycan Respublikası Prezidentinin Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) xüsusi nümayəndəsi **Hüseynov Emin Zamin oğlu** | 26 |
| Azərbaycan Respublikası Prezidentinin Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında xüsusi nümayəndəsi **Hacıyev Vahid Rasim oğlu** | 27 |
| Azərbaycan Respublikası Prezidentinin Şuşa rayonunda xüsusi nümayəndəsi **Kərimov Aydın Zöhrab oğlu** | 28 |
| Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Qanunvericilik və hüquq siyasəti şöbəsinin müdiri **Kərimov Gündüz Hacı oğlu** | 29 |
| * * * | |
| Azərbaycan Respublikasının Təhlükəsizlik Şurası Azərbaycan Respublikasının Təhlükəsizlik Şurasının katibi **Usubov Ramil İdris oğlu** | 29 |

**Qeyd: Vətəndaşlar Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Vətəndaş Qəbulu Mərkəzində qəbul olunurlar.**
**Ünvan: Bakı şəhəri, Nərimanov rayonu, Zaur Nudirəliyev,79**
**Qəbula yazılış qəbul gününə ən geci 1 iş günü qalmış dayandırılır.**
**Qəbul saat 14:00-dan başlayır.**
**Əlaqə üçün: Çağrı Mərkəzi - 1111**

# Azərbaycan və Türkiyə müdafiə nazirləri birgə təlimlərin intensivliyinin artırılmasının vacibliyini müzakirə ediblər

**Noyabrın 27-də Bakı şəhərində Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov ölkəmizdə səfərdə olan Türkiyə Respublikasının milli müdafiə naziri Yaşar Güler ilə görüşüb.**







Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, general-polkovnik Z.Həsənov Azərbaycan ilə Türkiyə arasında digər sahələrdə olduğu kimi, hərbi sahədə də əməkdaşlığın, strateji müttəfiqliyin dostluq və qardaşlıq münasibətləri üzərində qurulduğunu bildirib.

Hər iki qardaş ölkənin müstəqilliyi və ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi hörmət və ehtiramla anılıb.

Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın iki ölkə arasında müdafiə sahəsindəki mövcud əməkdaşlığı və perspektiv imkanlarını yüksək dəyərləndirdiyini xüsusi vurğulayan müdafiə naziri əlaqələrimizin daha da genişləndirilməsi baxımından belə görüşlərin zəruriliyini qeyd edib.

Qardaş ölkəyə səfərindən məmnunluğunu ifadə edən Y.Güler göstərilən qonaqpərvərliyə görə təşəkkürünü bildirib, ölkələrimiz arasında qarşılıqlı inam, etimad və dəstəyə əsaslanan əməkdaşlığın bundan sonra da uğurla inkişaf etdiriləcəyinə əminliyini ifadə edib.

Azərbaycan-Türkiyə əlaqələrinin Şuşa Bəyannaməsinə əsasən müttəfiqlik münasibətlərinə söykəndiyi diqqətə çatdırılıb. Bu Bəyannamənin ikitərəfli əlaqələrin inkişafında müstəsna rolu olduğu xüsusi vurğulanıb.

Görüşdə birgə təlimlərin intensivliyinin artırılmasının vacibliyi, regionda və dünyada cərəyan edən hərbi-siyasi proseslər, bölgədə sabitliyin təmin edilməsi yolları, həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər barədə də ətraflı fikir mübadiləsi aparılıb.

# Azərbaycan və Gürcüstan Müdafiə nazirlikləri arasında ikitərəfli hərbi əməkdaşlıq planı imzalanıb

**Noyabrın 27-də Bakı şəhərində Azərbaycanın müdafiə naziri general-polkovnik Zakir Həsənov ilə Gürcüstanın müdafiə naziri Cuanşer Burçuladze arasında ikitərəfli görüş keçirilib.**





Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, hər iki ölkənin nümayəndə heyətlərinin iştirakı ilə keçirilən görüşdə qonaqları salamlayan general-polkovnik Z.Həsənov onları ölkəmizdə görməkdən məmnun olduğunu bildirib. Müdafiə naziri Azərbaycan ilə Gürcüstan arasında əlaqələrin inkişafında dövlət başçılarının görüşlərinin mühüm rol oynadığını xüsusi vurğulayıb. Bir çox sahələrdə olduğu kimi, hərbi sahədə də əlaqələrimizin daha da güclənərək inkişaf etdiyini qeyd edib.

Ölkəmizə səfərindən məmnunluğunu ifadə edən C.Burçuladze Azərbaycanın ərazi bütövlüyünün bərpası ilə əlaqədar həmkarına təbriklərini çatdırıb. Qarşılıqlı səfərlərin, belə görüşlərin ölkələrimiz arasında əməkdaşlığın yüksək səviyyəsinin bariz nümunəsi olduğunu bildirib.

Görüşdə ölkələrimiz arasında hərbi əməkdaşlığın inkişaf perspektivlərindən danışılıb, həmçinin birgə təlimlərin intensivliyinin artırılması barədə ətraflı fikir mübadiləsi aparılıb. Ölkələrin beynəlxalq səviyyədə qəbul olunmuş ərazi bütövlüyünün dəstəkləndiyi diqqətə çatdırılıb.

Sonra tərəflər regionda sülhün və təhlükəsizliyin təmin olunması, hərbi, hərbi-texniki, hərbi təhsil sahələrində əməkdaşlığın inkişaf perspektivləri, eləcə də qarşılıqlı maraq doğuran digər məsələləri ətraflı müzakirə ediblər.

Sonda Azərbaycan və Gürcüstan Müdafiə nazirlikləri arasında 2024-cü il üçün ikitərəfli hərbi əməkdaşlıq planı imzalanıb.

# Azərbaycan, Türkiyə və Gürcüstan müdafiə nazirlərinin 10-cu üçtərəfli görüşünün yekununa dair Protokol imzalanıb

**Noyabrın 27-də Bakı şəhərində Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov, Türkiyə Respublikasının milli müdafiə naziri Yaşar Güler və Gürcüstanın müdafiə naziri Cuanşer Burçuladze arasında üçtərəfli görüş keçirilib.**





AZƏRTAC xəbər verir ki, görüşdə xalqlarımızın əsrlərboyu mehriban qonşuluq və dostluq şəraitində yaşadığı, bu gün də dövlət və hökumət başçılarımızın rəhbərliyi ilə bu əlaqələrin yüksələn xətt üzrə inkişaf etdiyi qeyd edilib. Bildirilib ki, qarşılıqlı etimada əsaslanan əməkdaşlıq xalqlarımızın rifahının təmin olunması baxımından böyük önəm kəsb edir.

Üçtərəfli görüşdə regionun təhlükəsizliyinə təhdid törədə biləcək amillərlə mübarizədə səylərin birləşdirilməsinin vacibliyi qeyd olunub. Müdafiə nazirləri üçtərəfli təlim və treninqlərin əhatə dairəsinin genişləndirilməsinin əhəmiyyətini xüsusi vurğulayıblar.

Müdafiə sahəsində üçtərəfli əməkdaşlığın genişlənməsinin sadəcə ölkələrimiz üçün deyil, eləcə də bölgədə sülhün, sabitliyin və təhlükəsizliyin möhkəmlənməsinə də öz töhfəsini verəcəyinə əminlik ifadə olunub.

Görüşdə hərbi, hərbi təhsil, hərbi tibb sahələrində əməkdaşlığın inkişaf perspektivləri və qarşılıqlı maraq doğuran digər aspektlər barədə ətraflı fikir mübadiləsi aparılıb.

Sonda media nümayəndələri üçün mətbuat konfransı keçirilib və üçtərəfli görüşün yekununa dair protokol imzalanıb.

❖ ❖ ❖

Noyabrın 27-də Bakıda Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov, Türkiyə Respublikasının milli müdafiə naziri Yaşar Güler və Gürcüstanın müdafiə naziri Cuanşer Burçuladze arasında üçtərəfli formatda görüşlər keçirilib. AZƏRTAC xəbər verir ki, sonda Azərbaycan, Türkiyə və Gürcüstan müdafiə nazirlərinin 10-cu üçtərəfli görüşünün yekununa dair Protokol imzalanıb. Protokolu Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov, Türkiyə Respublikasının milli müdafiə naziri Yaşar Güler və Gürcüstanın müdafiə naziri Cuanşer Burçuladze imzalayıblar.

# Azərbaycan Respublikası Milli Məclisinin Aparatında 2023-cü ilin dekabr ayında vətəndaşların qəbulu cədvəli

| Vəzifəli şəxs | Qəbul günü |
|---|---|
| **Əli Məhəmməd oğlu HÜSEYNLİ** Azərbaycan Respublikası Milli Məclisi Sədrinin birinci müavini - Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri | 1 |
| **Adil Abış oğlu ƏLİYEV** Azərbaycan Respublikası Milli Məclisi Sədrinin müavini - Gənclər və idman komitəsinin sədri | 13 |
| **Fəzail Feyruz oğlu İBRAHİMLİ** Azərbaycan Respublikası Milli Məclisi Sədrinin müavini - İctimai birliklər və dini qurumlar komitəsinin sədri | 6 |
| **Ziyafət Abbas oğlu ƏSGƏROV** Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri | 11 |
| **Zahid Məhərrəm oğlu ORUC** Milli Məclisin İnsan hüquqları komitəsinin sədri | 18 |
| **Sadiq Haqverdi oğlu QURBANOV** Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri | 5 |
| **Tahir Famil oğlu MİRKİŞİLİ** Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri | 7 |
| **Tahir Musa oğlu RZAYEV** Milli Məclisin Aqrar siyasət komitəsinin sədri | 8 |
| **Musa İsa oğlu QULİYEV** Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri | 14 |
| **Əhliman Tapdıq oğlu ƏMİRASLANOV** Milli Məclisin Səhiyyə komitəsinin sədri | 21 |
| **Hicran Kamran qızı HÜSEYNOVA** Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri | 20 |
| **Siyavuş Dünyamalı oğlu NOVRUZOV** Milli Məclisin Regional məsələlər komitəsinin sədri | 15 |
| **Bəxtiyar Həmzə oğlu ƏLİYEV** Milli Məclisin Elm və təhsil komitəsinin sədri | 25 |
| **Fazil Qəzənfər oğlu MUSTAFA** Milli Məclisin Mədəniyyət komitəsinin sədr müavini | 27 |
| **Səməd İsmayıl oğlu SEYİDOV** Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri | 12 |
| **Eldar Rza oğlu İBRAHİMOV** Milli Məclisin İntizam komissiyasının sədri | 7 |
| **Fərid Famil oğlu HACIYEV** Azərbaycan Respublikası Milli Məclisi Aparatının rəhbəri | 4 |
| **Firudin Süleyman oğlu HACIYEV** Azərbaycan Respublikası Milli Məclisinin işlər müdiri | 19 |
| **Hacı Mirhəşim Miryaqub oğlu SEYİD** Milli Məclis Aparatının Dövlət quruculuğu, inzibati və hərbi qanunvericilik şöbəsinin müdiri | 26 |
| **Məhəmməd İmran oğlu BAZIQOV** Milli Məclis Aparatının İqtisadi qanunvericilik şöbəsinin müdiri | 29 |
| **Adil İsrayıl oğlu VƏLİYEV** Milli Məclis Aparatının Sosial qanunvericilik şöbəsinin müdiri | 22 |
| **Şakir Himalay oğlu ŞABANOV** Milli Məclis Aparatının İcra hakimiyyəti orqanları ilə əlaqələr şöbəsinin müdiri | 28 |
| **Ayan Zəfər qızı MURTUZOVA** Milli Məclis Aparatının Dövlət qulluğu və kadr məsələləri şöbəsinin müdiri | 12 |

**Qeyd: Vətəndaşlar Azərbaycan Respublikası Milli Məclisi Aparatının qəbul otağında qəbul olunurlar.**

**Ünvan: Bakı şəhəri, Parlament prospekti, 1.**

**“Vətəndaşların müraciətləri haqqında” Azərbaycan Respublikası Qanununun tələblərini təmin etmək məqsədilə;**

**Qəbul vaxtı: saat 14:00-dan başlayır.**

**Qəbul günü qəbula yazılmaq imkanı saat 12:00-da dayandırılır.**

**Qəbula bir gün qalmış elektron qeydiyyat dayandırılır.**

**Azərbaycan Respublikasının Milli Məclisinə qəbula dəvət olunan vətəndaşlar şəxsiyyət vəsiqəsini təqdim edirlər.**

**Telefonlar: (012) 510-99-38; (012) 492-74-05; (012) 510-89-14.**

# Hərbçilərin minimum xidmətkeçmə tələbi dəyişdirilir

Bu günlərdə "Hərbi qulluqçuların statusu haqqında", "Hərbi xidmətkeçmə haqqında" Əsasnamə"nin təsdiq edilməsi barədə", "Əmək pensiyaları haqqında" və "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanun layihəsi Milli Məclisə daxil olub.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, qanun layihəsində bir sıra dəyişikliklərlə yanaşı, hazırlanmasına dövlət tərəfindən zaman və resurs sərf edilmiş hərbi qulluqçuların formalaşmış təcrübəsindən daha uzun müddət istifadə etmək məqsədilə hərbi qulluqçu kimi pensiyaya çıxmaq üçün minimum xidmətkeçmə tələbinin 20 təqvim ilindən 25 təqvim ilinə çatdırılması təklif olunur.

Qeyd olunan dəyişiklik hərbi qulluqçuların pensiya təminatında hər hansı azalmanı istisna etməklə, bir sıra qurumların hərbi qulluqçularının pensiya təminatında artımı nəzərdə tutur. Belə ki, minimum xidmət müddətinin artırılması ilə yanaşı, həmin dövrə görə qulluq əlavəsi faizinin də 50 faizdən 65 faizə qaldırılması təklif edilir. Qanun layihəsinin 2024-cü il yanvarın 1-dən qüvvəyə minməsi nəzərdə tutulur.

Bundan başqa, layihəyə əsasən, 20 təqvim ili hərbi xidmət müddətini tamamlamasına ən çoxu 3 təqvim ili qalmış hərbi qulluqçulara, habelə qanun layihəsi qüvvəyə mindiyi tarixədək 20 təqvim ili və daha çox hərbi xidmət etmiş hərbi qulluqçular 25 təqvim ili hərbi xidmət müddətini tamamlayanadək hərbi xidmətdən buraxıldıqda, onlara da "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikası Qanununun 2024-cü il yanvarın 1-dək qüvvədə olan normaları tətbiq ediləcəkdir. Bu normalar hərbi qulluqçuların qazanılmış hüquqlarından istifadəsinə hərtərəfli imkan verəcəkdir.

Yuxarıda qeyd olunanlarla yanaşı, qanun layihəsində hərbi qulluqçuların təhsil almaq hüququnun həyata keçirilməsi ilə bağlı və başqa dəyişikliklər də əks olunub.

*"Azərbaycan"*

# Fransanın cinayətkar xisləti

**"Fransanın təcavüzkar Ermənistanı silahlandırması, işğalçıya bütün sahələrdə dəstək verməsi heç bir beynəlxalq normaya sığmır. Həmçinin bu, Azərbaycanın da milli maraqlarına tamamilə ziddir. Nəzərə almaq lazımdır ki, Azərbaycan torpaqları 30 ildən çox vaxt ərzində erməni işğalında qalıb və BMT Təhlükəsizlik Şurasının torpaqlarımızın qeyri-şərtsiz azad olunması barədə qətnamələri uzun illər icra edilməyib. Halbuki BMT TŞ-nin üzvü, eləcə də Minsk qrupunun həmsədrlərindən biri kimi Fransanın borcu idi ki, bu istiqamətdə əməli addımlar atsın".**



Bu fikirləri qəzetimizə açıqlamasında Milli Məclisin Aqrar siyasət komitəsinin sədri Tahir Rzayev deyib. O bildirib ki, işğal dövründə olduğu kimi, Vətən müharibəsinin davam etdiyi 44 gündə də Fransa daim Ermənistanı müdafiə etdi. Bu il sentyabrın 19-20-də keçirilmiş antiterror tədbirlərindən sonra isə Fransanın ölkəmizə qarşı təhdidləri artıb, şər-böhtan kampaniyası genişlənib. Bu, iki təcavüzkar ölkənin - Ermənistan və Fransanın cinayətkar olduqlarından və bəşəriyyətə zidd mövqedə durduqlarından xəbər verir. Bu ölkələrin davranışları bilavasitə müstəmləkəçiliyə və insan qətllərinə xidmət edir.

Komitə sədri qeyd edib ki, Fransa əsrlər boyu müstəmləkəçi ölkə kimi tanınıb, dünyanın 50-dən çox ölkəsini əsarəti altında saxlayıb: "Fransa 10 milyonlarla insanın qətlinə, şikəst qalmasına bais olub. Tarixi qanlı qətllərlə dolu olan Fransanı Ermənistan xalqının taleyi, bu ölkənin gələcəyi düşündürmür. Paris Cənubi Qafqazda möhkəmlənmək, regionda söz sahibinə çevrilmək niyyətindədir. Bu səbəbdən münaqişələri qızışdırır, mənfur siyasətini həyata keçirir. Fransa məqsədinə nail olmaq üçün Paşinyandan bir kart kimi istifadə edir, onun yaramaz siyasətinə, təcavüzkar əməllərinə rəvac verir.

Tahir Rzayev vurğulayıb ki, bu gün Fransa öz daxili problemləri ilə məşğul olmaq əvəzinə, məkrli planlar qurur, başqa dövlətlərin daxili işlərinə qarışmağa cəhd göstərir. Fransada uzun müddət davam edən mitinqlər, ölkədə hökm sürən özbaşınalıqlar fransızların özlərini də cana gətirib. Ölkədə islamofobiyanın və türkofobiyanın geniş yayılması da ciddi problemlərə səbəb olur. Fransızlar Makrondan ciddi şəkildə narazıdırlar və onun siyasətinə qarşı açıq etirazlarını nümayiş etdirirlər. Belə olan halda Fransa prezidentinin Ermənistanla məşğul olması, onu silahlandırıb revanşistləri həvəsləndirməsi məntiqli deyil. Lakin təəccüblü heç nə yoxdur, Paris qonşu ölkələri bir-birinə qarşı qoymaqla fitnəkar xislətini büruzə verir.

Komitə sədri onu da deyib ki, Prezident İlham Əliyev Fransanın tutduğu yolun düzgün olmadığını, bu yolun Cənubi Qafqazda sabitliyi pozmağa yönəldiyini dəfələrlə qeyd edib və bildirib ki, heç bir ölkənin yalan, böhtan, iftira təbliğatı bizi yolumuzdan döndərə bilməz. Çünki biz haqq yolundayıq, mübarizəmiz torpaqlarımızı qorumaq, Azərbaycan xalqının firavanlığını təmin etmək, sərhədlərimizi möhkəmləndirməkdir. Biz uzun illər işğal altında qalan torpaqlarımızı azad edib, suverenliyimizi tam bərpa etmişik. Erməni separatizminə son nöqtəni qoyaraq faşistlərin bizim torpaqlarımıza bir də ayaq basmalarını əngəlləmişik.

"Yəni Fransanın Ermənistanı silahlandırmaqla bu ölkəyə hər cür dəstək verməsi Azərbaycanı heç vəchlə narahat edə bilməz. Azərbaycan yenilməz orduya, güclü liderə, həmrəy xalqa malikdir. Azərbaycan haqq uğrunda mübarizəyə hər zaman hazırdır", - deyə T.Rzayev əlavə edib.

***Nəzrin QAFARZADƏ, "Azərbaycan"***

# Milli Məclisin futbol komandası beynəlxalq turnirdə bürünc medal qazanıb

**Noyabrın 23-27-də Antalyada Türkiyə Respublikasının 100-cü ildönümünə həsr olunmuş beynəlxalq parlamentlərarası futbol turniri keçirilib. Turnirdə Türkiyə, Azərbaycan, Rumıniya, Bolqarıstan, Bosniya və Herseqovina, Macarıstan və Gürcüstan parlamentlərinin komandaları iştirak ediblər.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, beynəlxalq turnirdə Azərbaycan Milli Məclisinin vitse-spikeri Adil Əliyev, İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili, deputatlar Mahir Abbaszadə, Azər Badamov, Məzahir Əfəndiyev, Nurlan Həsənov, Cəbi Quliyev, Naqif Həmzəyev, Vüqar Bayramov, Tural Gəncəliyev, Milli Məclis Aparatının rəhbəri Fərid Hacıyev, Beynəlxalq münasibətlər şöbəsinin müdiri İlkin Məmmədov, Milli Məclis Sədrinin köməkçisi Aqşin Hümmətov, şöbə müdirinin müavini Emin İmanov, Aparat rəhbərinin köməkçisi İlham Həsənov, Parlament Aparatının əməkdaşları Rüfət Ələkpərov və Təbriz Tağıyevdən ibarət futbol komandası təmsil edib. Komandanın baş məşqçisi keçmiş futbolçu İsgəndər Cavadov olub.

B qrupunda mübarizə aparan Milli Məclisin komandası ümumilikdə 4 oyunda 3 qələbə qazanaraq yarışı bürünc medallarla başa vurub. Komandamızın yeganə məğlubiyyəti yarışı çempion kimi tamamlayan Rumıniya komandasına qarşı oyunda qeydə alınıb.

Turnirin final matçında Rumıniya komandası qalib gələrək birinci yerə çıxıb.

***"Azərbaycan"***



# Əmək və sosial siyasət komitəsinin iclası keçirilib

**Noyabrın 27-də Milli Məclisin Əmək və sosial siyasət komitəsinin iclası keçirilib.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, iclası açan komitə sədri Musa Quliyev gündəlikdəki məsələlərin Büdcə Zərfinə daxil olan 5 qanun layihəsi olduğunu və üçüncü oxunuşda müzakirəyə çıxarıldığını deyib.

Komitə sədri bildirib ki, Milli Məclisin Sədri Sahibə Qafarovanın tapşırığı ilə bugünkü iclasa qanun layihələrinin əvvəlki oxunuşlarında qeyd və təkliflərini səsləndirmiş digər komitə üzvləri də dəvət olunublar.

Qanun layihələri barədə fikirlərini açıqlayan Musa Quliyev "Dövlət Sosial Müdafiə Fondunun 2024-cü il büdcəsi haqqında" qanun layihəsi (üçüncü oxunuş) barədə qeyd edib ki, fondun 2024-cü il üçün gəlirləri və xərcləri bərabər olmaqla 6 milyard 919,9 milyon manat proqnozlaşdırılıb. Bu da cari ilin büdcəsinə nisbətən 10,4 faiz çoxdur. O deyib ki, orta aylıq əməkhaqqının cari ilin sonuna 930 manat təşkil edəcəyi proqnozlaşdırılır ki, bu da gələn ildə pensiyaların sığorta hissəsinin orta hesabla 11 faiz artırılmasını təmin etməyə imkan yaradacaq.

"İşsizlikdən Sığorta Fondunun 2024-cü il büdcəsi haqqında" qanun layihəsi (üçüncü oxunuş) ilə bağlı komitə sədri diqqətə çatdırıb ki, 2024-cü ildə fondun gəlirləri və xərcləri bərabər olmaqla, 238 milyon manat nəzərdə tutulub. Bu da cari ildən 20,3 milyon manat, yaxud 9,3 faiz çoxdur. Fondun xərc istiqamətlərindən söz açan Musa Quliyev vurğulayıb ki, İşsizlikdən Sığorta Fondunun 2024-cü il üçün nəzərdə tutulmuş büdcə layihəsi sığorta olunanların itirilmiş əmək haqlarının kompensasiya edilməsi, özünüməşğulluq, peşə hazırlığı və peşəyönümlü tədbirlərin keçirilməsi, ictimai-sosial işlərin və digər xidmətlərin maliyyələşməsi üçün optimal əsaslar yarada biləcək.

"Azərbaycan Respublikasında 2024-cü il üçün yaşayış minimumu haqqında" qanun layihəsi (üçüncü oxunuş) və "Azərbaycan Respublikasında 2024-cü il üçün ehtiyac meyarının həddi haqqında" qanun layihəsi (üçüncü oxunuş) ilə bağlı məlumat verərkən komitə sədri qeyd edib ki, həm yaşayış minimumu, həm də ehtiyac meyarı artırılaraq növbəti il üçün 270 manat məbləğində nəzərdə tutulub.

"Sosial sığorta haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi (üçüncü oxunuş) ilə bağlı komitə sədri bildirib ki, təklif edilən dəyişikliklər texnologiyalar parkının rezidenti, onun podratçısı və subpodratçısı, habelə bu şəxslər tərəfindən cəlb edilən fiziki şəxslərin sosial sığorta haqları ödənişində seçim imkanlarının genişləndirilməsi və dürüstləşdirilməsi məqsədi daşıyır.

Layihələrin müzakirəsində Milli Məclisin Regional məsələlər komitəsinin sədri Siyavuş Novruzov, Əmək və sosial siyasət komitəsi sədrinin müavini Məlahət İbrahimqızı, deputatlar Rüfət Quliyev, Vahid Əhmədov, Azay Quliyev, Elşən Musayev, Soltan Məmmədov, İlham Məmmədov çıxış ediblər. Onlar qanun layihələri barədə qeydlərini diqqətə çatdırıblar, əhalinin sosial müdafiəsinin gücləndirilməsinin bəzi məsələləri ilə bağlı fikirlərini bölüşüblər.

İclasda Hesablama Palatasının auditoru Vəfa Mütəllimova Dövlət Sosial Müdafiə Fondunun və İşsizlikdən Sığorta Fondunun 2024-cü il üçün büdcə layihələrinə dair palatanın rəyini diqqətə çatdırıb.

Sonra Əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev deputatların həm Büdcə Zərfinin əvvəlki oxunuşlarında, həm də indiki müzakirələrdə qaldırdıqları məsələlərə aydınlıq gətirib, səsləndirdikləri sualları cavablandırıb, irəli sürdükləri təkliflərə nazirliyin mövqeyini bildirib.

Müzakirələrin sonunda qanun layihələri üçüncü oxunuşda baxılması üçün Milli Məclisin plenar iclasına tövsiyə olunub.

***Rəşad CƏFƏRLİ, "Azərbaycan"***

# Ağdərə rayonu yaradılır



**Noyabrın 27-də Milli Məclisin Regional məsələlər komitəsinin iclası keçirilib. Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, komitə sədri Siyavuş Novruzov gündəliyə iki məsələnin - "Azərbaycan Respublikasının Ağdərə rayonunun yaradılması haqqında" və "Azərbaycan Respublikasının Ağdam, Cəbrayıl, Füzuli, Xocalı, Xocavənd, Qubadlı, Laçın və Şuşa rayonlarının inzibati ərazi bölgüsündə qismən dəyişiklik edilməsi haqqında" qanun layihələrinin daxil edildiyini bildirib. O, hər iki sənədin ölkə Prezidenti tərəfindən qanunvericilik təşəbbüsü qaydasında Milli Məclisə təqdim olunduğunu qeyd edib.**

Siyavuş Novruzov bu gün Azərbaycanın dünyada etibarlı tərəfdaş, qalib dövlət, Cənubi Qafqaz regionunun lider ölkəsi kimi tanındığını söyləyib. Komitə sədri Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən ardıcıl, məqsədyönlü islahatların ölkəmizin sosial-iqtisadi inkişafının sürətləndirilməsi, qarşıya qoyulan strateji hədəflərə çatmaq üçün geniş imkanlar yaratdığını bildirib. O, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə şanlı Azərbaycan Ordusunun şücaəti sayəsində 44 günlük Vətən müharibəsində torpaqlarımızın işğaldan azad edildiyini, ölkəmizin ərazi bütövlüyünün və tarixi ədalətin bərpa olunduğunu vurğulayıb. Cari ilin sentyabr ayında uğurla yekunlaşan lokal xarakterli antiterror tədbirləri nəticəsində Qarabağda separatizmə son qoyulduğunu, ölkənin suverenliyinin tam bərpasına nail olunduğunu deyib. Qeyd edib ki, bu gün qalib Azərbaycan postmüharibə dövrünün reallıqlarına uyğun strateji fəaliyyətini müvəffəqiyyətlə davam etdirir. O, dövlət başçısının imzaladığı müvafiq fərman və sərəncamlara əsasən həyata keçirilən tədbirlərin yeni regional idarəetmə modelinin yaradılması baxımından əhəmiyyətli olduğunu deyib. İşğaldan azad edilmiş ərazilərdə infrastrukturun qurulması, nəqliyyat qovşaqlarının bərpası və digər sosialyönümlü layihələrin icrasının uğurla davam etdirildiyini bildirib.

Komitə sədri müzakirəyə çıxarılan "Azərbaycan Respublikasının Ağdərə rayonunun yaradılması haqqında" qanun layihəsinin tarixi ədalətin bərpası baxımından mühüm əhəmiyyət kəsb etdiyini söyləyib. O, Ağdərə rayonunun qədim dövrlərdən başlayaraq bugünədək tarixi barədə geniş məlumatı diqqətə çatdırıb. Qeyd edib ki, Ağdərə rayonu 1992-ci il oktyabrın 13-də ləğv olunaraq, onun ərazisi Kəlbəcər, Tərtər və Ağdam rayonlarının inzibati ərazilərinə verilib. Bildirilib ki, 2023-cü ilin 19-20 sentyabrında aparılan lokal xarakterli antiterror tədbirləri zamanı Ağdərə azad edilib. Azərbaycan Prezidenti İlham Əliyev cari il oktyabrın 15-də Ağdərə şəhərində Azərbaycanın Dövlət Bayrağını ucaldıb.

Nəzərə çatdırılıb ki, qanun layihəsinə əsasən, 1660,83 kv.km ərazidə yaradılacaq Ağdərə rayonuna Kəlbəcər rayonundan 735,84 kv.km, Tərtər rayonundan 851,25 kv.km və Ağdam rayonundan 73,74 kv.km ərazi veriləcək.

Sonra komitə sədri Siyavuş Novruzov "Azərbaycan Respublikasının Ağdam, Cəbrayıl, Füzuli, Xocalı, Xocavənd, Qubadlı, Laçın və Şuşa rayonlarının inzibati ərazi bölgüsündə qismən dəyişiklik edilməsi haqqında" qanun layihəsini təqdim edib. O bildirib ki, hazırda Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük qayıdışa dair I Dövlət Proqramı çərçivəsində aparılan irimiqyaslı quruculuq işləri həmin rayonlarda ərazilərin planlaşdırılmasının və istifadəsinin, burada yaşayan və məskunlaşacaq əhalinin dövlət idarəçiliyinə əlçatanlığının daha səmərəli təşkilini şərtləndirir. Layihədə adları sadalanan rayonların inzibati ərazi quruluşunda bəzi kənd ərazi vahidlərinin inzibati tabeliyi dəyişdirilməklə onların faktiki yerləşdiyi rayonların inzibati ərazi bölgüsünə daxil edilməsindən, sərhədlərinin dəyişdirilməsindən və ya ləğv olunmasından ibarət müvafiq dəyişikliklərin edilməsi nəzərdə tutulur.

Siyavuş Novruzov parlamentin sədri Sahibə Qafarovaya məsələlərin müzakirəsi üçün şərait yaratdığına görə təşəkkürünü ifadə edib. O, spikerin tövsiyəsi ilə adlarıçəkilən rayonları təmsil edən deputatların iclasda iştirak etdiyini söyləyib.

Müzakirələrdə çıxış edən parlamentin komitə sədrləri Bəxtiyar Əliyev, Tahir Rzayev, deputatlardan Elman Məmmədov, Kamran Bayramov, Aqil Məmmədov, Sahib Alıyev, Ceyhun Məmmədov, Emin Hacıyev qanun layihələrini məqsədəmüvafiq hesab ediblər. Millət vəkilləri işğaldan azad edilmiş ərazilərin bərpasının və yenidən qurulmasının bu gün prioritet məsələ olduğunu, təklif edilən dəyişikliklərin bu regionların sosial-iqtisadi inkişafına xidmət edəcəyini bildiriblər.

Müzakirələrin sonunda hər iki qanun layihəsi baxılmaq üçün Milli Məclisin plenar iclasına tövsiyə olunub.

***Rəşad CƏFƏRLİ, "Azərbaycan"***

# Qafqazın ən böyük büdcəsi



## Azərbaycanın 2024-cü il büdcəsi Ermənistanla müqayisədə 3,5 dəfə, hərbi büdcəsi 2,1 dəfə, sosial xərcləri 1,5 dəfə artıqdır; Azərbaycanın dövlət büdcəsi Gürcüstanın əsas maliyyə sənədindən 2,1 dəfə, hərbi büdcəsindən 7,2 dəfə yüksəkdir

**Son 20 ildə dünyanın heç bir dövlətinə müyəssər olmayan sürətli inkişaf yolu keçən Azərbaycan iqtisadi müstəqilliyin yaratdığı reallıqlar fonunda hərtərəfli tərəqqi edir. 2003-cü ildən bu yana ümumi daxili məhsulun dörd dəfə, dövlət büdcəsinin gəlirlərinin 30 dəfədən çox, xarici ticarət dövriyyəsinin isə on dəfədən çox artması, ölkəmizə 300 milyard ABŞ dolları həcmində sərmayə qoyulması bunu təsdiqləyən reallıqdır.**

İqtisadi baxımdan özünü tamamilə təmin edən və ciddi maliyyə çətinliyi olmayan ölkəmiz artıq 2023-cü ili də uğurla başa vurmaqdadır. İl ərzində həyata keçirilən məqsədyönlü islahatlar nəticəsində sosial-iqtisadi inkişafın dayanıqlılığı təmin olunub. İnkişaf səviyyəsini xarakterizə edən bütün əsas göstəricilərin əhəmiyyətli dərəcədə yaxşılaşması Azərbaycanın regionda ən güclü iqtisadi potensiala malik olan ölkəyə çevrildiyini sübut edir.

İkinci Qarabağ müharibəsindəki şanlı zəfərdən sonra Prezident İlham Əliyevin yeni inkişaf strategiyasına uyğun olaraq həyata keçirilən çoxşaxəli islahatlar, kompleks tədbirlər sayəsində əldə edilən uğurlar onu deməyə əsas verir ki, Azərbaycan iqtisadiyyatı 2024-cü ildə də inkişaf dinamikasını qoruyub saxlayacaq və iqtisadi artımın müsbət meyilləri davam edəcək.

### 2003-2023: 20 ilin möhtəşəm uğurları, rekord göstəriciləri

Ulu Öndər Heydər Əliyevin müəyyənləşdirdiyi iqtisadi inkişaf strategiyasını çox mükəmməl şəkildə reallaşdıraraq Azərbaycanın iqtisadi müstəqilliyini təmin edən Prezident İlham Əliyevin müəllifi olduğu beş Milli Prioritetin icrası hər il böyük uğurlar qazanılmasına əlverişli zəmin yaradır.

Əgər 2003-cü ildən bu günə qədər Azərbaycanın keçdiyi tərəqqi yoluna nəzər yetirsək, aydın şəkildə möhtəşəm uğurlara şahidlik etmiş olarıq. Hələ 2003-cü ildə növbəti ilin dövlət büdcəsi müzakirə edilərkən onun gəlirləri 7 518 400 milyon manat, xərcləri isə 7 833 400 milyon manat həcmində təsdiq edilmişdi. Ölkəmizin valyuta ehtiyatları isə cəmi 1,8 milyon dollar idi.

Bu gün isə iqtisadi göstəricilərə nəzər yetirdikdə rekord göstəricilərə şahidlik edirik.

Prezident İlham Əliyev noyabrın 24-də BMT-nin Mərkəzi Asiya Ölkələrinin İqtisadiyyatları üçün Xüsusi Proqramının (SPECA) Zirvə görüşündə çıxışında söylədiyi kimi, son 20 il ərzində, ümumi daxili məhsul 4 dəfə, dövlət büdcəsinin gəlirləri 30 dəfədən çox, xarici ticarət dövriyyəsi isə 10 dəfədən çox artıb. Azərbaycanın birbaşa xarici borcu hazırda ÜDM-in təxminən 10 faizini təşkil edir. Valyuta ehtiyatlarımız birbaşa xarici dövlət borcumuzu 10 dəfə üstələyir. Son 20 ildə ölkə iqtisadiyyatına 310 milyard dollar həcmində sərmayə qoyulub. Onlardan 200 milyard dolları qeyri-enerji sektoruna yatırılıb. Müstəqilliyimizin əvvəlində üzləşdiyimiz böyük çağırışlardan biri məlum olan yoxsulluq idi. 20 il əvvəl yoxsulluq şəraitində yaşayan insanların sayı 50 faizə yaxın olsa da, hazırda bu göstərici 5,5 faiz təşkil edir. Son 20 ildir ki, Azərbaycan iqtisadiyyatı sürətlə inkişaf edən ölkələrin cərgəsindədir. 2022-2023-cü illərdə strateji valyuta ehtiyatlarımız daha 14,5 faiz artaraq 67 milyard dollara çatıb.

Bu illərdə dövlət büdcəsinin illik sosial müdafiə xərcləri 20 dəfədən çox, minimum əməkhaqqı 38 dəfə, orta aylıq əməkhaqqı 12 dəfə, minimum pensiya 14 dəfə, orta aylıq pensiya 18 dəfə, yaşa görə orta aylıq pensiya 19 dəfə, əlilliyə görə pensiya 14 dəfə, ailə başçısını itirməyə görə pensiya 19 dəfə artıb. Pensiya üzrə ödənilən illik vəsait 30 dəfə artaraq 6 milyard manata çatıb, xalis minimum əməkhaqqının xalis orta əməkhaqqına nisbəti 2003-cü ildəki 12 faizdən artaraq 41 faizə çatıb. Ünvanlı yardımın orta məbləği isə 11 dəfə artıb.

Ötən 5 ildə 4 milyon vətəndaşı əhatə edən 4 sosial islahat paketi icra olunub. Bu müddətdə şəhid ailələri və müharibə əlillərinin təqaüdü 6 dəfə artırılıb, şəhid hərbçilərin ailələrinə və müharibə əlillərinə birdəfəlik ödəmələr verilib.

2003-cü ildə Azərbaycanın hərbi büdcəsi 115 milyon manat təşkil edirdi. 2023-cü ildə ölkənin müdafiə və milli təhlükəsizlik xərclərinə 5,3 milyard manat vəsait ayrılıb. 2024-cü ilin dövlət büdcəsində müdafiə və təhlükəsizlik xərclərinə ayrılan vəsaitin məbləği 6 milyard, 421 milyon manatdan artıqdır.

Beləliklə, qazanılan nailiyyətlər onu deməyə əsas verir ki, son 20 ildə Azərbaycan bir çox dövlətin uzun illər ərzində qazana bilmədikləri uğurları əldə edə bilib. Bütün bunlar əlbəttə ki, Prezident İlham Əliyevin tam müstəqil siyasəti, sosial-iqtisadi islahatları və qlobal miqyaslı layihələri hesabına əldə edilib. Rekord göstəricilər onu deməyə əsas verir ki, istənilən iqtisadi böhrandan çıxmağa qadir olan Azərbaycan qarşıdakı illərdə daha böyük nailiyyətlərə imza atacaq.

### Regionda ən az büdcə yenə Ermənistana məxsusdur

Azərbaycan davamlı olaraq siyasi, sosial-iqtisadi qüdrətini artırır, mövqelərini möhkəmləndirir. Gələn il ərzində Azərbaycanın yeni nailiyyətlərin müəllifinə çevriləcəyinə də heç bir şübhə yoxdur. Eyni zamanda atılan addımlar Azərbaycanın regionda lider ölkə statusunu daha da möhkəmlədəcəyini tam qətiyyətlə deməyə əsas verir. Bunu region ölkələrinin büdcələrinə nəzər salmaqla da aydın görmək olar.

"Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsi haqqında" qanun layihəsi yenə də Qafqazda ən böyük büdcənin ölkəmizə məxsus olduğunu təsdiqləyir. Artıq Milli Məclisdə 2 oxunuşda təsdiqlənən 2024-cü il üzrə dövlət büdcəsinin layihəsi və büdcə zərfinə daxil edilmiş sənədlər ilk dəfə olaraq, ərazi bütövlüyünü tam bərpa etmiş Azərbaycanın növbəti ildə sosial-iqtisadi inkişafını müəyyənləşdirir və onun əsas prioritetləri quruculuq, əhalinin rifahının yüksəldilməsi, təhlükəsizliyinin təmin olunmasıdır.

Gələn il üçün büdcə gəlirləri 34 milyard 173 milyon manat proqnozlaşdırılır ki, bu da 2023-cü ilin dürüstləşdirilmiş göstəricisi ilə müqayisədə 282,5 milyon manat və yaxud 1,2 faiz çoxdur. Dövlət büdcəsinin xərcləri 36 milyard 763 milyon manat həcmində proqnozlaşdırılır ki, bu da 2023-cü illə müqayisədə 139 milyon manat çoxdur.

Növbəti ildə neftin 1 barelinin orta illik qiymətinin baza ssenarisi əsasında 60 ABŞ dolları olacağı, ümumi daxili məhsulun real artım tempinin 2,4 faiz, qeyri-neft/qaz sektoru üzrə ÜDM-in real artım tempinin 4,6 faiz, inflyasiyanın orta illik göstəricisinin 5,3 faiz, orta aylıq əməkhaqqının 980 manat olacağı proqnozlaşdırılır.

Büdcə layihəsində sosialyönümlü xərclər 1 milyard 34,5 milyon manat artırılaraq, 15 milyard 772,9 milyon manata və ya dövlət büdcəsinin xərclərinin 42,9 faizinə çatdırılıb. İşğaldan azad olunmuş ərazilərin bərpası və əhalinin məskunlaşmasına şəraitin yaradılması üçün 4 milyard manat vəsaitin ayrılması planlaşdırılır. Ölkənin müdafiə potensialının gücləndirilməsi, silahlı qüvvələrin maddi-texniki təminatının daha da yaxşılaşdırılması və hüquq-mühafizə orqanları üçün ayrılan xərclərin 9 milyard 377,7 milyon manata, təhsil xərclərinin 4 milyard 549,9 milyon manata, səhiyyə xərclərinin 1 milyard 871 milyon manata çatdırılması nəzərdə tutulub.

Xərclərin strukturuna baxdıqda görünür ki, əvvəlki illərdə olduğu kimi, növbəti ildə də əsas hədəflər əhalinin rifah səviyyəsinin yüksəldilməsi, investisiyaların stimullaşdırılması, insan kapitalının inkişafı, ölkənin təhlükəsizliyinin təmin olunmasıdır.

Cənubi Qafqaz ölkələri ilə müqayisə apardıqda isə fərqli göstəricilər ortaya çıxır. Məsələn, qonşu Gürcüstanda vəziyyət fərqlidir. Ölkənin 2024-cü il üçün dövlət büdcəsi 27 milyard 800 milyon lari (10 milyard 500 milyon ABŞ dolları) olacaq. İqtisadiyyatın 5,2 faiz artımı nəzərdə tutulub. Ortamüddətli perspektivdə isə real iqtisadi artım proqnozu 5 faiz təşkil edəcək, orta illik inflyasiya 2,8 faiz nəzərdə tutulub. ÜDM proqnozu 85 milyard 370 milyon laridir. Müqayisə üçün qeyd edək ki, 2012-ci ildə dövlət büdcəsi 8,5 milyard lari, ÜDM isə 27 milyard lari olub. 2024-cü ildə birləşmiş büdcə kəsiri 2,5 faiz, hökumətin borcu isə ÜDM-in 38,2 faizi qədər olacaq. Beləliklə, Azərbaycan büdcəsi Gürcüstanla müqayisədə az qala 2,1 dəfə artıqdır.

Gələn il üçün məğlub Ermənistanda büdcənin xərcləri 3,108 trilyon dram (7,75 milyard dollar), gəliri 2,767 trilyon dram (6,9 milyard dollar), kəsiri isə 341,1 milyard dram (853,3 milyon dollar) hesablanıb. Bu da o deməkdir ki, Azərbaycanın 2024-cü il üçün büdcəsi Ermənistanla müqayisədə 3,5 dəfə artıq olacaq.

Diqqət çəkən məqamlardan biri də Ermənistanın dövlət borcunun yükünün durmadan artmasıdır. Gələn il ölkənin dövlət borcu yenə də artacaq və ÜDM-in 48,4 faizini təşkil edəcək. Ümumiyyətlə, məğlub ölkədə orta hesabla hər il dövlət borcu təxminən 1 milyard dollar artıb. Son məlumatlara görə, Hayastanın dövlət borcu 11,4 milyard dollar civarındadır. Nikol Paşinyan hakimiyyətə gələnə qədər bu, 6,7 milyard dollar idi. Beş ildən az müddət sonra 4,7 milyard dollar borc yığılıb.

Gələn il Ermənistanın dövlət borcu son illərdəki kimi, heç də az olmayan sürətlə artacaq. Belə ki, hökumətin 2024-cü il dövlət büdcəsinə əsaslanan proqnozlarına əsasən, bu ilin sonunda dramla ifadə olunan dövlət borcu 4,660 milyard dram təşkil edəcək. İndi bu, 4,395 milyarddır. Yəni ilin sonuna kimi 265 milyard dram artacağı gözlənilir. Artıq gələn ilin sonunda hökumətin proqnozlarına görə, borc 5,318 milyard dram təşkil edəcək.

Ermənistan hakimiyyətinin bu proqnozları özünü doğrultsa, gələn il dramla ifadə edilən borc əsasən hökumətin öhdəliklərinə uyğun olaraq 658 milyard dram (təxminən 1,6 milyard dollar) artacaq. Proqnozlar isə yekunda onu deməyə əsas verir ki, gələn il borc öhdəlikləri 12 milyard dolları ötəcək.

Bu arada, 2024-cü il dövlət büdcəsinə əsaslanan proqnozlara əsasən, hökumətin borcunun xidmət xərcləri (faiz ödənişləri) ÜDM-in 3,1 faizini təşkil edəcək. Nominal ifadədə bu, 322 milyard dramdan çox olacaq.

Rəsmi İrəvan pensiya və müavinətləri artırmaq əvəzinə götürülmüş və bilinməyən səbəblərə xərclənən borcları ödəmək məcburiyyətində qalacaq. Əgər hər şey hökumətin tərtib etdiyi ssenari üzrə getsə, gələn il borcun xidmət məbləğləri, ən azı, 49,4 milyard dram artacaq. Hayastanın dövlət büdcəsinə əsaslanan məzənnə ilə hesablansa, bu, 128 milyon dollar alınır. Beləliklə, gələn il borc xidməti də artacaq və ümumilikdə 830 milyon dollardan çox olacaq.

Gələn il Azərbaycanda sosial müdafiə və sosial təminat xərcləri 4 milyard 542 milyon manat və ya 2,7 milyard dollar olacaq. Bu da 2023-cü illə müqayisədə 5,2 faiz çoxdur. Eləcə də Dövlət Sosial Müdafiə Fondunun 2024-cü il büdcəsi 6 milyard 919,9 milyon manat proqnozlaşdırılıb ki, bu da 2023-cü ilin təsdiq olunmuş proqnozu ilə müqayisədə 10,4 faiz və ya 690 milyon manat çoxdur.

2024-cü il üçün yaşayış minimumu ölkə üzrə 246 manatdan 270 manata, əmək qabiliyyətli əhali üçün 261 manatdan 287 manata, pensiyaçılar üçün 199 manatdan 222 manata, uşaqlar üçün isə 220 manatdan 235 manata qədər artırılacaq. Gələn il üçün ehtiyac meyarının həddi 24 manat artırılaraq 270 manat nəzərdə tutulur.

Beləliklə, sosial təminatla bağlı xərclərin məbləği təxminən 700 milyon manat artırılacaq ki, bu da bir çox sosial sahədə əlavə artımların maliyyə təminatı üçün əsas mənbə olacaq.

Qonşu Gürcüstanda isə 2024-cü ilin sosial müdafiə və təminat xərcləri 7,7 milyard lari (2,6 milyard dollar) təşkil edəcək. Bu isə Azərbaycanla müqayisədə təxminən 10 faiz azdır.

Məğlub Ermənistanda isə sosial müdafiə və təminat xərcləri 745 milyard dram və ya 1 milyard 850 milyon dollardır. Bu da o deməkdir ki, Azərbaycanla müqayisədə təxminən 1,5 dəfə azdır.

Cənubi Qafqaz ölkələrinin büdcələrində maraq doğuran məqamlardan biri də hərbi xərclərlə bağlıdır. Azərbaycanın büdcə layihəsinə görə, müdafiə və milli təhlükəsizlik xərcləri üçün 6 milyard 421 milyon manat (3,7 milyard dollar) ayrılacaq. Yəni bir tərəfdən, ordu quruculuğu prioritet olaraq qalır, bu məbləğ müasir silahlar almaq və hərbi sənayeni inkişaf etdirmək üçün kifayətdir, digər tərəfdən isə Azərbaycan həm də göstərir ki, silahlanma yarışına çıxmayıb.

Qonşu Gürcüstanın hərbi xərcləri gələn il üçün cəmi 1,370 milyard lari və ya 513 milyon dollar təşkil edəcək. Bu isə Azərbaycanla müqayisədə təxminən 7,2 dəfə azdır.

Büdcəyə əsasən, Ermənistan 2024-cü ildə əsaslı xərclərin 41 faizini müdafiə sektorunu dəstəkləməyə yönəldəcək. 2024-cü ildə əsaslı xərclər artaraq, 710 milyard dram (təxminən 1 milyard 775 milyon dollar) təşkil edəcək. Ermənistan Müdafiə Nazirliyinə 555 milyard dram (1,4 milyard dollar) ayrılacaq. Müdafiə xərcləri ÜDM-in 5,3 faizini təşkil edəcək.

Bütün hallarda, aparılan müqayisələr o qənaətə gəlməyə əsas verir ki, Ermənistan ötən ilə nisbətən hərbi xərcləri artırsa da, Azərbaycanla eyni səviyyədə olmaq gücündə deyil. Ən azından ona görə ki, Azərbaycanın müdafiə məqsədli xərcləri Ermənistanla müqayisədə təxminən 2,1 dəfədən artıq olacaq.

Aparılan müqayisələr o nəticəyə gəlməyə əsas verir ki, Vətən savaşında Azərbaycanın qarşısında diz çökən Ermənistan bu gün istənilən sahələrdə ölkəmizlə ayaqlaşmaq gücündə deyil və heç bir zaman da olmayacaq.

Əlbəttə ki, bu gün Azərbaycanın qazandığı uğurları şərtləndirən əsas amil Prezident İlham Əliyevin düşünülmüş iqtisadi konsepsiyasının tam doğru formada icrasıdır. Bütün bunlar isə verilən vədlərin uğurla reallaşması nəticəsində baş tutub. Dövlər başçısının söylədiyi kimi, son 20 il ərzində bir dənə də yerinə yetirilməyən vəd yoxdur. Bu günün reallıqları onu göstərir ki, Azərbaycan düzgün yolda gələcəyə doğru inamla addımlayır.

### Zəfər büdcəsi: Böyük qayıdış, Qarabağ və Şərqi Zəngəzurun bərpası

Ümumiyyətlə, son 20 ildə Prezident İlham Əliyevin əsas hədəflərindən biri Azərbaycanı özü-özünü təmin edən, heç kimdən asılı olmayan ölkəyə çevirmək olub. Bu səbəbdən də ölkədə iqtisadi müstəqillik əsas prioritet olub və siyasi müstəqillik üçün bünövrə rolunu oynayıb. Məhz cənab İlham Əliyevin müstəqil siyasəti, uğurlu diplomatiyası sayəsində Azərbaycan bu gün özünü təmin edən, iqtisadi müstəqilliyə sahib olan qüdrətli ölkədir.

Bunu Vətən müharibəsindən sonra Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən misli görünməmiş yenidənqurma, tikinti-quruculuq işlərinin heç kimdən yardım almadan dövlətin öz gücünə həyata keçirməsi də bir daha təsdiq edir.

Bu gün işğaldan azad edilən torpaqlarımızda həyata keçirilən tikinti-quruculuq işləri, "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın icrası uğurla davam etdirilir. Həm yurd yerlərimiz yenidən qurulur, həm də keçmiş məcburi köçkün soydaşlarımız demək olar hər gün doğma el-obalarına qayıdırlar.

İşğaldan azad edilmiş ərazilərimizə Böyük qayıdışın təmin edilməsi Azərbaycanın 2030-cü ilədək beş Milli Prioritetindən biri kimi müəyyən olunmuş və bu prioritetin reallaşması üçün 2022-2026-cı illəri əhatə edən "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı" dövlət başçısının 16 noyabr 2022-ci il tarixli sərəncamı ilə təsdiq edilib. Proqram Milli Prioritetlər üzrə iki məqsədə - əhalinin dayanıqlı məskunlaşması və ərazilərin iqtisadi fəaliyyətə reinteqrasiyası məqsədlərinə xidmət edir. Proqram üzrə tədbirlərin infrastruktur, iqtisadiyyatın daha da yüksəlməsi, sosial inkişaf və ərtaf-mühitin tarazlı inkişafı üzrə müəyyən edilmiş hədəf göstəricilərinə uyğun olaraq həyata keçirilməsi nəzərdə tutulur.

2023-cü ildə icraçı qurumlar tərəfindən təqdim edilmiş son məlumatlara əsasən, Böyük qayıdışa dair I Dövlət Proqramının icrası üçün 2022-2026-cı illərdə ümumilikdə 30,5 milyard manat məbləğində vəsait tələb olunur. 2020-2022-ci illərin dövlət büdcəsindən bu məqsədlə təqribən 6,6 milyard manat məbləğində vəsait ayrılıb. Bu ilin dövlət büdcəsində sözügedən proqramın icrası üçün 5,3 milyard manat, 2024-2026-cı illərdə ümumilikdə 10,6 milyard manat vəsaitin ayrılması nəzərdə tutulur.

Beləliklə, proqnozlaşdırılan vəsait də nəzərə alındıqda dövlət proqramının icrası üçün 2020-2026-cı illər üzrə ümumilikdə ayrılacaq vəsaitin həcmi 22,4 milyard manata çatdırılacaq.

Dövlət proqramına əsasən, Qarabağ və Şərqi Zəngəzurda ilkin mərhələdə 8 şəhər, 8 qəsəbə və 84 kəndin bərpa edilməsi nəzərdə tutulub. Prezident İlham Əliyevin iştirakı ilə 29 yaşayış məntəqəsinin təməli qoyulub. Ümumilikdə, müharibədən ötən müddətdə bərpa-quruculuq layihələri çərçivəsində dövlət başçısı tərəfindən 63 müxtəlif təyinatlı obyektin açılışı olub.

Ümumilikdə İkinci Qarabağ müharibəsi başa çatdıqdan sonra bərpa işlərinə Azərbaycan büdcəsindən 7 milyard dollar həcmində vəsait sərf edilib. Növbəti il üçün isə planlaşdırılan minimum büdcə 2,4 milyard dollar həcmində nəzərdə tutulub. Deməli, ölkəmiz heç bir maliyyə dəstəyi və yardım almadan Qarabağ və Şərqi Zəngəzurun bərpasını həyata keçirib və bundan sonra da Azərbaycan öz iqtisadi qüdrəti hesabına əzəli yurdumuzu cənnətməkana çevirəcək.

### Naxçıvanın sosial-iqtisadi inkişafına dəstək prioritetlər sırasındadır

Azərbaycanın 2024-cü il və ortamüddətli dövrdə büdcə siyasəti qarşısında duran prioritet istiqamətlərindən biri də Prezidentin 5 iyun 2023-cü il tarixli sərəncamı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nda müəyyən olunmuş tədbirlərin icrasından ibarətdir.

İşğaldan azad edilmiş ərazilərdə həyata keçirilən sürətli reinteqrasiya prosesi, irimiqyaslı tikinti-quruculuq işləri və tətbiq olunan güzəşt və azadolmalar, həmçinin Zəngəzur dəhlizi vasitəsilə bu ərazilərin Naxçıvan Muxtar Respublikası ilə əlaqələrinin qurulması perspektivi analoji çərçivənin Naxçıvanda da tətbiqinə imkanlar yaradır.

Hazırda sözügedən imkanlardan istifadə edərək muxtar respublikada iqtisadi inkişaf səviyyəsinin sürətləndirilməsi, əhalinin layiqli həyat səviyyəsi və məşğulluğunun təmin edilməsi, sosial rifah vəziyyətinin daha da yüksəldilməsi və ekoloji təhlükəsizliyin gücləndirilməsi fonunda görüləcək işlər yeni mərhələyə qədəm qoyub. Nəticədə, davamlı olaraq muxtar respublikanın sosial-iqtisadi inkişafı ilə əlaqədar kompleks proqramların hazırlanaraq icra olunması ön plana çıxıb.

Qeyd olunanları nəzərə alaraq sözügedən dövlət proqramının əsas məqsədi dayanıqlı artımın təmin edilməsi və vətəndaşların həyat səviyyəsinin yüksəldilməsi sayəsində Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının sürətləndirilməsini və ölkə iqtisadiyyatına tam inteqrasiyasını təmin etməkdən ibarətdir.

Bu xüsusda dövlət proqramında 2023-2027-ci illər üçün 11 prioritet istiqamət və 5 hədəf göstərici müəyyən edilib və proqramın həyata keçirilməsi ilə bağlı icrası planlaşdırılan bütün tədbirlər həmin prioritet istiqamətlər və hədəf göstəricilər üzrə qruplaşdırılıb. Belə ki, muxtar respublikanın bütün mövcud imkanlarından səmərəli istifadə etməklə çatışmazlıqların aradan qaldırılması və sosial-iqtisadi inkişafının sürətləndirilməsi ilə bağlı tədbirlər sözügedən prioritet istiqamətlər və hədəf göstəricilər nəzərə alınmaqla gerçəkləşdiriləcək.

Göstərilənlərlə əlaqədar olaraq "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nda müəyyən edilmiş tədbirlərin icrası ortamüddətli dövrdə büdcə siyasətinin prioritet istiqamətlərindən biri kimi nəzərə alınıb və bu məqsədlə 249,1 milyon manat məbləğində vəsaitin qarşılanması üçün 2024-cü ilin dövlət büdcəsi layihəsində maliyyə təminatı yaradılıb.

Beləliklə, yenilənmiş makroiqtisadi proqnozlara əsasən, qeyri-neft gəlirlərinin artımı və büdcə qaydası üzrə təklif olunan trayektoriya əsasında genişlənmiş ortamüddətli resurs zərfi ölkənin müdafiə və milli təhlükəsizlik qabiliyyətinin gücləndirilməsi, "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqram"nın dövlət borcuna xidmətlə bağlı xərc ehtiyaclarının qarşılanmasına imkan verir.

Yeni hədəflərdən biri də dövlət proqramı çərçivəsində Naxçıvanda "yaşıl enerji" potensialının yaradılması, enerji səmərəliliyi və ekoloji təmiz texnologiyaların tətbiqi tədbirlərinin genişləndirilməsi, habelə ekoloji təmiz və təhlükəsiz nəqliyyat vasitələrinin dövriyyəsinin stimullaşdırılmasıdır.

Bir sözlə, gələn ilin dövlət büdcəsinin xərclərinin istiqamətləri növbəti ildə hökumətin sosial-iqtisadi sahədə atacağı addımları əks etdirən güzgüdür desək, yanılmarıq.

*Xərclərin strukturuna baxdıqda görünür ki, əvvəlki illərdə olduğu kimi, növbəti ildə də əsas hədəflər əhalinin rifah səviyyəsinin yüksəldilməsi, investisiyaların stimullaşdırılması, insan kapitalının inkişafı, ölkənin təhlükəsizliyinin təmin olunmasıdır. Faktlar, real rəqəmlər göstərir ki, 2024-cü ilin dövlət büdcəsi ölkəmizin gələcək inkişafı üçün etibarlı təməl yaradır.*

**Səttar MÖHBALIYEV,**
***Milli Məclisin deputatı, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri***

# Mərkəzi icra hakimiyyəti orqanlarının və digər idarəetmə qurumlarının rəhbərləri tərəfindən 2023-cü ilin dekabr ayında şəhər və rayonlarda keçiriləcək vətəndaşların qəbulu cədvəli

| S/n | Qəbulu keçirən mərkəzi icra hakimiyyəti orqanı və idarəetmə qurumunun rəhbəri | Qəbulun keçirildiyi şəhər, rayon | Əhatə olunan şəhər və rayonlar | Qəbulun keçirildiyi gün |
|---|---|---|---|---|
| 1. | **"Azəriqaz" İstehsalat Birliyinin baş direktoru** Ruslan Əliyev | **Zaqatala** | Zaqatala, Balakən | **04** |
| 2. | **Baş prokuror** Kamran Əliyev | **Sumqayıt** | Sumqayıt, Qubadlı | **05** |
| 3. | **Daxili işlər naziri** Vilayət Eyvazov | **Quba** | Quba, Qusar, Xaçmaz, Şabran, Siyəzən, Xızı | **07** |
| 4. | **Ədliyyə naziri** Fikrət Məmmədov | **Şabran** | Şabran, Xaçmaz, Siyəzən | **07** |
| 5. | **Azərbaycan Respublikasının Məhkəmə-Hüquq Şurasının sədri** İnam Kərimov | **Şirvan** | Şirvan, Hacıqabul | **07** |
| 6. | **Fövqəladə hallar naziri** Kəmaləddin Heydərov | **Xızı** | Xızı, Siyəzən | **08** |
| 7. | **Mədəniyyət naziri** Adil Kərimli | **Naxçıvan** | Naxçıvan, Babək, Culfa, Kəngərli, Ordubad, Sədərək, Şahbuz, Şərur | **08** |
| 8. | **Gənclər və idman naziri** Fərid Qayıbov | **Ağsu** | Ağsu, İsmayıllı | **09** |
| 9. | **"Azərişıq" ASC-nin sədri** Vüqar Əhmədov | **Lənkəran** | Lənkəran, Astara | **11** |
| 10. | **Rəqəmsal inkişaf və nəqliyyat naziri** Rəşad Nəbiyev | **Abşeron** | Abşeron, Sumqayıt, Qubadlı, Zəngilan | **14** |
| 11. | **Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri** Mübariz Qurbanlı | **Sumqayıt** | Sumqayıt, Abşeron, Xızı, Qubadlı, Zəngilan | **14** |
| 12. | **Energetika naziri** Pərviz Şahbazov | **Şabran** | Şabran, Xaçmaz, Quba, Qusar, Siyəzən, Xızı | **15** |
| 13. | **Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi** Mürsəl İbrahimov | **Göyçay** | Göyçay, Mingəçevir, Yevlax, Ağdaş, Kürdəmir, Ucar, Zərdab | **15** |
| 14. | **Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin sədri** Zaur Mikayılov | **Masallı** | Masallı, Yardımlı | **15** |
| 15. | **Qida Təhlükəsizliyi Agentliyinin sədri** Qoşqar Təhməzli | **Şəmkir** | Şəmkir, Ağstafa, Qazax, Tovuz, Gədəbəy | **15** |
| 16. | **"Azəristiliktəchizat" ASC-nin sədrinin vəzifəsini müvəqqəti icra edən** İlham Mirzəliyev | **Neftçala** | Neftçala, Salyan | **15** |
| 17. | **Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri** Anar Quliyev | **Siyəzən** | Siyəzən, Xızı | **19** |
| 18. | **Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri** Rövşən Rzayev | **Biləsuvar** | Biləsuvar, Cəbrayıl | **21** |
| 19. | **Ekologiya və təbii sərvətlər naziri** Muxtar Babayev | **Qusar** | Qusar, Quba | **22** |
| 20. | **Elm və təhsil naziri** Emin Əmrullayev | **Ağdam (Quzanlı qəsəbəsi)** | Ağdam, Ağcabədi, Bərdə, Füzuli, Tərtər, Xocalı, Xocavənd, Şuşa | **22** |
| 21. | **Əmək və əhalinin sosial müdafiəsi naziri** Sahil Babayev | **Şamaxı** | Şamaxı, İsmayıllı | **22** |
| 22. | **İqtisadiyyat naziri** Mikayıl Cabbarov | **İmişli** | İmişli, Beyləqan, Füzuli | **22** |
| 23. | **Kənd təsərrüfatı naziri** Məcnun Məmmədov | **Salyan** | Salyan, Neftçala | **22** |
| 24. | **Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri** Bahar Muradova | **Lənkəran** | Lənkəran, Astara, Lerik | **22** |
| 25. | **Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin sədri** Saleh Məmmədov | **Siyəzən** | Siyəzən, Xızı | **22** |
| 26. | **İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin sədri** Zaur Əliyev | **Şirvan** | Şirvan, Hacıqabul | **22** |
| 27. | **Dövlət Gömrük Komitəsinin sədri** Şahin Bağırov | **Masallı** | Masallı, Yardımlı | **26** |

Vətəndaşların qəbulu müəyyən edilmiş günlərdə saat 10:00-da başlayır.

# Azərbaycan və Özbəkistanın QHT nümayəndələri hər iki ölkənin dövlət başçılarına müraciət ünvanlayıblar

**İşğaldan azad olunan ərazilərdə ilk dəfə olaraq keçirilən Azərbaycanın və Özbəkistanın qeyri-hökumət təşkilatlarının əməkdaşlıq forumunda vətəndaş cəmiyyəti təmsilçiləri hər iki ölkənin dövlət başçılarına birgə müraciət ünvanlayıblar.**

AZƏRTAC müraciəti təqdim edir: "Biz - Özbəkistanın və Azərbaycanın vətəndaş cəmiyyəti təmsilçiləri hər iki qardaş ölkənin dövlət başçılarına - türk dünyasının nəhəng şəxsiyyətləri olan Prezident İlham Əliyevə və Prezident Şavkat Mirziyoyevə Qarabağdan müraciət etməkdən bəxtiyarlıq duyuruq.

Otuz ilə yaxın müddətdə xarabalığa çevrilmiş, tamamilə dağıdılmış Qarabağ torpaqları indi cənnətə dönür. Qısa müddətdə görülmüş genişmiqyaslı, nəhəng işlər bütün türk dünyasını fərəhləndirir.

Sizlərə bu müraciəti qəbul etdiyimiz məkan da rəmzidir. Füzuli şəhərində özbək xalqının dahi oğlu Mirzə Uluqbəyin adını daşıyan təhsil ocağı, eyni zamanda Özbəkistanın və Azərbaycanın daha bir dostluq və qardaşlıq mərkəzidir. Qarabağın bərpası və quruculuğu işinə Özbəkistanın hədiyyəsi olan bu məktəb həmrəyliyimizin parlaq nümunəsidir. Təsadüfi deyil ki, ilk dəfə keçirilən Azərbaycanın və Özbəkistanın qeyri-hökumət təşkilatlarının əməkdaşlıq forumu da məhz bu mərkəzdə baş tutub.

Bu gün bütün dünya Özbəkistanın və Azərbaycanın dostluğuna, birliyinə, bütün beynəlxalq platformalarda bir-birini necə müdafiə etməsinə şahiddir. Azərbaycan-Özbəkistan münasibətləri tarixdə heç vaxt belə yüksək səviyyədə olmayıb. Bu, məhz Sizlərin xidmətidir, cənab Prezident İlham Əliyev və cənab Prezident Şavkat Mirziyoyev!

Biz - hər iki ölkənin vətəndaş cəmiyyəti təmsilçiləri olaraq, bu şəxsi nümunəyə, böyük əməyə, türk dünyasının güclənməsi, Azərbaycan və Özbəkistanın inkişaf etmiş dövlətlərə çevrilməsi naminə tarixi fəaliyyətinizə görə Sizlərə sonsuz təşəkkür edirik!

Məhəmməd Füzulinin uzun əsrlərdən bəri Özbəkistanda qorunub saxlanan əlyazmalarından birini 2022-ci ildə Daşkənddə Özbəkistan Prezidenti Azərbaycan Prezidentinə hədiyyə etdi. Dahi şair-mütəfəkkir Məhəmməd Füzulinin adını daşıyan Füzuli rayonunda bu hadisəni xatırlamamaq mümkün deyil. Qədirbilən özbək xalqı özbək ədəbiyyatının və poeziyasının banisi Əlişir Nəvainin böyük Nizami Gəncəvinin əsərlərindən ilham almasını, onu "şairlərin şahı" adlandırmasını unutmur.

Özbəkistanı və Azərbaycanı çoxəsrlik tarix, ortaq mənəvi dəyərlər, din, oxşar mədəniyyət, dil birləşdirir. Biz - hər iki ölkənin vətəndaş cəmiyyəti təmsilçiləri olaraq bu möhkəm bünövrə üzərində münasibətləri öz səviyyəmizdə daha da inkişaf etdirmək, genişləndirmək əzmimizi ifadə edirik. Azərbaycanın və Özbəkistanın qeyri-hökumət təşkilatlarının əməkdaşlıq forumu birbirimizi daha yaxından tanımaq fürsəti verməklə, ortaq fəaliyyəti təşkil etmək, irəli aparmaq üçün körpü rolunu oynadı.

Bu gün Azərbaycan və Özbəkistan dünyamiqyaslı güclü siyasi liderlərinə görə sülh və sabitlik adası kimi sürətlə inkişaf edir. Dünyanın müxtəlif regionlarındakı qanlı hadisələri, toqquşmaları, sonu görünməyən müharibələri ürək ağrısı ilə izləyirik. Bizim ölkələrimiz də bu fəlakətlərə düçar ola bilərdi. Ancaq Azərbaycan və Özbəkistan xalqları müdrik seçimlərində yanılmadılar, onlar ölkələrinin talelərini Prezident İlham Əliyevə və Prezident Şavkat Mirziyoyevə etibar etdilər.

Biz Özbəkistanın və Azərbaycanın vətəndaş cəmiyyəti təmsilçiləri olaraq, Sizlərə üz tutub bildirmək istəyirik ki, apardığınız siyasəti tam müdafiə edirik, Sizlərin yanındayıq!

Biz Azərbaycanı sevirik! Biz Özbəkistanı sevirik!

Yaşasın Özbəkistan-Azərbaycan dostluğu, qardaşlığı!"

# Özbəkistan QHT-lərindən ibarət nümayəndə heyəti Şuşada bərpa-quruculuq işləri ilə tanış olub




**Özbəkistanın Qeyri-Hökumət Qeyri-Kommersiya Təşkilatları Milli Assosiasiyasının sədri Kamoliddin İşanxojayevin rəhbərliyi ilə geniş tərkibdə nümayəndə heyəti Şuşanın görməli yerlərini gəzib, şəhərlə tanış olublar.**

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikası Prezidentinin Şuşa rayonunda xüsusi nümayəndəsi Aydın Kərimovla görüşdə nümayəndə heyətinə Şuşada aparılan genişmiqyaslı bərpa və quruculuq işləri barədə ətraflı məlumat verilib.

Səfər çərçivəsində Şuşanın azad olunması zamanı Azərbaycan hərbçilərinin göstərdikləri şücaətdən, eyni zamanda şəhərin tarixi, strateji, mədəni və mənəvi əhəmiyyətindən söz açılıb. O cümlədən, erməni vandalizminin Şuşada məscidlərə, tarixi abidələrə və digər obyektlərə vurduğu zərər haqqında məlumat verilib.

Qonaqlar mədəniyyət paytaxtımızda böyük həcmdə və sürətlə aparılan abadlıq, quruculuq işləri ilə də tanış olublar.

Şuşa səfəri qonaqlarda xoş əhvali-ruhiyyə oyadıb və onlar xalqımızın qazandığı Zəfərə, Qarabağın incisi olan Şuşaya səfər imkanına görə Prezident İlham Əliyevə təşəkkür ediblər.

# *Dmitri SAVELYEV:* "Rusiya ilə Azərbaycan arasında mədəniyyətlərarası dialoq dərinləşir"

**Başa çatan 2023-cü il MDB-də "Rus dili ili" oldu. Bu tamamilə təbiidir, çünki məhz bu dil Birlik ölkələrində millətlərarası ünsiyyət və inteqrasiya dialoqu üçün mühüm vasitə hesab edilir.**

MDB iştirakçı dövlətlərin Parlamentlərarası Assambleyasının bu yaxınlarda keçirilmiş plenar iclasında Azərbaycan Milli Məclisinin Sədri Sahibə Qafarova qeyd edib ki, yola saldığımız ildə Azərbaycanda bir çox təhsil, mədəni-maarif tədbirləri təşkil olunub və onların hamısı respublikada rus dilinin möhkəmlənməsinə yönəldilib. Rusiya-Azərbaycan Parlamentlərarası Dostluq Qrupunun rəhbəri, Rusiya Dövlət Dumasının deputatı Dmitri Savelyev AZƏRTAC-a müsahibəsində Azərbaycan ilə Rusiya arasında yeni humanitar, mədəni və təhsil layihələrindən bəhs edib.



*- Dmitri İvanoviç, mütəxəssislər qeyd edirlər ki, qonşuların dilinə və mədəniyyətinə münasibət iki ölkənin əlaqələrində səmimiliyin və yaxınlığın göstəricisidir. Azərbaycanda rus dilinə və mədəniyyətinə münasibətdə və Azərbaycan mədəniyyəti ilə bağlı Rusiyada vəziyyətə dair fikirləriniz nədən ibarətdir?*

- Rusiyalılar yaxşı bilirlər ki, bu günümüzdə də, bizim tarixi keçmişimizdə də Azərbaycanda rus mədəni irsinə və dilinə hörmət və diqqətlə yanaşırlar. Əlbəttə, bu maraq və diqqət qarşılıqlıdır. Son məlumatlara görə, Azərbaycanda əhalinin təqribən üçdə ikisi, o cümlədən ölkə ziyalılarının böyük əksəriyyəti rus dilini bilir, rus icmasının isə təxminən 120 min üzvü var və bu, Cənubi Qafqazda ən yüksək göstəricidir. Respublikada rus dilində təhsil almaq olar, rusdilli KİV fəaliyyət göstərir, tamaşalar hazırlanır, filmlər nümayiş etdirilir, rus dilində kitablar nəşr olunur, Rusiyanın yaradıcı kollektivlərinin müntəzəm qastrolları keçirilir. Ayrıca qeyd edərdim ki, Rusiyada da zəngin Azərbaycan mədəniyyətini böyük maraq və hörmətlə qəbul edirlər. Azərbaycan kollektivlərinin qastrollarına, azərbaycanlı bəstəkarların və musiqiçilərin, şair və yazıçıların, aktyor və rəssamların yaradıcılığına da böyük maraq var. Onların bir çoxunu həm Azərbaycanın, həm də Rusiyanın mədəniyyət xadimləri adlandırmaq olar.

*- Siz Azərbaycanda rus dilində təhsili xatırlatdınız. Bu gün ona tələbin olmasını necə qiymətləndirərdiniz?*

- Bunu rəsmi statistik rəqəmlər əyani şəkildə göstərir: Azərbaycanın 340-dan çox məktəbində təhsil rus dilində aparılır, yəni, "rus sektorunda" təqribən 150 min uşaq oxuyur, həmçinin siniflər ağzınadək doludur. Rus dilində ali məktəblərdə də təhsilin populyarlığı ildən-ilə artır. Ölkənin bir çox universitetlərində rusdilli bölmələr var. Mütəxəssislərin bildirdiyinə görə, hazırda Azərbaycanda təqribən 15 min tələbə rus dilində təhsil alır. Respublikada Slavyan Universitetinə və Rusiya ali məktəblərinin filiallarına - MDU, İ.M.Seçenov adına Birinci MDTU-ya böyük tələbat var. Digər ali məktəblərdə də perspektivli qarşılıqlı fəaliyyət müşahidə olunur. Belə ki, məsələn, bu yaxınlarda Bakıda Sankt-Peterburq Politexnik Universitetinin nümayəndə heyəti ilə Rusiya və Azərbaycan ali məktəbləri arasında əməkdaşlıq və tərəfdaşlığın mümkün variantları müzakirə olunub.

*- Yəqin ki, Azərbaycanda təhsil sahəsində rus dilinin bu cür populyar olmasının amillərindən biri də təhsili Rusiyada davam etdirmək imkanıdır.*

- Şübhəsiz, Rusiyada ixtisasın, stajın artırılması, bəzən isə məşğulluq və karyera imkanları da bu məsələdə mühüm rol oynayır. Bakıda oktyabr ayında keçirilmiş Rusiya ali məktəblərinin təhsil sərgisini yüzlərlə insan ziyarət edib, onlar bir sıra Rusiya universitetlərinin resurs imkanları, unikal təhsil layihələri və azərbaycanlı tələbələr üçün yaradılan şəraitlə tanış olublar. Bundan başqa, Azərbaycanda "rus sektorunun" şagirdləri üçün Rusiyanın elmi və yaradıcı konfransları, forumlarında iştirak etmək, rusiyalı həmkarlarla dialoq aparmaq imkanları da əhəmiyyətlidir. Məsələn, Azərbaycandan olan istedadlı tələbələr və aspirantlar bu yaxınlarda "Gənc alimlər regionun drayveri kimi" adlı Xəzər Gənclər Forumunda iştirak ediblər. Onlar Həştərxan Tibb Universitetində keçirilən bu tədbirdə ekologiya və tibb sahələrində innovasiyaları təqdim ediblər.

Vurğulamaq istəyirəm ki, tələbə gənclər bizim xalqlarımızın, mədəniyyətlərimizin və icmalarımızın yaxınlaşmasına mühüm töhfələr verirlər. Məsələn, bu yaxınlarda Moskva Dövlət Linqvistik Universitetində keçirilmiş "Xalqlar dostluğu" Üçüncü Beynəlxalq Forumunda Azərbaycanın himni səsləndirilib, tədbirin gedişində isə qonaqlar MDB xalqlarının dillərinin öyrənilməsi mərkəzləri ilə, milli mədəniyyətlər, musiqi, milli mətbəxlərlə tanış olmaq imkanı əldə ediblər.

*- Rusiya ilə Azərbaycan arasında mədəniyyət sahəsində möhkəm əlaqələr bizim ortaq tariximizə, ümumi yaradıcılıq irsimizə əsaslanır. Bu irsin qorunması üçün hər iki ölkədə hansı işlər görülür?*

- Həm Rusiyada, həm də Azərbaycanda keçirilən yaradıcılıq tədbirlərində görkəmli mədəniyyət xadimləri iştirak edirlər, bizi birləşdirən milli keyfiyyətlər ifadə olunur. Ölkələrimizdə təkcə klassiklərin yaradıcılığı deyil, həm də müasir mədəniyyət xadimlərinin bu sahəyə töhfələri qeyd olunur. Xüsusən, görkəmli Rusiya-Azərbaycan bəstəkarı Fərəc Qarayevin 80 illiyi münasibətilə Moskvada konsertlər təşkil olunur. Bizim ortaq mədəni irsimizə aid olan gələcək ulduzlar da diqqətdən kənarda qalmır. Belə ki, "Neva bülbülü" Ümumrusiya Vətənpərvərlik Uşaq Mahnı Müsabiqəsində iştirak edən 118 istedadlı uşaq və yeniyetmələrin arasında mötəbər Rusiya münsiflər heyəti birinci yerə məhz Müslüm Maqomayevin "Azərbaycan - baharlı yurdum" mahnısını ifa edən Bakı Musiqi Akademiyasının musiqi məktəb-studiyasının məzunu Teymur Kazımovu layiq görüb. O, hazırda öz təhsilini Sankt-Peterburq Dövlət Konservatoriyasında davam etdirir.

Əlbəttə, Rusiyanın incəsənət xadimləri də Azərbaycanda diqqətdən kənarda qalmır, həm də onlar həmişə azərbaycanlı tamaşaçıları yeni xüsusi sürprizlərlə sevindirməyə çalışırlar. Məsələn, Yeni il ərəfəsində Heydər Əliyev Fondu görkəmli rus opera müğənnisi Yana Melikayevanı Bakıya dəvət edib. O, Heydər Əliyevin 100 illiyinə həsr olunmuş tədbirdə xüsusi olaraq bir neçə mahnını Azərbaycan dilində ifa edəcək.

*- Bu yaxınlarda keçirilmiş, ölkələrimiz arasında humanitar əlaqələrin inkişafına xidmət edən hansı tədbirləri əlamətdar adlandıra bilərsiniz?*

- IX Bakı Beynəlxalq Kitab Sərgisi Azərbaycanda rus dilinin aktuallığını və əhəmiyyətini açıq şəkildə nümayiş etdirdi. Rusiya bu sərgidə fəxri qonaq qismində iştirak edirdi və Azərbaycanın mədəniyyət naziri Adil Kərimli, həmçinin Rusiyanın Azərbaycandakı səfiri Mixail Yevdokimov tədbirdə iştirak edirdilər. Rusiyanın 100 kvadratmetrlik stendində 600-dən çox nəşr təqdim edildi. Bundan başqa, azərbaycanlı mütəxəssislər "Bizim kitabxanalar. Rus dili ana dili kimi" profil proqramı çərçivəsində Rusiyanın kitabxana və təhsil texnologiyaları ilə tanış oldular. Professional inkişaf üzrə həyata keçirilən bu proqram oktyabrda Sankt-Peterburqda bu şəhərin rəhbərliyinin, "Rossotrudniçestvo" və Mayakovski adına kitabxananın dəstəyi ilə təqdim edilib.

*- Rusiya və Azərbaycanın iştirakı ilə qarşıdakı tədbirlərin hansı şəxsən sizin üçün əhəmiyyətlidir?*

- Məsələn, biz 2024-cü ildə Bakıda keçiriləcək VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu və 2025-ci ildə Azərbaycanda təşkil ediləcək MDB ölkələrinin III Oyunlarını səbirsizliklə gözləyirik. Azərbaycan özünün təşkilatçılıq qabiliyyəti və bu cür mötəbər tədbirlərin ən yaxşı səviyyədə keçirilməsi ilə tanınır. Əminəm ki, bu tədbirlər bizim aramızda qarşılıqlı anlaşmanın, faydalı əməkdaşlığın, mehriban, qonşuluğun və səmimi dostluğun möhkəmləndirilməsi işinə xidmət edəcək.

# Demokratiyanın iki üzü - ədalətin ikili standartı

## Azərbaycan Qərbin məkrli planlarını iflasa uğradır

**Tarixinin ən qüdrətli dövrünü yaşayan Azərbaycanın zirvəyə doğru gedən yolu heç də hamar olmayıb. Bu yolda dövlət olaraq nə qədər dolanbaclardan, enişlərdən-yoxuşlardan keçməli olub. Məhz Heydər Əliyev siyasətinin, İlham Əliyev qətiyyətinin nəticəsində antimilli şəbəkələrin ölkəmizə qarşı qurduqları bütün planlar iflasa uğradılıb, Azərbaycan öz gələcəyinə doğru inamla addımlayıb. Bütün bunların nəticəsidir ki, artıq torpaqlarımız işğaldan azad edilib, ərazi bütövlüyümüz təmin olunub.**




### Erməni təəssübkeşlərinin əsl siması tam ifşa olundu

Azərbaycanın hazırda dayandığı zirvədən düşmənlərimiz də aydın görünür. Bəlli düşmənimiz yalnız Ermənistan yox, həm də ABŞ və Fransa, eyni zamanda Kanada kimi dövlətlərdir. Vətən müharibəsinin başa çatmasından ötən 3 ilin reallıqları, əslində, əvvəldən də bəlli olan belə bir həqiqəti tam təsdiq edir ki, Qərbin bu siyasi mərkəzləri onilliklər boyu Ermənistanın işğal siyasətinə dəstək veriblər, Azərbaycan torpaqlarında ikinci erməni dövlətinin yaradılmasına çalışıblar. Üzdə Azərbaycanın ərazi bütövlüyünə dəstək nümayiş etdirməklə, lakin ikiüzlü siyasət yürütməklə, beynəlxalq hüququn norma və prinsiplərini tapdalayıblar.

Torpaqlarını işğaldan azad edən Azərbaycan dövləti həmin Qərb dairələrinin əsl simalarını tam ifşa etdi. Maskası cırılan Fransanın çıxmadığı hoqqalar qalmadı. Əlbəttə ki, bu ölkənin qanunverici orqanında qəbul edilən "sənədlər"in adi kağız parçası qədər dəyəri yoxdur və zəngin, tarixi dövlətçilik ənənələri ilə öyünən Fransa bununla özünü gülünc vəziyyətinə saldı.

Qarabağda erməni separatizminə son qoyulmasından sonra Qərbin bəzi ölkələri Azərbaycana savaş açıblar və bu davranışları ilə dövlətimizin öz ərazi bütövlüyünü bərpa etməsinə açıq şəkildə etirazlarını bildirirlər. Bunu başqa cür də dəyərləndirmək mümkün deyil. Fransanın Ermənistanı silahlandırması Qərbin regiondakı sülhün əldə olunmasına qarşı çıxmasından xəbər verir. Bir məsələni də qeyd edək ki, Fransa özünü dünyaya demokratik ölkə kimi sırımağa çalışsa da, əməlləri ilə hələ də müstəmləkəçilik baxışlarına sadiq qaldığını sübut edir. İndiki məqamda isə Afrikadan qovulan Fransa Ermənistan vasitəsilə Cənubi Qafqazda möhkəmlənməyə çalışır.

### ABŞ maliyyəsi ilə Ermənistanın işğal siyasətinə kömək göstərib

Fransa kimi ABŞ da bir dəfə olsun belə, Azərbaycan torpaqlarının işğal edilməsinə görə Ermənistanı qınamayıb. Bir dəfə də olsun ABŞ-nin hansısa siyasi strukturu BMT Təhlükəsizlik Şurasının məlum 4 qətnaməsinin icrası ilə bağlı Ermənistana çağırış etməyib. Amma 1992-ci ildə ABŞ Azərbaycana qarşı məlum 907-ci düzəlişi qəbul edib. Azərbaycan xalqı bu riyakarlığı unutmayıb və unutmayacaq.

Xatırladaq ki, Ermənistanın Azərbaycana qarşı işğalının genişləndiyi 1992-ci ildə Qarabağda Xocalı soyqırımı ilə yanaşı, Şuşa rayonunun Malıbəyli, Aşağı Quşçular və Yuxarı Quşçular kəndlərində, Xocavənd rayonunun Qaradağlı kəndində, Kəlbəcər rayonunun Ağdaban, Ballıqaya kəndlərində azərbaycanlı əhaliyə qarşı kütləvi qırğın aktları törədilərkən, Şuşa və Laçında etnik təmizləmə aparılarkən ABŞ BMT Təhlükəsizlik Şurasının daimi üzvü kimi Azərbaycan xalqına qarşı qətliamların qarşısını almağa səy göstərməyib. Əksinə, bu ölkənin qanunvericilik orqanı erməni təbliğatının təsiri altında "Azadlığa dəstək aktı" adlanan qanuna 907-ci düzəlişi qəbul edib. Bununla da ABŞ hökumətinin Azərbaycana maliyyə yardımı göstərməsi qadağan olunmuşdur. Keçmiş SSRİ respublikaları arasında Azərbaycan yeganə ölkə idi ki, onun əleyhinə bu cür qərar qəbul edilmişdi. Nəticə etibarilə ABŞ-nin təcavüzkar Ermənistana verdiyi maliyyə dəstəyi Azərbaycan torpaqlarının işğalına kömək göstərmişdir.

### Böhtançı və riyakar açıqlamalar qətiyyətlə və adekvat şəkildə cavablandırılır

Son vaxtlarda ABŞ-dən Azərbaycana qarşı böhtan xarakterli açıqlamaların çoxalması Senatın "2023-cü il erməniləri müdafiə aktı" qəbul etməsi, Nümayəndələr Palatasının Xarici işlər komitəsinin Avropa üzrə alt komitəsində dinləmələrdə ölkəmiz əleyhinə səslənən çıxışlar göstərir ki, ABŞ Azərbaycanın öz ərazi bütövlüyünü bərpa etməsini həzm edə bilmir. Milli Məclisin ABŞ Senatının "2023-cü il erməniləri müdafiə aktı" ilə əlaqədar bəyanatında bununla bağlı deyilir: "Qondarma "Dağlıq Qarabağ Respublikası" özünü buraxdığını elan etdikdən sonra Amerikanın onu müdafiə etməsi siyasi riyakarlıq olub regionda vəziyyətin yenidən gərginləşməsinə xidmət edir. Sözdə Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini tanıyan ABŞ tərəfi məhz ölkəmiz ərazi bütövlüyünü və suverenliyini tam bərpa etdikdən sonra Azərbaycana qarşı qeyri-dost addımlarını intensivləşdirməklə ikiüzlü siyasət yeritdiyini ortaya qoymuşdur".

Kənardan kimin nə deməsindən, nə etməsindən asılı olmayaraq, Azərbaycan öz yolu ilə gedir və bundan sonra da gedəcək. Hansısa dövlət və ya təşkilatın Azərbaycana təsir etmək üçün hazırladıqları planlar iflasa məhkumdur. O cümlədən onların ölkəmizin milli maraqlarına qarşı yönəlmiş bütün böhtançı və riyakar açıqlamaları dövlətimiz tərəfindən qətiyyətlə və adekvat şəkildə cavablandırılır.

*Rəşad CƏFƏRLİ,*
*"Azərbaycan"*

## ABŞ niyyətinə çata bilməyəcək

**"Azərbaycan tarixin müxtəlif dövrlərində ABŞ-nin haqsız və ədalətsiz davranışlarına şahid olub. Zaman-zaman bu ölkənin məsələlərə ikili standartlarla yanaşdığını görmüşük. 1920-ci il yanvarın 11-də Paris Sülh Konfransının Ali Şurasında Azərbaycan de-fakto tanınıb. Ondan sonrakı dönəmdə isə Azərbaycan SSRİ kimi imperiyanın tərkibində olub. Ona görə də yalnız 1991-ci ildə dövlət müstəqilliyimizi bərpa etdikdən sonra ABŞ-nin iç üzünü daha aydın görə bilmişik. Bu gün də ənənəvi riyakar siyasətini davam etdirən ABŞ Azərbaycana qarşı münasibətdə beynəlxalq hüququn norma və prinsiplərini pozur".**



Bu fikirləri "Azərbaycan" qəzetinə açıqlamasında Milli Məclisin deputatı Anar İsgəndərov deyib. Deputat bildirib ki, müstəqillik tariximizdə ölkəmizin qazandığı uğurların heç biri ABŞ-ni sevindirməyib. Bu ölkə XX əsrin əvvəllərində olduğu kimi, yenə də Ermənistanın müdafiəsinə qalxır, hətta ermənilərə görə Türkiyəni də ittiham edir və saxta 24 apreli soyqırımı tarixi kimi qəbul edir. "Azərbaycanın Naxçıvan boyda ərazisi blokadada olduğu halda ABŞ-nin "Azadlığı müdafiə aktı"na etdiyi 907-ci düzəliş bizə qarşı böyük ədalətsizlikdir. Guya biz Ermənistanı blokadada saxlamışdıq… Bundan böyük saxtakarlıq, riyakarlıq olardımı?!", - deyə deputat qeyd edib.

Anar İsgəndərovun dediyinə görə, ABŞ-dəki erməni lobbisi, ermənilərin göz yaşlarını özlərininki hesab edən məmurlar tarix boyu bizə qarşı amansız mövqe ortaya qoyublar: "Əfqanıstanla müharibə başlayanda ABŞ-nin 907-ci düzəlişi müvəqqəti aradan qaldırılması da öz maraqlarına xidmət edirdi. Yoxsa torpaqlarımızın işğalda olduğu 30 il ərzində Ermənistanın xeyri üçün əlindən gələn hər şeyi etməzdi. Təsadüfi deyil ki, bu ölkə bircə dəfə də olsun işğalçının və işğala məruz qalanın hansı tərəf olduğunu qeyd etməyib. Bu, ABŞ-nin iç üzünü açan nümunələrdən yalnız biridir".

Deputat söyləyib ki, yeri gəldi-gəlmədi, Ermənistanı müdafiə edən və Qarabağın ermənilərdə qalması üçün cəhdlər göstərən ABŞ bu gün riyakar davranışlarını intensivləşdirib: "Bu ölkə İkinci Qarabağ savaşında, eləcə də sentyabrın 19-20-də keçirilən antiterror tədbirlərində əldə etdiyimiz zəfərləri həzm edə bilmir. Məhz bu cür dövlətlərin qərəzi və ikiüzlülüyü ucbatından Azərbaycan torpaqları 30 il separatçı yuvası olub. Şükürlər olsun ki, rəşadətli ordumuzun yenilməz gücü sayəsində uzun illərdir ki, mövcud olan bu separatçı rejim darmadağın edilib".

Anar İsgəndərov vurğulayıb ki, ABŞ Azərbaycanın haqq işini tanımaq əvəzinə qərəzli bir mövqe tutub. Onların fikrincə, guya ermənilərə qarşı etnik təmizləmə aparılıb: "Ermənistanın baş naziri də bu gün etiraf edir ki, Qarabağdan köçürülən ermənilər etnik təmizləmə və zorakılığa məruz qalmayıblar. Həmin günlərdə müxtəlif xarici televiziya kanallarında Qarabağdan köçən ermənilərin müsahibələri yayımlanırdı ki, onlar az da olsun, təhdidlə və ya təzyiqlə üzləşməyiblər. ABŞ nəyə əsasən deyir ki, Qarabağda proses ədalətli şəkildə aparılmayıb? Maraqlıdır, görəsən, ABŞ ədalət dedikdə nəyi nəzərdə tutur?"

Deputat ABŞ-nin mövqeyinin heç bir zaman Azərbaycanın maraqları üzərində qurulmadığını bildirib. Lakin bu, bizi narahat etmir. Çünki bu gün istər iqtisadi, istərsə də hərbi-siyasi cəhətdən güclü Azərbaycan var. Odur ki, ABŞ-nin haqqımızı tapdalamaq istəyi gözündə qalacaq. Bu ölkə heç vaxt ölkəmizlə bağlı riyakar arzularına çata bilməyəcək.

*Nəzrin QAFARZADƏ,*
*"Azərbaycan"*

## Ciblərindən uzağı görməyənlər

### Havayı qrant tələdə olur

**Qərb ölkələri təkcə Ermənistana silah-sursat verməklə, maddi yardım göstərməklə deyil, həm də qrant xisləti ilə ölkəmiz əleyhinə addımlar atır. Bu addımlardan isə ürəkaçan səs gəlmir. Çünki pis niyyətlə atılan addımlardır. Bu, bir növ tülkünün həccə getməsinə bənzəyir. Qrantı əlində əsas tutan Qərb ölkələri cəlbedici layihələrin pərdəsi arxasından müxtəlif təşkilat və cəmiyyətlər vasitəsilə ölkəmizin içərilərinə soxulurlar. Guya ki, nəyəsə kömək edir, nəyi isə inkişaf etdirirlər.**



Belə şirnikdirici layihələrdən biri də Avropa İttifaqının elan etdiyi "Şərq tərəfdaşlığı proqramına daxil olan ölkələr"də demokratiya və insan hüquqlarının inkişafını ehtiva edən yüksək məbləğli qrant layihəsidir. Layihə Ukrayna, Moldova, Belarus, Gürcüstan və Ermənistanla yanaşı, Azərbaycanı da əhatə edir. Rəsmi elana görə, bu layihə "ictimai maraq kəsb edən mövzular üzrə jurnalist araşdırmalarının həyata keçirilməsini" nəzərdə tuturdu. Müsabiqəyə müraciət edənlərin hər birinin 100 min avro məbləğində uduş əldə edəcəkləri vəd olunurdu. Donor qismində çıxış edən ABŞ institutları, o cümlədən USAİD, ABŞ-nin Azərbaycandakı səfirliyi 2023-cü il üzrə böyük məbləğli qrant vəsaitləri üçün maliyyə qapılarını geniş açmışdılar. Layihəyə görə, "Peşəkar medianın inkişafı", "Vətəndaş jurnalistikasının təşviqi", "Media ehtiyaclarının qiymətləndirilməsi", "İctimai maraq kəsb edən mövzularda sosial media fəallığının artması" və digər bu kimi istiqamətlərdə təqdim edilən hər bir layihə üzrə 65 min ABŞ dolları məbləğində qrant vəsaiti qazanmaq mümkün idi.

2023-cü ildə Azərbaycanda ictimai sektor üzrə qrant layihələri təqdim edənlərin siyahısında fəallıq göstərənlərdən biri də Avropa Şurasıdır. AŞ sosial, iqtisadi, mədəni və digər istiqamətlər üzrə layihələr üçün ümumilikdə 4,5 milyon avro məbləğində vəsait ayırıb. Bunlar üzdə görünən məşhur donorlardır. Bu ilin qrant layihələrində Azərbaycana yer ayırmış təşkilat və fondların siyahısı genişdir. Tanınan və tanınmayan çoxsaylı donorlar Azərbaycanda "ictimai maraq kəsb edən mövzular üzrə araşdırmaların həyata keçirilməsi üçün" yüksək məbləğli qrant müsabiqələri elan ediblər.

İlk baxışdan layihələrin istiqamətlərində ziyanlı heç nə yoxdur. Donor institutlarının ölkəmizdə yenidən fəallaşması, Azərbaycana maraq göstərməsi, ictimai problemlərin aradan qaldırılmasına dəstək verməsi yaxşı haldır. Deyə bilərlər ki, dolayısı ilə ölkəmizdə demokratik ənənələrin inkişafına, modern trendlərə uyğun icmaların formalaşmasına təkan verirlər. Təəssüf ki, bütün bunlar zahiri görüntülərdir, aldadıcı manevrlərdir. Təcrübə göstərir ki, əksər Qərb institutları demokratik inkişafı hədəfləyən layihələr adı altında adətən çirkin niyyətlər həyata keçirirlər. Cəmiyyətin demokratikləşdirilməsi yerinə, məsuliyyət hissini itirmiş, milli dəyərlərə arxa çevirən təşkilatlar hazırlayırlar. Təəssüf ki, bənzər əlamətlər 2023-cü il üzrə elan edilmiş qrant proqramlarında da aydın göründü. Həm də daha kəskin formada.

Qərbin məharətlə qurduğu tora düşmüş bəzi QHT-lər və KİV nümayəndələri bəlkə də heç qrantın nə olduğunu əməllibaşlı bilmirlər. Lakin çirkin məqsəd güdən külli miqdarda verilən pullar onların gözlərini bağlayıb. Əgər belə olmasaydı, KİV nümayəndələri müsabiqələrə qoşulmazdan əvvəl özlərinə əziyyət verib qrantın nə olduğunu öyrənərdilər. Məhz ondan sonra lazım bilsəydilər, bu addımı atardılar. Təəssüflər olsun ki, bu gün törətdikləri əməllərə görə haqlarında həbs qəti-imkan tədbirləri verilən media nümayəndələri qrantı almazdan əvvəl bunu fikirləşməyiblər, atacaqları addımların sonrasını götür-qoy etməyiblər. Ciblərinə qoyduqları pullardan uzağı görməyiblər. Halbuki Azərbaycan Respublikasının müvafiq qanununda açıq-aydın yazılıb: "Qrant - humanitar, sosial və ekoloji layihələri, müharibə və təbii fəlakət nəticəsində ziyan çəkmiş ərazilərdə dağılmış istehsal, sosial təyinatlı obyektlərin və infrastrukturun bərpası üzrə işləri, təhsil, səhiyyə, mədəniyyət, hüquqi məsləhət, informasiya, nəşriyyat və idman sahələrində proqramları, elm, tədqiqat və layihələşdirmə proqramlarını, dövlət və cəmiyyət üçün əhəmiyyət kəsb edən digər proqramları hazırlamaq və həyata keçirmək üçün qanunla nəzərdə tutulmuş qaydada göstərilən yardımdır". Əslində, bunu bilmək vətəndaşdan elə də böyük bilik tələb etmir. Sadəcə olaraq, bunu öyrənməyə maraq lazımdır. Təəssüf ki, onların qazanacaqları pullar öyrənməli olduqları bilikləri kölgədə qoyub. Buna görə də ciblərindən uzağı görməyiblər.

Başqalarından şəffaflıq tələb edən Qərb ölkələri özləri işlərini qalın pərdələr arxasında görürlər. Qrant müsabiqələri bütün QHT və KİV, sosial media fəalları üçün açıq elan olunsa da, son seçimin heç də şəffaf aparılmadığı görünür. Sonda qaliblərin adları ictimailəşdirilmir. Əgər bu sahədə xüsusi tədqiqat aparılmasa, kimin müsabiqə keçirdiyini, kimin qalib olduğunu aydınlaşdırmaq mümkün deyil. Ödənişləri də mütləq şəkildə bank hesabı vasitəsilə deyil, nağd şəkildə ödəyirlər. USAİD, Aİ (AK) və qrant verən səfirliklər 2014-cü ildən sonra bu mexanizmi geniş tətbiq edirlər. Qeyri-leqal, qeyri-məqbul istiqamətlər üzrə layihələri icra etmiş QHT və KİV məsuliyyətdən yayındırılırlar. Bu da Qərbin şəffaflığı!

ABŞ-nin təxribat institutları qrant vasitəsilə Azərbaycanda radikal feministlər, "Abzas Media", "Toplum TV", "Demokratik Təşəbbüslər İnstitutu" qismində "yığcam və çevik qruplar" formalaşdırıblar. Noyabrın 21-də "Abzas Media" xəbər saytının direktoru Ülvi Həsənli və baş redaktoru Sevinc Abbasova (Vaqifqızı) Bakı şəhər Baş Polis İdarəsinin əməkdaşları tərəfindən saxlanılıblar. Onların ofis və evlərində axtarış aparılıb. Mənbəyi bilinməyən 40 min avro məbləğində vəsait götürülərək sənədləşdirilib. Təbiidir ki, bu pullar Qərb ölkələrinin çirkin niyyətlərini həyata keçirmək üçün onlara verdiyi qrantların bir hissəsidir.

Azərbaycan dövləti şəffaflığı təmin etmək üçün lazımi addımları atıb, atır və atmağa da həmişə hazırdır. Çox təəssüflər ki, demokratiyadan, şəffaflıqdan, qanunçuluqdan gen-bol dəm vuran Qərb ölkələrinin fondları, təşkilatları, əslində, çirkli işlər görürlər. Diqqətlə fikir verəndə görürük ki, qrantlar hesabına Azərbaycanda, guya, insan haqları, demokratiya uğrunda mübarizə apardığını iddia edən Qərb təşkilatları faktiki olaraq özləri qanunları pozur və gizli şəkildə maliyyə fırıldaqları ilə məşğul olurlar. Maliyyənin xərclənməsi ilə bağlı ictimaiyyətə hesabat verməyi də "unudurlar".

Qərb ölkələrinin müxtəlif adlar altında atdıqları məqsədyönlü addımlar dövlətimiz üçün ciddi təhlükədir. Ona görə də xaricdən ölkəmizə ayaq açan belə təhlükələrin qarşısı hüquq-mühafizə orqanları tərəfindən qətiyyətlə alınır. Peşəsindən asılı olmayaraq hər kəs əməlinə görə məsuliyyət daşıyır. Qoy bunu Qərb ölkələrinin qrantlarına aldanıb tora düşənlər unutmasınlar. Ölkəsinə, dövlətinə xəyanət yolu tutmasınlar.

*Vahid MƏHƏRRƏMOV,*
*"Azərbaycan"*

## "Yalan ayaq tutar, yeriməz"

### Media azadlığından sui-istifadə edənlərin təxribatları ifşa olunur

**"Çox təəssüflər olsun ki, bəzi hallarda Azərbaycandakı media azadlığından milli maraqlara qarşı sui-istifadə hallarına rast gəlirik. Jurnalist ilk növbədə peşə etikasına riayət etməli, milli maraqlara xidmət göstərməli və yad ünsürlərdən kənar durmalıdır. Hər bir media nümayəndəsi öz fəaliyyətində xalqın, dövlətin təəssübünü çəkməlidir, onun maraqlarına xidmət göstərməlidir".**



Bu sözləri "Azərbaycan" qəzetinə açıqlamasında Mətbuat Şurası İdarə Heyətinin üzvü, "Azxeber.com" informasiya portalının baş redaktoru Hacıbəy Heydərli deyib. O qeyd edib ki, ölkədəki media, söz azadlığından istifadə edən bəzi şəxslər zaman-zaman xarici ölkələrin təsiri altına düşür, onların yalan vədlərinə, maddi maraqlarına aldanırlar. "Təsadüfi deyil ki, Azərbaycanın 44 günlük Vətən müharibəsindəki zəfərindən sonra bizi sevməyən ölkələr aktivləşib, onlar hər vəchlə ölkədəki sabitliyi pozmağa çalışırlar. Cəbhədə müharibə bitsə də, informasiya müharibəsi davam edir", - deyən baş redaktor bildirib ki, bu müharibədə də aparıcı qüvvə heç şübhəsiz media nümayəndələridir: "Bu baxımdan jurnalistlərimiz çox diqqətli olmalı və ölkənin milli maraqlarını hər şeydən üstün tutmalıdırlar. Prezident İlham Əliyev jurnalistlərlə görüşündə bu haqda demişdir: Milli jurnalistikamız, Azərbaycan jurnalistikası vətənpərvər olmalıdır, milli maraqlar hər şeydən üstün olmalıdır. Ümummilli məsələlərdə heç bir kənar fikir ola bilməz. Düşünürəm ki, bu sözlər hər bir azərbaycanlı jurnalist üçün yol xəritəsi olmalıdır. Bir çox hallarda media haqda danışarkən, biz onun birinci funksiyasını cəmiyyəti informasiya ilə təmin etmək kimi görürük. Ancaq burada çox incə məqamlar var, jurnalist informasiya ilə dövlət sirrini, hərbi sirri ayırd etməyi bacarmalıdır".

H.Heydərli onu da vurğulayıb ki, Azərbaycan cəmiyyəti digər ölkələrin maraqlarına xidmət edən şəxsləri çox yaxşı ayırd edə bilir və onlara sərt münasibətini göstərir: "Bu adamların heç bir sosial dəstəyi mövcud deyil, onlar sadəcə Qərb dairələrinin sifarişlərini həyata keçirir və düşmən mövqeyindən çıxış edirlər. Tam əminliklə deyə bilərik ki, Azərbaycan mediası və cəmiyyəti Qərbdəki mərkəzlər tərəfindən həyata keçirilən anti-Azərbaycan kampaniyasına lazımi şəkildə cavab verir. Bu isə həm də o deməkdir ki, Azərbaycan mediası artıq dövlətimizin maraqlarını həm daxildə, həm də xaricdə müdafiə etmək, qorumaq gücünə malikdir".

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# ADA Universiteti Şəkidə Dizayn və memarlıq fakültəsinin açılışını edib

**Noyabrın 27-də ADA Universiteti İtaliya-Azərbaycan Universiteti layihəsi çərçivəsində Şəkidə Milan Politexnik Universiteti ilə birgə Dizayn və memarlıq fakültəsinin açılışını edib.**










Tədbirdə yüksək vəzifəli rəsmilər, dövlət, özəl və akademik qurumların təmsilçiləri, rayon ictimaiyyətinin nümayəndələri və Milan Politexnik Universitetinin nümayəndə heyəti iştirak ediblər.

AZƏRTAC xəbər verir ki, fakültənin açılış mərasimi görkəmli Azərbaycan maarifçisi Firidun bəy Köçərlinin missiya yoldaşı Badisəba xanımın Şəki ictimaiyyətinə xidmət göstərdiyi keçmiş uşaq evində - Zülfüqarovların malikanəsində, ADA icması üçün ilham mənbəyi olan məkanda keçirilib. Məsləkcə müəllim olan Badisəba xanım 400-dən çox kimsəsiz uşağın tərbiyəsində göstərdiyi xidmətlərə görə Şəkidə daha çox "Badisəba ana" adı ilə tanınıb.

Tədbir Şəki Şəhər İcra Hakimiyyətinin başçısı Elxan Usubovun salamlama nitqi ilə başlayıb.

ADA Universitetinin Vaşinqton Mərkəzinin prezidenti Qalib Məmməd və Milan Politexnik Universitetinin professoru Silviya Ferraris ADA Universitetinin regionallaşma strategiyası və yeni Dizayn və memarlıq fakültəsinin gələcək planları haqqında geniş təqdimatla çıxış ediblər.

Tədbir ADA Universitetinin rektoru Hafiz Paşayev, elm və təhsil naziri Emin Əmrullayev və mədəniyyət naziri Adil Kərimlinin iştirakı ilə panel müzakirəsi ilə davam edib. Paneldə, həmçinin Azərbaycan Turizm Agentliyinin rəhbəri Fuad Nağıyev, Dövlət Şəhərsalma və Arxitektura Komitəsi sədrinin birinci müavini Namiq Hümmətov və Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin rəisi Səbinə Hacıyeva da iştirak ediblər.

Panel müzakirəsində çıxış edən rektor Hafiz Paşayev bildirib: "Bu, bizim üçün əlamətdar gündür. Bu gün təkcə yeni fakültənin açılışı ilə bağlı deyil, bu gün həm də icma quruculuğuna göstərdiyimiz xidmətlə bağlı gündür. Bu gün irs, memarlıq və təhsildən ibarət trionun simfoniyasından bəhs edir.

ADA Universiteti vaxtilə kampusunu Bakı şəhərində Azərbaycan irsi və mədəniyyətindən ilhamlanaraq tikib. Beynəlxalq əməkdaşlıq əsasında qurulan bu yeni fakültənin xüsusən Şəkidə, tarixi Zülfüqarovların malikanəsində istifadəyə verilməsi ilə biz irsin dirçəldilməsi istiqamətində yeni bir səhifə açırıq. Bu, bizim ölkəyə göstərdiyimiz xidmətin təcəssümüdür".

Qeyd olunub ki, fakültənin açılması beynəlxalq əməkdaşlığın və Milan Politexnik Universiteti tərəfindən aparılan ətraflı ilkin araşdırmanın nəticəsidir. Fakültənin akademik proqramları şəhər quruculuğunun icma quruculuğu ilə bərabər səviyyədə olan əhəmiyyətini ön planda tutaraq ölkədə memarlıq, şəhərsalma və dizayn sahəsinə yeni baxış gətirəcək. Fakültənin akademik portfelinə memarlıq, şəhərsalma, o cümlədən interyer dizaynı, kommunikasiya dizaynı, məhsul dizaynı və landşaft dizaynı sahələrində bakalavr, magistr və sertifikat proqramları daxildir.

Bildirilib ki, bu fakültənin regionda fəaliyyətə başlaması həm də Qazax-Şəki-Gəncə trayektoriyasını özündə əks etdirən ADA Universitetinin regionlaşma strategiyasının tərkib hissəsidir. İtaliya memarlığının konservasiyası və modernləşdirilməsi sahəsində geniş təcrübəsindən bəhrələnən və ADA Universitetinin tarixi binaları bərpa etmək və onları təhsil institutuna çevirmək missiyasını özündə birləşdirən fakültə təhsil sahəsində "miras dirçəlişi"nin çırağı və beynəlxalq əməkdaşlığın simvolu olacaq.

## Hafiz PAŞAYEV: "Şəkinin tarixi memarlıq üslubunu unutmaq olmaz, bu üslub gərək yaşasın"



**"Bu gün bizim üçün tarixi bir gündür. Firidun bəy Köçərlinin həyat yoldaşı Badisəba xanım məhz bu binada yetim uşaqlara yiyəlik edib, müəllim, direktor olub. Ona görə, dedik ki, bizim İtaliya-Azərbaycan Universiteti layihəsi çərçivəsində Arxitektura, memarlıq və dizayn fakültəsinin bir hissəsini burada yaradaq. Məhz abidələrin bərpası sahəsində yeni mütəxəssislər yetişdirək. Ona görə də biz buradayıq".**

AZƏRTAC xəbər verir ki, bu sözləri ADA Universitetinin rektoru Hafiz Paşayev Şəkidə Dizayn və memarlıq fakültəsinin açılış mərasimində jurnalistlərə açıqlamasında deyib.

Rektor belə bir layihə həyata keçirildiyinə görə şəkililəri və ADA Universitetini təbrik edib. "Dediyim kimi, bu gün yadda qalacaq. Şəkinin tarixi memarlıq üslubunu unutmaq olmaz, bu üslub gərək yaşasın", - deyə Hafiz Paşayev vurğulayıb.

## Silviya FERRARİS: "Biz ADA Universiteti ilə əməkdaşlığımızı bir neçə istiqamətdə davam etdirəcəyik"



**"Azərbaycanın Şəki diyarında belə bir əlamətdar gündə və belə gözəl açılışda iştirak etməkdən qürur duyuram. Bu gün biz İtaliya-Azərbaycan Universitetinin ADA Universiteti ilə əməkdaşlığı çərçivəsində Şəkidə Dizayn və memarlıq fakültəsinin açılışında, mötəbər bir tədbirdə iştirak edirik. Biz ADA Universiteti ilə əməkdaşlığımızı bir neçə istiqamətdə davam etdirəcəyik".**

AZƏRTAC xəbər verir ki, bu sözləri Milan Politexnik Universitetinin professoru Silviya Ferraris Şəkidə Dizayn və memarlıq fakültəsinin açılışında jurnalistlərə müsahibəsində söyləyib.

İtaliyalı professor deyib: "Bildiyimə görə, ADA Universiteti, eyni zamanda Şəkidə özünün kampusunu inşa edəcək. Burada bir neçə ixtisas üzrə memarların, bərpaçıların hazırlanması kimi analoji proqramlar üzrə tədris prosesi həyata keçiriləcək. Bu proqramların həyata keçirilməsində biz də öz iştirakımızı təmin edəcəyik".

## Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Sosial Müdafiə Fondu

***tender elan edir***

Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Sosial Müdafiə Fondu fondun Aparatında və digər struktur bölmələrində əmək pensiyalarının, sosial müavinətlərin, sosial yardımların, eləcə də ayrı-ayrı kateqoriyalı şəxslərə Azərbaycan Respublikası Prezidenti tərəfindən təyin edilmiş təqaüdlərin və kompensasiyaların ödəniş kartları, habelə zərurət olduğu halda digər ödəniş alətləri və üsulları vasitəsi ilə nağdsız qaydada ödənilməsini həyata keçirmək məqsədilə göstəriləcək bank xidmətlərinin satın alınması ilə əlaqədar tenderə dəvət edir.

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə, texniki imkanlara və təcrübəyə malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyən təşkilatlar müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş Əsas şərtlər toplusunu Bakı şəhəri, Yasamal rayonu, Həsən Bəy Zərdabi 80 (Əlaqə nömrəsi: (012) 434-52-59 e.poçt: **tender@sosial.gov.az)** ünvanında yerləşən fondun Aparatının inzibati binasından ala bilərlər.

**İştirak haqqı: 215,00 (iki yüz on beş) manat**
**VÖEN: 1300050781**
**Bank: Dövlət Xəzinədarlığı Agentliyi**
**H/h: AZ46CTRE00000000000007018504**
**M/h: AZ41NABZ01360100000000003944**
**VÖEN: 1401555071**
**Kod: 210005**
**SWIFT: CTREAZ22**
Büdcə gəlirlərinin təsnifat kodu: -142330
Büdcə səviyyəsinin kodu : - 4

**"Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununun (bundan sonra - Qanun) 29.4-cü maddəsinə əsasən, tenderdə iştirak haqqı heç bir halda geri qaytarılmır.**

**Tenderdə iştirak etmək üçün tələb olunan sənədlər:**

1. *İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə, bank lisenziyası (Sənədin əsli və ya notarial qaydada təsdiqlənmiş surəti) və rekvizitləri.*
2. *Tender təklifi (təkliflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır).*
3. *Tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (tender təklifinin təminatının qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır).*
4. *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərinin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergi ödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması barədə məlumat* ***(uçotda olduğu vergi orqanından alınmalıdır. Sənədin əsli təqdim edilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir); 01.11.2023-cü il tarixdən sonra alınmış arayış qəbul ediləcəkdir.***
5. *İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (2022-ci il üzrə); Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir.*
6. *İddiaçının son bir ildəki maliyyə vəziyyəti birləşdirilmiş (konsolidə edilmiş) maliyyə hesabatlarına dair müstəqil auditorun hesabatı.*
7. *Satınalma müqaviləsinin icrasını təmin etmək üçün müvafiq sahədə peşakarlığının, təcrübəsinin, texniki imkanlarının, işçi qüvvəsinin, idarəetmə səriştəsinin, etibarlığının olması barədə təsdiqedici sənəd* ***(Malgöndərən (podratçı) tərəfindən hazırlanır. Maddi - texniki baza barədə ümumi məlumat, işçilər barədə məlumat, əmək müqaviləsi bildirişləri, təcrübəni təsdiq edən digər sənədlər).***
8. *Satınalma müqaviləsini bağlamaq səlahiyyətinin olması* ***(direktor/sədr təyin edilməsi barədə əmr, malgöndərənin (podratçının) kommersiya qurumunun dövlət reyestrindən çıxarışı və vergi uçotunda olduğunu təsdiq edən sənəd (notarial təsdiq edilmiş).***
9. *İri sahibkarlıq meyarına uyğun olması barədə məlumat* ***(Dövlət Statistika Komitəsindən alınmalıdır); 10.05.2023 -cü il tarixdən sonra alınmış arayış qəbul ediləcəkdir.***
10. *Öz əmlakından sərbəst və məhdudiyyətsiz istifadə etmək imkanı, habelə ödəmə qabiliyyəti olması, müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması* ***(Uçotda olduğu vergi orqanından alınmalıdır. Sənədin əsli təqdim edilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir. Eyni zamanda ASC və ya QSC olduğu halda Milli Depozit Mərkəzindən arayışın alınması mütləqdir); 01.11.2023-cü il tarixdən sonra alınmış arayış qəbul ediləcəkdir.***
11. *Satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi barədə məlumat (Malgöndərən (podratçı) Daxili İşlər Nazirliyindən və ya "ASAN xidmət" mərkəzlərindən (məhkumluq ilə bağlı arayış) alır. 01.11.2023-cü il tarixdən sonra alınmış arayış qəbul ediləcəkdir.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (notarial qaydada təsdiq olunmuş surətləri) tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). Tender proseduru Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri 09.01.2024-cü il saat 11:00-a qədər, tender təklifi və bank təminatını möhürlənmiş ikiqat zərfdə 17.01.2024-cü il saat 17:00-a qədər Bakı şəhəri, Yasamal rayonu, Həsən Bəy Zərdabi 80 ünvanında yerləşən fondun Aparatının inzibati binasına təqdim etməlidirlər. Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır. İddiaçıların təkliflərinin açılışı 18.01.2024-cü il saat 11:00 -da Bakı şəhəri, Yasamal rayonu, Həsən Bəy Zərdabi 80 ünvanında yerləşən fondun Aparatının inzibati binasında Tender komissiyasının iştirakı ilə aparılacaqdır. Açılışda iddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

## Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Sosial Müdafiə Fondu

***tender elan edir***

Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Sosial Müdafiə Fondu fondun Aparatında əməkhaqlarının, dövlət icbari şəxsi sığortası üzrə sığorta ödənişlərinin və digər struktur bölmələrində əməkhaqlarının, əmək pensiyalarının, sosial müavinətlərin, sosial yardımların, eləcə də ayrı-ayrı kateqoriyalı şəxslərə Azərbaycan Respublikası Prezidenti tərəfindən təyin edilmiş təqaüdlərin və kompensasiyaların ödəniş kartları, habelə zərurət olduğu halda digər ödəniş alətləri və üsulları vasitəsi ilə nağdsız qaydada ödənilməsini həyata keçirmək məqsədilə göstəriləcək bank xidmətlərinin satın alınması ilə əlaqədar tenderə dəvət edir.

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə, texniki imkanlara və təcrübəyə malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyən təşkilatlar müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş Əsas şərtlər toplusunu Bakı şəhəri, Yasamal rayonu Həsən Bəy Zərdabi 80 (Əlaqə nömrəsi: (012) 434-52-59 e.poçt: **tender@sosial.gov.az)** ünvanında yerləşən fondun Aparatının inzibati binasından ala bilərlər.

**İştirak haqqı: 215,00 (iki yüz on beş) manat**
**VÖEN: 1300050781**
**Bank: Dövlət Xəzinədarlığı Agentliyi**
**H/h: AZ46CTRE00000000000007018504**
**M/h: AZ41NABZ01360100000000003944**
**VÖEN: 1401555071**
**Kod: 210005**
**SWIFT: CTREAZ22**
Büdcə gəlirlərinin təsnifat kodu: -142330
Büdcə səviyyəsinin kodu : - 4

**"Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununun (bundan sonra - Qanun) 29.4-cü maddəsinə əsasən tenderdə iştirak haqqı heç bir halda geri qaytarılmır.**

**Tenderdə iştirak etmək üçün tələb olunan sənədlər:**

1. *İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə, bank lisenziyası (Sənədin əsli və ya notarial qaydada təsdiqlənmiş surəti) və rekvizitləri.*
2. Tender təklifi (təkliflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır).
3. *Tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (tender təklifinin təminatının qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır).*
4. *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərinin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergi ödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması barədə məlumat* ***(uçotda olduğu vergi orqanından alınmalıdır. Sənədin əsli təqdim edilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir); 01.11.2023-cü il tarixdən sonra alınmış arayış qəbul ediləcəkdir.***
5. *İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti* ***(2022-ci il üzrə); Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir.***
6. *İddiaçının son bir ildəki maliyyə vəziyyəti birləşdirilmiş (konsolidə edilmiş) maliyyə hesabatlarına dair müstəqil auditorun hesabatı.*
7. *Satınalma müqaviləsinin icrasını təmin etmək üçün müvafiq sahədə peşakarlığının, təcrübəsinin, texniki imkanlarının, işçi qüvvəsinin, idarəetmə səriştəsinin, etibarlığının olması barədə təsdiqedici sənəd* ***(Malgöndərən (podratçı) tərəfindən hazırlanır. Maddi - texniki baza barədə ümumi məlumat, işçilər barədə məlumat, əmək müqaviləsi bildirişləri, təcrübəni təsdiq edən digər sənədlər).***
8. *Satınalma müqaviləsini bağlamaq səlahiyyətinin olması* ***(direktor/sədr təyin edilməsi barədə əmr, malgöndərənin (podratçının) kommersiya qurumunun dövlət reyestrindən çıxarışı və vergi uçotunda olduğunu təsdiq edən sənəd (notarial təsdiq edilmiş).***
9. *İri sahibkarlıq meyarına uyğun olması barədə məlumat* ***(Dövlət Statistika Komitəsindən alınmalıdır); 10.05.2023 -cü il tarixdən sonra alınmış arayış qəbul ediləcəkdir.***
10. *Öz əmlakından sərbəst və məhdudiyyətsiz istifadə etmək imkanı, habelə ödəmə qabiliyyəti olması, müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması* ***((Uçotda olduğu vergi orqanından alınmalıdır. Sənədin əsli təqdim edilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir. Eyni zamanda ASC və ya QSC olduğu halda Milli Depozit Mərkəzindən arayışın alınması mütləqdir); 01.11.2023-cü il tarixdən sonra alınmış arayış qəbul ediləcəkdir.***
11. *Satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi barədə məlumat* ***(Malgöndərən (podratçı) Daxili İşlər Nazirliyindən və ya "ASAN xidmət" mərkəzlərindən (məhkumluq ilə bağlı arayış) alır. 01.11.2023-cü il tarixdən sonra alınmış arayış qəbul ediləcəkdir.***

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (notarial qaydada təsdiq olunmuş surətləri) tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). Tender proseduru Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri 09.01.2024-cü il saat 11:00-a qədər, tender təklifi və bank təminatını möhürlənmiş ikiqat zərfdə 17.01.2024-cü il saat 17:00-a qədər Bakı şəhəri, Yasamal rayonu, Həsən Bəy Zərdabi 80 ünvanında yerləşən fondun Aparatının inzibati binasına təqdim etməlidirlər. Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır. İddiaçıların təkliflərinin açılışı 18.01.2024-cü il saat 11:00 -da Bakı şəhəri, Yasamal rayonu, Həsən Bəy Zərdabi 80 ünvanında yerləşən fondun Aparatının inzibati binasında Tender komissiyasının iştirakı ilə aparılacaqdır. Açılışda iddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

# İŞİMİZ, GÜZƏRANIMIZ

## İƏT-ə üzv dövlətlərin əmək nazirlərinin Bakıda keçirilən 5-ci konfransı nələrlə yadda qaldı

**Xəbər verildiyi kimi, ötən həftə, dəqiq desək, 21-23 noyabrda Bakı daha bir böyük və mötəbər beynəlxalq tədbirə - İslam Əməkdaşlıq Təşkilatına (İƏT) üzv dövlətlərin əmək nazirlərinin 5-ci konfransına evsahibliyi etdi.**

Konfransın iştirakçılarına müraciətində Prezident İlham Əliyev Azərbaycanın İƏT-lə əlaqələrə xüsusi əhəmiyyət verdiyini, bu konfransın da İslam Əməkdaşlıq Təşkilatına üzv dövlətlər arasında əmək, məşğulluq və sosial müdafiə sahələrində əməkdaşlığın genişləndirilməsi və birgə səylərin gücləndirilməsi baxımından böyük önəmini vurğulayıb.

Dövlət başçısı tədbirdə iştirak üçün ölkəmizdə səfərdə olan İƏT-in Baş katibi Hissein Brahim Tahanı qəbul edərkən görüşdə də konfransın və Təşkilatın Bakıda yaradılan Əmək Mərkəzinin əhəmiyyəti qeyd olunub.

Ümumilikdə konfrans bir sıra mühüm nəticələri ilə yadda qaldı:

● Konfrans çərçivəsində İƏT-in Bakıda üzv ölkələr üçün mühüm önəm kəsb edən beynəlxalq statuslu Əmək Mərkəzinin açılışı oldu və Mərkəzin Nizamnaməsini imzalayan ölkələrin sayı 16-ya çatdı, Türkiyə sənədi ratifikasiya etdi;

● Azərbaycan 40-dan çox ölkənin nazir və digər yüksəksəviyyəli rəsmilərinin, 7 beynəlxalq təşkilatın rəhbərinin və b. iştirak etdiyi bu konfransa yüksək səviyyədə evsahibliyi edərək islam həmrəyliyinin güclənməsinə növbəti töhfəsini verdi;

● Ölkəmizin sosial sahədə uğurlu islahat təcrübəsini beynəlxalq ictimaiyyətə çatdırmaq üçün geniş imkanlar yarandı, DOST Konsepsiyası və innovativ uğurlarımız islam ölkələrinə təqdim edildi;

● İƏT məkanında əmək və sosial müdafiə sahəsində yeni çağırışlara uyğun aktual məsələlərin və onların həlli yollarının, bu sahədə görüləcək birgə tədbirlərin geniş müzakirəsi təmin edildi;

● 10-dan çox ölkənin nümayəndə heyəti ilə ikitərəfli görüşlər keçirildi, Qətər və Tacikistanla, İslam Ölkələrinin Statistik, İqtisadi və Sosial Araşdırmalar və Təlim Mərkəzi (SESRİC) ilə əməkdaşlıq sənədləri imzalandı;

● Dünya əhalisinin təqribən 20 faizinin yaşadığı islam ölkələri arasında əlaqələr daha da genişləndi, yeni əlaqələr quruldu və s.

Beləliklə, konfrans İƏT məkanında əmək, məşğulluq və sosial müdafiə sahəsində yeni çağırışların ortaya çıxardığı məsələlərin və həll yollarının üzv ölkələrlə birgə əhatəli müzakirə edildiyi platformaya çevrildi. Konfransın Qətnaməsində bu istiqamətdə gələcək fəaliyyətlərdə də birgə səylərin göstərilməsi, fəal əməkdaşlığın və təcrübə mübadilələrinin aparılması əksini tapıb.

# Dörd yol qovşağında

### Azərbaycanın beynəlxalq tranzit ölkəsi kimi də nüfuzu artır

**Hazırda dünya ticarətinin 80 faizi okean və dənizlər üzərindən həyata keçirilir. Bu növ ticarətin aparılması riskli olmaqla yanaşı, iqtisadi səmərə və vaxt baxımından da getdikcə əhəmiyyətini itirir. Artıq qlobal ticarətdə dəmir yolu nəqliyyatından istifadə önə çıxır. Bu nəqliyyat vasitəsi zaman və iqtisadi baxımdan dəniz ticarətindən üstündür.**

Çinin "Bir yol, bir kəmər" qlobal layihə ilə çıxış etməsi də bununla bağlıdır. Üstəlik, indi dünyada ticarət yollarına nəzarət uğrunda ciddi geosiyasi rəqabət gedir. Zəngəzur dəhlizi məsələsinin də düyünə düşməsi bununla bağlıdır. Hazırda cəmi 42 kilometr məsafəsi olan bu yola nəzarət uğrunda Qərblə Rusiya-Çin tandemi ciddi mübarizə aparır. Hazırda dünyada belə bir rəy formalaşıb ki, qlobal ticarət yollarına nəzarət edən tərəf dünyaya hakim olacaq. Bu fikir təkcə politoloqlar tərəfindən səslənmir, müxtəlif dövlətlərin rəsmiləri, diplomatları tərəfindən də açıq şəkildə və ya diplomatik dillə ifadə olunur.

Dəhlizlərə hansı qüvvələrin nəzarət etməsindən asılı olmayaraq, onun ərazisindən keçən ölkələrin siyasi çəkisi artır. Türk qardaşlarımızın dediyi kimi, coğrafiya qismətdir. Bizim də qismətimizə Orta dəhlizdə və "Şimal-Cənub" marşrutunda açar ölkə olmaq payı düşüb. Qərbin Ermənistanı önünə alıb Azərbaycana təzyiq göstərmək cəhdlərinin arxasında duran əsas məsələ də ölkəmizi təsir altında saxlamaqdır. Ancaq Prezident İlham Əliyev Bakı-Tbilisi-Qars dəmir yolu xətti çəkməklə öncədən əlimizi möhkəmləndirmişdir. Onların bütün cəhdləri əbəsdir. Artıq Orta dəhliz fəaliyyətə başlayıb və onu durdurmaq mümkün deyil.

Bakı-Tbilisi-Qars dəmir yolunun vaxtında inşa edilməsi Prezident İlham Əliyevin uzaqgörən siyasətçi olduğunu bir daha təsdiq edir. Bu yol Çinin "Bir kəmər, bir yol" layihəsindən əvvəl tikilib istifadəyə verilmiş, beləliklə, "əjdahalar ölkəsi"nin belə bir transmilli layihəsinin önünü açmışdır. Təsadüfi deyil ki, Çinin "Bir kəmər, bir yol" layihəsinin icrasına dair Pekində keçirilən mötəbər tədbirə dəvət edilən azsaylı qonaqlardan biri də Prezident İlham Əliyev olmuşdur. Konfransdan öncə bu layihənin Çin tərəfindən dövlətimizin başçısı ilə müzakirə edilməsi isə çox mətləbdən xəbər verir.

İlham Əliyevin apardığı məqsədyönlü siyasət sayəsində ölkəmiz beynəlxalq aləmdə etibarlı tərəfdaş kimi nüfuz qazanıb. Prezident tərəfindən 23 noyabr 2023-cü il tarixli "Azərbaycan Respublikasının ərazisindən keçən beynəlxalq nəqliyyat dəhlizinin tranzit potensialının artırılmasına və tranzit yükdaşımaların təşviqinə dair "2024-2026-cı illər üçün fəaliyyət planı"nın təsdiqi barədə sərəncamın imzalanması ölkəmizin beynəlxalq öhdəliklərin icrasında və tərəfdaş ölkələrlə səmərəli əməkdaşlıqda maraqlı olduğunu bir daha təsdiq edir. Fəaliyyət planının təsdiqi ölkəmizin beynəlxalq yükdaşımalarının artmasına əlavə imkanlar yaradacaq. Belə ki, son dövrlər regionda baş verən geosiyasi proseslər fonunda şərqlə qərb arasında ənənəvi marşrutlarda yaranmış problemlər Azərbaycan ərazisindən keçən dəhlizlər üzrə tranzit yükdaşımaların həcminin kəskin şəkildə artmasına səbəb olmuşdur. Təkcə 2021-ci illə müqayisədə ötən il ölkəmizin ərazisindən keçən tranzit yükdaşımalarının (dəmir yolu,




dəniz və avtomobil) ümumi həcmi 75 faiz artaraq 10,7 milyon tona çatmışdır. Fəaliyyət planının təsdiqi artan tələbatın qarşılanması, ölkəmizin tranzit potensialını daha da gücləndirməsi, həmçinin ərazimizdən keçən beynəlxalq nəqliyyat dəhlizinin rəqabətqabiliyyətliliyinin yüksəldilməsi, qısa və ortamüddətli perspektivi özündə ehtiva edən sənədin qəbuluna zərurət yaratmışdır.

Qlobal trendlər onu göstərir ki, beynəlxalq əməkdaşlığın və ticarətin aparıcı elementlərindən biri olan nəqliyyat və logistika əməliyyatları yeni istiqamətdə inkişaf edir. Qloballaşma və inteqrasiya proseslərinin sürətlənməsi, yüksək texnologiyaların geniş tətbiqi milli iqtisadiyyatın, həmçinin digər sahələrin qarşısında müəyyən vəzifələr qoyur ki, onların uğurlu icrasını inkişaf etmiş nəqliyyat şəbəkəsi olmadan təsəvvür etmək mümkün deyil. İndiki halda qlobal tədarük zəncirində ölkəmizin mövqeyinin gücləndirilməsi və regional qovşağa çevrilməsi perspektivlərinin reallaşması istiqamətində hədəflərə nail olmaq üçün güclü infrastrukturun yaradılması, innovativ logistikanın inkişaf etdirilməsi, nəzarətin hüquqi bazasının təkmilləşdirilməsi istiqamətində zəruri addımların atılmasını tələb edir.

Fəaliyyət planında istiqamətlər müəyyən edilməklə yanaşı, icra olunacaq işin istiqamətləri də dəqiq müəyyənləşib. Sənədin hazırlanmasında beynəlxalq çağırışlarla yanaşı, ölkənin potensialı da dəqiq müəyyən olunub, görüləcək işlərin həcmi hesablanıb. Bunun üçün sənədin məqsəd və prioritet istiqamətlərinə diqqət yetirmək lazımdır. Fəaliyyət planınında əsas məqsədlər kimi mövcud nəqliyyat infrastrukturunun yükgötürmə qabiliyyətinin artırılması, dövlət sərhəd buraxılış məntəqəsində sərhəd, gömrük, həmçinin nəqliyyat infrastrukturunun təkmilləşdirilməsi ilə sürətli keçidin təmin edilməsi üzrə əməliyyatların optimallaşdırılması üçün yüksək texnologiyaların və innovativ həllərin tətbiqi kimi vacib məqamlar öz əksini tapıb. Eyni zamanda həmin sənəddə normativ-hüquqi bazanın təkmilləşdirilməsi, bu sahə üzrə fəaliyyət göstərən dövlət orqanlarının işinin əlaqələndirilməsinin əhəmiyyəti qeyd edilib.

Fəaliyyət planında prioritet istiqamət kimi əsas məsələ infrastrukturun təkmilləşdirilməsi hədəf kimi müəyyən olunub. Bunun üçün " Qırmızı Körpü", "Mazımqara", "Samur", "Biləsuvar", "Astara" və " Şirvan" dövlət sərhədindən buraxılış məntəqələrinin qabiliyyətinin artırılması, sərhəd və gömrük nəzarətinin effektiv şəkildə aparılması üçün infrastrukturun təkmilləşdirilməsi əsas istiqamət kimi müəyyən edilmişdir. Sənəddə həmçinin "Qırmızı Körpü" və "Samur" gömrük postlarının yaxınlığında yeni gömrük terminallarının inşası nəzərdə tutulub. İran İslam Respublikası ilə yeni buraxılış məntəqəsinin tikintisi, Ələt-Osmanlı-Astara dəmir yolunun yenidən qurulması, Bakı Beynəlxalq Dəniz Ticarət Limanının fəaliyyətinin təkmilləşdirilməsi və s. işlər də fəaliyyət planında öz əksini tapıb.

Yeni sənədin qəbulu Azərbaycanın infrastrukturunun müasir dövrün tələblərinə cavab verməklə ölkəmizdən tranzit yüklərin daşınmasının həcminin artırılmasında önəmli rol oynayacaq. İndiyədək icra edilən işlər sayəsində Azərbaycan Mərkəzi Asiya ilə qarşılıqlı inteqrasiya prosesini özündə birləşdirən məkandır. Yaradılan infrastruktur sayəsində Xəzər dənizi bizi qardaş Mərkəzi Asiya türk dövlətləri ilə birləşdirir, Türk Dövlətləri Təşkilatı, SPECA kimi formatlarda əməkdaşlığımızı təmin edir. Ölkəmizdə siyasi sabitlik və iqtisadi inkişaf mövcud olduğu üçün biz transmilli layihələrin icrasına töhfə verə bilirik. Bu üzdən bir çox ölkə beynəlxalq layihələrin icrasında Azərbaycanla əməkdaşlıq etməyə can atır.

***Rüstəm KAMAL, "Azərbaycan"***

## İkitərəfli iqtisadi əməkdaşlığın perspektivlərinə dair fikir mübadiləsi aparılıb

**İxracın və İnvestisiyaların Təşviqi Agentliyinin - AZPROMO-nun icraçı direktoru Yusif Abdullayev Tacikistanın Ticarət və Sənaye Palatasının sədri Camşed Cumaxonzoda ilə görüşüb.**



Görüşdə Yusif Abdullayev agentliyin fəaliyyət istiqamətləri, ölkə iqtisadiyyatına qeyri-neft investisiyalarının cəlb olunması çərçivəsində görülən işlər haqqında məlumat verib. Tərəflər SPECA Həftəsi çərçivəsində Azərbaycanın xüsusi təşəbbüsü ilə keçirilmiş "SPECA Ölkələri Sərgisi: Dayanıqlı inkişaf naminə regional əməkdaşlıq" tədbirinin əhəmiyyəti haqqında fikirlərini bölüşüblər. İkitərəfli iqtisadi əməkdaşlığın, o cümlədən ticarət mübadiləsinin artırılması perspektivlərinə dair fikir mübadiləsi aparılıb, bu istiqamətdə sentyabr ayında AZPROMO-da olan Tacikistanın Azərbaycanda yeni təyin olunan fövqəladə və səlahiyyətli səfirinin fəaliyyəti yüksək qiymətləndirilib.

Camşed Cumaxonzoda təmsil etdiyi qurumun Tacikistanda ən böyük təşkilat olduğunu bildirərək, palata haqqında ətraflı məlumat verib, palatanın fəaliyyətini tənzimləyən qanuna gözlənilən dəyişikliklərin edilməsi haqqında danışıb. Palatanın sədri Tacikistanın ölkə stendi ilə təmsil olunduğu SPECA Sərgisinin yüksəksəviyyəli təşkilatçılığını qeyd edərək, sözügedən təşəbbüsün ölkələr arasında tərəfdaşlığın genişləndirilməsi üçün əhəmiyyətli platforma kimi xidmət etdiyini diqqətə çatdırıb.

Görüşdə mövcud birgə müəssisələrin, xüsusilə açılışı 2021-ci ildə Düşənbədə baş tutan kompozit boru istehsalı zavodunun fəaliyyəti vurğulanıb. Sonda Camşed Cumaxonzoda AZPROMO-nun təşkilatçılığı ilə Azərbaycan şirkətlərini Tacikistanda keçirilən sərgilərdə aktiv iştirak etməyə dəvət edib.

## Azərbaycanda avtomobil istehsalı artıb

**Bu ilin yanvar-oktyabr aylarında ölkədə 2 376 minik avtomobili istehsal olunub.**

Dövlət Statistika Komitəsinin (DSK) məlumatına görə, Azərbaycanda ötən ilin eyni dövrünün göstəricisi ilə müqayisədə avtomobil istehsalı 45,4 faiz və ya 742 ədəd artıb. Cari ilin sentyabr ayı ilə müqayisədə isə oktyabrda istehsalın həcmində 58,3 faiz artım qeydə alınıb. Belə ki, ötən ay ölkədə 266 ədəd minik avtomobili istehsal olunub. DSK həmçinin bildirib ki, noyabr ayının 1-nə hazır məhsul ehtiyatı 485 avtomobildir.

# Bu ilin 10 ayında AÇG-nin gəlirləri 6 milyard dollara yaxın olub

### 1 milyard dollardan artıq vəsait də "Şahdəniz"dən gəlib

**Ölkəmizdə hasil olunan karbohidrogenlərə dünyada tələbat artdıqca onların satışından əldə edilən gəlirlər də çoxalır. Azərbaycan Respublikası Dövlət Neft Fondunun (ARDNF) bu ilin 10 ayına aid açıqladığı rəqəmlər də məhz bunu təsdiqləyir.**



Belə ki, "Azəri-Çıraq-Günəşli" (AÇG) yataqlar blokundan cari ilin yanvar-oktyabr aylarında 5 milyard 865,8 milyon dollar gəlir əldə edilib. Buna imkan yaradan isə, əlbəttə, ilk növbədə hasilatın fasiləsiz olmasıdır. AÇG-nin əməliyyatçısı bp şirkətinin məlumatına görə, bu yataqlardan yanvar-sentyabr aylarında ümumi gündəlik orta hasilat 368 min barel təşkil edib. Beləliklə, ilin ilk üç rübü ərzində AÇG-dən ümumilikdə təxminən 100 milyon barel, yəni 14 milyon ton neft hasil olunub.

Xatırladaq ki, AÇG müqavilə sahəsində hasilat "Çıraq", "Mərkəzi Azəri", "Qərbi Azəri", "Şərqi Azəri", "Dərinsulu Günəşli" və "Qərbi Çıraq" platformalarından həyata keçirilir. Hazırda AÇG-də ümumilikdə 136 neft hasilat quyusu fəaliyyət göstərir.

Yeri gəlmişkən, onu da qeyd edək ki, bu yataqlar blokundan əldə olunan səmt qazının böyük bir hissəsi təmənnasız olaraq Azərbaycan dövlətinə təhvil verilir. Məsələn, cari ilin üç rübü ərzində əsasən Səngəçal terminalından, həmçinin "Neft Daşları"ndakı qurğu vasitəsilə gündə orta hesabla 5,5 milyon kubmetr, ümumilikdə isə 1,5 milyard kubmetr səmt qazı ötürülüb. Terminaldan qaz SOCAR-a (Azərbaycan Respublikası Dövlət Neft Şirkəti) məxsus kəmərlə "Azəriqaz" sisteminə axıdılır. Hasil edilən səmt qazının qalan hissəsi təzyiqi saxlamaq məqsədilə yataqlarda yenidən laylara vurulur.

"Şahdəniz"dən xaricə qaz ixracımız da artır. Prezident İlham Əliyevin keçən ay 230 MVt gücündə "Qaradağ" Günəş Elektrik Stansiyasının rəsmi açılış mərasimində dediyi kimi: "Azərbaycan xarici investisiyalar üçün çox açıq ölkədir. Son 30 il ərzində bizim çoxmilyardlı investisiya portfoliomuz olub. Azərbaycana ümumi investisiyalar 300 milyard ABŞ dollarından çox olub və bunun təqribən 200 milyard ABŞ dolları qeyri-neft sektorunun payına düşür. Hazırda bizim iqtisadi hədəfimiz qazıntı yanacağından asılılığımızı azaltmaq üçün iqtisadiyyatımızı şaxələndirməyi davam etdirməkdir. Lakin eyni zamanda biz başa düşürük ki, bizim neft və qazımıza hələ uzun illər ərzində beynəlxalq bazarda tələbat olacaq. Bu məqsədlə çoxsaylı neft və qaz kəmərləri sistemi istismara verilib və indi biz neft və qazı müxtəlif istiqamətlərə ixrac edirik. Azərbaycan beynəlxalq bazarlara neft, təbii qaz, neft məhsulları, neft-kimya məhsulları, elektrik enerjisi ixracatçısıdır".

"Şahdəniz"dən hasil olunan qaz altı ölkəyə - Gürcüstana, Türkiyəyə, Bolqarıstana, Yunanıstana, İtaliyaya və Rumıniyaya ixrac edilir. Gürcüstan Azərbaycandan qazı Cənubi Qafqaz Boru Kəməri ilə 2006-cı ilin sonundan alır. Türkiyəyə "Şahdəniz" qazı 2007-ci ilin ortalarından Bakı-Tbilisi-Ərzurum kəməri, 2018-ci ilin ortalarından isə TANAP-la (Trans-Anadolu Qaz Boru Kəməri) çatdırılır. 2020-ci ilin son günündən ölkəmiz Avropanın da qaz təzhizatçılarından birinə çevrilib. Həmin vaxtdan TAP (Trans-Adriatik Qaz Boru Kəməri) ixracı fasiləsiz həyata keçirir.

Hazırda "Şahdəniz" yatağından Azərbaycan ("Azərkontrakt" ASC-yə), Gürcüstan (GOGC şirkətinə), Türkiyə (BOTAŞ şirkətinə) bazarlarına, çoxsaylı obyektlər üçün Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan (BTC) əsas ixrac neft kəmərinə və Avropadakı alıcılara qaz çatdırılması davam edir.

İlin ilk doqquz ayında yataqdan ümumilikdə - "Şahdəniz Alfa" və "Şahdəniz Bravo" platformalarından təqribən 20 milyard standart kubmetr qaz və 3 milyon tondan çox (təqribən 27 milyon barel) kondensat hasil olunub. Mövcud "Şahdəniz" qurğularının hasilat gücü hazırda gündə təxminən 72,1 milyon (ildə təqribən 26,3 milyard) standart kubmetrdir.

Qaldı ki, "Şahdəniz"dən əldə olunan gəlirlərə, ARDNF-nin məlumatına görə, bunlar 10 ay ərzində qaz və kondensat da daxil olmaqla, 1 milyard 183 milyon dollar təşkil edib. Kondensatın satışından əldə edilən gəlirlər hesabat dövründə 259,554 milyon dollar olub.

Xatırladaq ki, "Şahdəniz"dən alınan kondensat BTC-yə vurulur.

***Flora SADIQLI, "Azərbaycan"***

## Mikro və kiçik sahibkarlıq subyektləri ilə görüş keçirilib

**İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti (DVX) və Kiçik və Orta Sahibkarlığın İnkişafı Agentliyinin (KOBİA) birgə təşkilatçılığı ilə startaplar, mikro və kiçik sahibkarlıq subyektləri üçün kommersiya hüquqi şəxslərin dövlət qeydiyyatı sahəsində yeniliklərə həsr edilmiş onlayn görüş keçirilib.**

Görüşdə DVX-nin Dövlət qeydiyyatı baş idarəsinin şöbə rəisi Leyla Hüseyn-zadə ölkəmizdə biznesə başlama sahəsində mövcud vəziyyət, aparılmış islahatlar, əldə olunmuş nəticələr və gələcək planlar barədə təqdimatla çıxış edib. O, "Dünya Bankı Qrupunun "Business Ready (B-Ready)" layihəsinin "Biznesə daxilolma" indikatoru ilə bağlı müvafiq sahədə təkmilləşmələrin həyata keçirilməsinə dair 2022-2023-cü illər üzrə Yol Xəritəsi" çərçivəsində görülmüş işlər barədə danışıb.

Qeyd olunub ki, Yol Xəritəsi çərçivəsində MMC-lərin qeydiyyat məlumatları dəyişikliyinin elektron qaydada aparılması ilə bağlı proqram təminatının hazırlanması prosesi artıq yekunlaşıb. Bununla yanaşı, kommersiya qurumlarının benefisiar mülkiyyətçisi (mülkiyyətçiləri) barədə məlumatların dövlət reyestrinin aparılması, riskli vergiödəyicilərinin hüquqi şəxs təsis etmək hüququnun qanunvericiliklə məhdudlaşdırılması kimi dəyişikliklər də nəzərdə tutulub.

Hüquqi şəxslərin qeydiyyatı sahəsində görülən işlərdən danışan şöbə rəisi bildirib ki, 2023-cü ilin 10 ayı ərzində qeydiyyatdan keçmiş kommersiya qurumlarından 11.552-si (87,2 faiz) yerli investisiyalı, 1.695-i (12,8 faiz) xarici investisiyalıdır. Kommersiya qurumlarının 82,4 faizi elektron qaydada qeydiyyata alınıb, yerli investisiyalı MMC-lərin e-qeydiyyatının xüsusi çəkisi isə 95,1 faiz təşkil edib. Yeni qeydiyyat üsulu ilə (fin kod+mobil nömrə) 1.831 yerli investisiyalı məhdud məsuliyyətli cəmiyyət qeydiyyata alınıb ki, bu üsulun ümumi qeydiyyatda xüsusi çəkisi 13,8 faiz, yerli investisiyalı MMC-lərin qeydiyyatında isə 16,0 faiz təşkil edir.

Qarşılıqlı müzakirələr şəraitində davam etdirilən tədbirdə iştirakçıların hüquqi şəxslərin qeydiyyatı, sahibkarlıq subyektinin adının dəyişdirilməsi zamanı tətbiq olunan mexanizmlər, POS-terminalların quraşdırılması ilə bağlı sualları cavablandırılıb.

## Neft ucuzlaşıb

**AZƏRTAC xəbər verir ki, dünya birjalarında neftin qiyməti aşağı düşüb.**

Londonun ICE ("InterContinental Exchange Futures") birjasında "Brent" markalı neftin bir barelinin qiyməti 0,62 dollar azalaraq 79,96 dollar olub. Nyu-Yorkun NYMEX ("New York Mercantile Exchange") birjasında "Light" markalı neftin bir barelinin qiyməti isə 0,6 dollar azalaraq 74,94 dollar təşkil edib.

### “Böyük qayıdış” proqramı sürətlə icra olunur

# Füzulidə artıq 306 ailə yaşayır

**Keçmiş məcburi köçkünlər 30 ildən sonra əzəli yurdlarına qovuşurlar. Dünən daha bir köç karvanı Füzuli şəhərinə yola salınıb. Abşeron rayonunda, Bakı və Sumqayıt şəhərləri ərazisindəki yataqxanalarda, sanatoriyalarda, pioner düşərgəsində, yarımçıq tikililər və inzibati binalarda müvəqqəti məskunlaşmış vətəndaşlarımız Bakı şəhərinin Qaradağ rayonundan yola çıxıblar.**





Bu mərhələdə Füzuli şəhərinə daha 25 ailə (106 nəfər) köçürülüb. Bununla da Füzuli şəhərində 308 ailənin, yəni 1106 nəfərin daimi məskunlaşması təmin edilib.

Böyük qayıdış konsepsiyası çərçivəsində tədricən bütün keçmiş məcburi köçkünlər torpaqlarına qovuşacaqlar. Prezident İlham Əliyev BMT-nin Mərkəzi Asiya Ölkələrinin İqtisadiyyatları üçün Xüsusi Proqramının (SPECA) Zirvə görüşündə çıxışında hazırda işğaldan azad olunmuş ərazilərdə genişmiqyaslı bərpa-quruculuq işlərinin həyata keçirildiyinə toxunub: "Biz sıfırdan yeni şəhərlər və kəndlər inşa edirik. İlkin mərhələdə 100 yaşayış məntəqəsinin, o cümlədən 9 şəhər və 8 qəsəbənin bərpa edilməsi nəzərdə tutulur. Keçmiş məcburi köçkünlər Böyük qayıdış proqramı çərçivəsində öz dədə-baba yurdlarına qayıdırlar. 2026-cı ilin sonuna qədər 140 min keçmiş məcburi köçkün öz doğma evlərinə qayıdacaq".

### Füzulililərin şad günü

Yurdlarına qovuşan füzulililər hərtərəfli dövlət qayğısı ilə əhatə olunduqlarına görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya təşəkkür ediblər. Onlar, həmçinin torpaqlarımızı işğaldan qurtaran rəşadətli Azərbaycan Ordusuna, qəhrəman əsgər və zabitlərimizə minnətdarlıqlarını bildirib, bu yolda canlarından keçən şəhidlərimizə rəhmət, ailələrinə səbir diləyiblər.

Doğma el-obasına qayıtdığına görə sevincinin hədd-hüdudunun olmadığını bildirən keçmiş məcburi köçkün Fatma Əliyeva deyir ki, otuz ildən çox bu xoş günün gələcəyini gözləyib: "Allaha çox şükür ki, haqq-ədalət öz yerini tapdı. Nəhayət, bizim doğma yurd həsrətimiz sona çatdı. Füzulidən gənc yaşlarımda çıxmışam, ata-anamla Bakıya köçmüşdük. İndi isə öz ailəmlə doğma ata ocağıma qayıdıram".

Birinci Qarabağ müharibəsi qazisi Cəmil Abbasov ötən illər ərzində silahdaşlarının bu missiyanı tamamlayacağına həmişə əmin olduğunu bildirir: "Bu dəfə biz döyüş meydanında qalib olduq, torpaqlarımız azad edildi, suverenliyimiz tam bərpa olundu. İndi isə gözəl təbiəti, dağları olan doğma yurduma qovuşdum. Azərbaycan əsgəri, müharibə veteranı olaraq doğma yurda qayıtmağıma, bu gözəl günə görə çox sevinirəm".

### İndiyədək 3868 nəfər ata yurduna qovuşub

Böyük qayıdış çərçivəsində ağalılılar, füzulililər, laçınlılılar və talışlılar mərhələli olaraq əzəli torpaqlarına dönüblər. Növbəti ildən isə cəbrayıllıların doğma yurdlarına köçürülməsinə başlanılacaq.

Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Azərbaycan Prezidentinin xüsusi nümayəndəsi Vahid Hacıyev deyib ki, tikinti və təmir işləri tam yekunlaşdıqdan sonra Cəbrayıl sakinlərinin doğma yurdlarına köçürülməsinə başlanılacaq: "Horovlu və Şükürbəyli kəndləri tikilməkdədir. Cəbrayıl şəhərində 712 mənzildən ibarət 33 bina tikilməkdədir və inşallah, gələn il tikinti işləri yekunlaşacaq. Artıq Soltanlı kəndinin də tikintisini həyata keçirəcəyik".

Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri Anar Quliyev bildirib ki, Böyük qayıdış proqramı çərçivəsində 2026-cı ilə qədər ümumilikdə 100 yaşayış məntəqəsinin bərpa olunması nəzərdə tutulur. Bütün şəhərlərin baş planları üzərində işlərin başa çatdığını qeyd edən A.Quliyev ilin sonuna qədər 5000-dən artıq, təxminən 5500 nəfərin müxtəlif yaşayış məntəqələrində məskunlaşacağını da əlavə edib.

Xatırladaq ki, indiyədək 175 ailə (871 nəfər) Zəngilan rayonunun Ağalı kəndinə, 20 ailə (90 nəfər) Tərtər rayonunun Talış kəndinə, 346 ailə (1326 nəfər) Laçın şəhərinə, 308 ailə (1106 nəfər) Füzuli şəhərinə, 121 ailə (475 nəfər) Laçın rayonunun Zabux kəndinə köçürülüb. Ümumilikdə 970 ailə (3868 nəfər) keçmiş məcburi köçkün dədə-baba yurduna qovuşub.

*Ülkər XASPOLADOVA, "Azərbaycan"*

# El yurda dönür

## 30 illik həsrətə son qoyulur

**Hər dəfə insanlarımızın doğma yurdlarına döndüklərini eşidəndə özümüzdən asılı olmayaraq kövrək hisslər keçiririk. Neçə illər idi ki, onlar el-obalarından didərgin düşmüşdülər. Geri dönəcəkləri günü intizarla, həsrətlə gözləyirdilər.**





Evlərindən, kənd-kəsəklərindən erməni işğalçılarının güllə yağışı altında çıxmış bu insanların bəziləri düşmən əlinə keçməmək üçün qurulu ev-eşiklərini qoyub canlarını güclə götürüb qaça bilmişdilər. Bəziləri isə evinin qapısını tələm-tələsik qıfıllayıb bir gün qayıtmaq ümidi ilə açarlarını özü ilə götürmüşdü. Bu dəhşətli, ağrı-acılarla dolu olan günlərdə tale onların alnına köçkün adı yazmışdı.

Uzun illər idi gözləyirdilər ki, günlərin birində onların qapılarını torpaqların azad olunduğu xəbəri döyəcək. Yaşayışları dövlət tərəfindən nə qədər asanlaşdırılsa da, hər cür şəraiti olan yeni ev və mənzillərlə təmin olunsalar da, hamısının fikri doğma yurdlarında qalmışdı. Ciblərində gəzdirdikləri paslanmış açarlari ilə evlərinin qıfıllarını açmaq, doğulduqları həyətə qayıtmaq arzusu ilə yaşayırdılar. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Ordusunun zabit və əsgərlərinin erməniləri məğlubiyyətə uğradacağı, torpaqları işğaldan azad edəcəyi günü beləcə səbirsizliklə gözləyirdilər.

Şükürlər olsun ki, həmin o gün gəldi, qələbə xəbəri hamı kimi onların da qapısını döydü. 27 sentyabr 2020-ci ildə erməni təxribatı nəticəsində Vətən müharibəsi başladı. Azərbaycan Ordusunun hərbi qulluqçuları 44 gün ərzində Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında Ermənistan ordusunu darmadağın etdi. 30 ilə yaxın işğalda qalmış torpaqlar ermənilərdən azad olundu. Qələbə xəbəri ildırım surəti ilə hər tərəfə yayıldı. Bu xəbərə bəlkə də ən çox sevinən məcburi köçkünlər oldu. Çünki böyük zəfər onları yurda qaytaracaqdı. Bu şad xəbərdən sanki onların illərdən bəri ciblərində gəzdirdikləri açarlarının pası da töküldü. Gözlər güldü, könüllər açıldı. Zəfər xəbəri hamının ürəyindən həsrəti, nisgili sildi.

İkinci Qarabağ müharibəsi Azərbaycanın qələbəsi ilə başa çatandan sonra Prezident İlham Əliyevin rəhbərliyi altında işğaldan azad olunmuş ərazilərdə böyük quruculuq işləri başladı. Qısa müddət ərzində geniş yollar çəkildi, Zəngilanda, Füzulidə beynəlxalq aeroport tikilib istifadəyə verildi. İnsanların geri dönməsi üçün evlər inşa olundu, qəsəbələr, kəndlər salındı. Artıq el Zəngilana, Laçına, Füzuliyə dönür. İnsanlar doğma ocaqlarına Müzəffər Ali Baş Komandana dərin minnətdarlıq hissləri ilə qayıdırlar. Bu günlər yurd həsrətlərinə son qoyulmuş adamlar həyatlarının ən xoş, ən gözəl anlarını yaşayırlar. Zəngilan rayonunun Ağalı kəndinə, doğma el-obasına qayıtmış keçmiş qaçqınlarla söhbət edərkən bir daha bunun şahidi olduq.

İşğaldan əvvəl kənddəki məktəbin direktoru olmuş Seyfəddin Səmədov söhbət zamanı dedi ki, 1953-cü ildə bu torpaqda doğulmuşdur: "Azərbaycan Pedoqoji Universitetinin Riyaziyyat fakültəsini bitirmişdim. Taleyimə düşən ömrümü yaşayırdım. Amma ermənilər bizi doğma ocaqlarımızda yaşamağa qoymadılar. 1993-cü ilin oktyabr ayında doğma ocaqlarımızdan didərgin düşdük. Torpaqlarımızı itirsək də, yurda olan sevgimizi itirmədik. 30 il ərzində yurd həsrəti çəkə-çəkə ağrı-acılarla dolu köçkünlük həyatı yaşadıq. 27 sentyabr 2020-ci ildə erməni təxribatı nəticəsində başlanan Vətən müharibəsində Azərbaycan Ordusu Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında düşmənə qalib gəldi, ərazilərimizi işğaldan azad etdi. 28 oktyabr 1993-cü ildə qoynunda dünyaya göz açdığım Ağalı kəndindən qaçqın düşmüşdüm. Təsadüfə baxın ki, 30 ildən sonra məhz həmin gün doğma kəndimizə qayıtdıq. Çox şükürlər olsun ki, bu günü gördük. Yurdumuza sevinclə, qürurla qayıtmışıq. Bu səadəti bizə nəsib etdiyinə görə Ali Baş Komandana, Azərbaycan Ordusuna minnətdarıq. Torpaqlarımızın azadlığı uğrunda şəhid olanlara ürəkdən, qəlbdən deyirəm ki, haqqını bizə halal et, hər qarış torpaq uğrunda canından keçən Vətən oğlu. Haqqını halal et, övlad böyüdüb Vətən torpağına sipər edən, məğrur Azərbaycan qadını!"

Minayə Mahmudova da bizimlə kövrək hisslərlə danışdı: "Ağalıdan köçkün düşəndə 20 yaşım var idi. İndi 50 yaşın içindəyəm. Doğma ocaqlarımıza övladlarımla, nəvələrimlə qayıtmışam. Təəssüflər olsun ki, valideynlərim torpaq həsrətinin ağrısına dözməyib dünyalarını dəyişdilər. 2020-ci ildə ərazilərimiz işğaldan azad olunanda atam Məhəmməd sağ idi, xəstə yatırdı. Kəndimizin azad olunduğunu ona xəbər verəndə gözləri yaşardı, səsi titrədi. Əlini astaca döşəyinin altına aparıb bir topa açar çıxarıb mənə verərək dedi ki, qızım, bu, evimizin açarlarıdır, itirmə, yaxşı saxla. Kəndimizə qayıdanda ermənilərin evimizi yerlə bir etdiklərini gördüm. Amma açarları atmamışam. Onu valideynlərimdən yadigar kimi qoruyub saxlayıram. Artıq 30 illik həsrətə, nisgilə son qoyulub. Buna görə Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevə, Birinci xanım Mehriban Əliyevaya, torpaqlarımızı işğaldan qurtaran rəşadətli Azərbaycan Ordusuna, qəhrəman əsgər və zabitlərimizə minnətdarıq".

Yaxın vaxtlarda məcburi köçkünlərin doğma ocaqlarına köçlərinin yeni dalğası başlayacaq. Qubadlı, Cəbrayıl, Kəlbəcər, Xocalı, Ağdərə, Xankəndi, Şuşa, bir sözlə, işğaldan azad olunmuş bütün ərazilərimiz doğma sakinlərini öz qoynuna alacaq.

*Vahid MƏHƏRRƏMOV, "Azərbaycan"*




## "Redmi K70" seriyası təqdim ediləcək

Noyabrın 29-da Çində "Redmi K70" smartfon seriyası təqdim ediləcək. Daha sonra bu smartfonlar qlobal bazarda "POCO" brendi altında satılacaq.

Bir müddət öncə şirkət bildirmişdi ki, "Redmi K70" seriyasına "Snapdragon 8 Gen 3" prosessoru vasitəsilə çalışacaq model daxil olunacaq və o, "Xiaomi 14"dən daha ucuz qiymətə satılacaq. Bu modelin "Redmi K70 Pro" olduğu məlum olub.



Məhsulun satış qiymətinin 545 dollar olacağı bildirilib.

Onu da qeyd etmək lazımdır ki, "Xiaomi"nin "Redmi" brendi son 10 il ərzində 1 milyard ədəd smartfon satmaqla diqqət çəkən nailiyyət əldə edib. Bu barədə brendin rəhbəri Lu Veybinq məlumat verib.

"Redmi"ni yaradan zaman şirkətin əsas hədəfi bu brend çərçivəsində nisbətən ucuz qiymətə keyfiyyətli smartfonlar təqdim etmək idi. 3 yanvar 2019-cu il tarixdə isə "Redmi" müstəqil subbrendə çevrildi. Şirkətdən bildirilib ki, brend indiyədək artıq 1 milyard smartfon satıb.

## "Xiaomi"nin ilk elektromobili

**"Xiaomi" dekabrda ilk elektromobilinin kütləvi istehsalına hazırlaşır. "Xiaomi SU7"nin satışı isə fevralda baş tutacaq.**



Sosial şəbəkələrdə elektromobilin yeni fotoları paylaşılıb. Onlar elektromobilin Çindəki avtomobil yollarında testləri zamanı çəkilib.

Məlumata əsasən, "Xiaomi SU7" iki versiyada təqdim olunacaq. Onlardan biri arxa, digəri isə tam çəkim təkərlərinə sahib olacaq. Arxa çəkim təkərlərə sahib modelin 300 at gücünə, tam çəkim təkərlərə sahib modelin isə 673 at gücünə sahib olacağı bildirilir.

## "ChatGPT"də növbəti funksiya

Süni zəka əsaslı "ChatGPT" çatbotunda səsli ünsiyyət imkanı bütün istifadəçilər üçün təqdim edilib. İndiyədək yalnız "ChatGPT Plus" istifadəçiləri bu funksiyadan yararlana bilirdi.




Yeni funksiyanın əsasında mətni nitqə çevirə bilən təkmilləşdirilmiş sistem dayanır. Sözügedən sistem mətn və audio nümunələr əsasında insan nitqini generasiya edə bilir. Səsli ünsiyyət funksiyasından istifadə üçün öncə "ChatGPT"nin mobil versiyasını yükləmək lazımdır. Onu "App Store" və ya "Google Play" tətbiqlərindən yükləmək olar.

Yeni funksiya tətbiq daxilindəki ayarlar bölməsində aktivləşdirilir. Bundan sonra dialoq pəncərəsindəki qulaqlıq düyməsini klikləyərək üstünlük verilən səs variantını seçmək və daha sonra çatbota müraciət etmək lazımdır.

## Ən güclü "Android"



**Dünyanın ən güclü "Android" smartfonu açıqlanıb. Bu, "Red Magic 9 Pro"dur. Smartfon "Snapdragon 8 Gen 3" çipi, 24 QB əməli yaddaş və 1 TB daxili yaddaşa malikdir. "Red Magic 9 Pro" ekranın altındakı ön kamera, aktiv soyutma sistemi, uclarda toxunma triggerləri və düz arxa panellə təchiz edilib.**

Yeni məhsulun rəsmi təqdimatı noyabrın 23-də Çində baş tutub. "Red Magic 9" seriyalı smartfonların Çindən kənarda satışa çıxıb-çıxmayacağı isə hələlik məlum deyil.

## Yeni süni zəka sistemi



**"Stability AI" şirkəti "Stable Video Diffusion" adlı yeni süni zəka sistemini təqdim edib. Sözügedən sistem mətn formatında təsvirlər əsasında videoların tərtibatı üçün nəzərdə tutulub. Onun əsasında, adından da göründüyü kimi, "Stable Diffusion" modeli dayanır.**

Şirkət "Stable Video Diffusion"un mənbə kodunu "GitHub"da yerləşdirib. Yeni süni zəka sistemi müxtəlif tapşırıqlar üçün rahatlıqla adaptasiya olur.

Sözügedən süni zəka sistemi fotonun videoya çevrilməsi istiqamətində iki versiyada təqdim olunub: "SVD" və "SVD-XT". Hər iki versiya saniyədə 3 kadrdan 30 kadra kimi videolar tərtib edir. "SVD" 14 kadrdan, "SVD-XT" isə 25 kadrdan ibarət videonu tərtib edir.

Hazırda sistem hazırlanma mərhələsindədir və onun mövcud halı kommersiya məqsədli tətbiqlərin yaradılması üçün nəzərdə tutulmayıb. Bu, sadəcə təcrübi layihə olsa da, şirkət gələcəkdə "Stable Video Diffusion"un tam işlək versiyasını istifadəyə verməyi planlaşdırır.



## "Uçan" bərə-gəmilər

**2024-cü ilin yayından etibarən Stokholmda elektrikli bərə-gəmilər istifadəyə veriləcək.**

Sınaq yoxlamalarında bərənin sürəti saatda 30 km-ə çatdırıldıqda bərə-gəmi suyun səthindən korpusun altında yerləşdirilmiş aerodinamik profilə keçid edir. Bu zaman o, təxminən 1,5 metr hündürlüyə qalxır, buna görə də su ilə təmas sıfra enir. Bu, nəqliyyatın çalışması üçün tələb olunan enerjinin miqdarını azaldır, üstəlik, tamamilə səssiz işləyir.

Ekeryö adası və Stokholmun mərkəzi arasında saatda 33 km sürətlə işləyəcək pilot marşrut iyulda işə salınacaq. Beləliklə, 55 dəqiqə davam edən reysin vaxtı cəmi 25 dəqiqəyə enəcək.

## Ən çox istifadə olunan şifrələr

**"NordPass" şirkəti istifadəçilərin 2023-cü ildə ən çox istifadə etdikləri şifrələrin reytinqini təqdim edib. "123456" şifrəsi yenidən reytinqin birinci pilləsində qərarlaşıb. Bu, istifadəçilərin kibertəhlükəsizlik mövzusuna necə məsuliyyətsiz yanaşdıqlarını göstərir.**




Ötən il reytinqdə birinci yeri tutmuş "password" şifrəsi bu il yeddinci yerdə qərarlaşıb. Təqdim edilmiş reytinq istifadəçilərin sadə və etibarsız şifrələrdən istifadə etməyə davam etdiklərini göstərir. İstifadəçilər arasında ən geniş yayılmış 200 şifrənin analizi onu göstərib ki, onlardan çoxu kibercinayətkarlar tərəfindən rahatlıqla sındırıla bilər.

Reytinqin ilk onluğuna daxil olan "123", "1234", "12345", "12345678", "123456789", "1234567890", "Aa123456" və "password" kimi şifrələr kibercinayətkarlar tərəfindən saniyələr ərzində sındırıla bilir. Təbii ki, bu reytinqdə istisnalar da var. Onlardan biri də 173-cü yerdə qərarlaşmış "theworldinyourhand" şifrəsidir. Bu şifrəni praktiki olaraq ənənəvi üsullarla sındırmaq mümkün deyil. Mümkün variantlar arasından sözügedən şifrənin fərdi şəkildə tapılmasına yüzlərlə il lazım ola bilər.

## Vatsapda yenilik

**Vatsapda "Google Play" proqramı vasitəsilə yüklənə bilən son versiyasının "Çatlar" bölməsində yeni funksiyanı işə salıb. Söhbət süni intellekt vasitəsilə çatlara keçid etməyi asanlaşdıran və yeni çat işarəsinin üstündə yerləşən düymədən gedir.**



Bu dəyişiklik istifadəçilərin vaxtına qənaət etməsi, eləcə də proqramdan istifadənin sadələşdirilməsi və asanlaşdırılması üçün təqdim edilib. Funksiya hazırda məhdud "beta-tester" qrupu üçün yetərlidir, lakin tezliklə daha geniş auditoriya tərəfindən istifadə olunacağı gözlənilir.

## OLED ekranlı "Apple" cihazları



**"Apple" 2027-ci ilə qədər 9 məhsulunu OLED ekranla təmin etməyi planlaşdırır. Hazırda bu ekranlardan şirkətin "Apple Watch" saatlarında və "iPhone" ("iPhone SE" xaric) smartfonlarında istifadə edilir.**

Şirkət önümüzdəki il OLED ekranlara sahib iki "iPad Pro" planşetini təqdim edəcək. 2026-cı ildə isə "iPad Air" və "iPad mini" planşetlərinin də bu ekranlarla təchiz olunacaqları gözlənilir.

Məlumata əsasən, 2027-ci ildə şirkət OLED ekran texnologiyasını 12.9 düym ekranlı "iPad Air" modelinə inteqrasiya edəcək. Çox güman ki, "Apple iPad Pro"da LTPO texnologiyası, "iPad Air" ilə "iPad mini"də isə LTPS texnologiyası vasitəsilə hazırlanmış OLED ekranlarından istifadə ediləcək.

Bundan əlavə, 2025-ci ildə şirkət 16 düym ekranlı "MacBook Pro"nu, 2026-cı ildə isə 14 düym ekranlı "MacBook Pro"nu OLED ekran texnologiyasına köçürəcək.

*Ülkər XASPOLADOVA, "Azərbaycan"*

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti
polad burazların satın alınması məqsədilə
**müsabiqə elan edir**

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla, elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 04 dekabr 2023-cü il saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı şəhəri, Mikayıl Useynov küçəsi 2**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1132**

*Tender komissiyası*

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti
dielektrik ayaqaltıların satın alınması məqsədilə
**müsabiqə elan edir**

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla, elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 04 dekabr 2023-cü il saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təkliflərinin Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı şəhəri, Mikayıl Useynov küçəsi 2**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1132**

*Tender komissiyası*

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti
ASCO-nun struktur idarələrinə tələb olunan süzgəclərin satın alınması məqsədilə
**müsabiqə elan edir**

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla, elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 07 dekabr 2023-cü il saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təkliflərinin Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı şəhəri, Mikayıl Useynov 2**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili:1263**

*Tender komissiyası*



OXUCULARIN NƏZƏRİNƏ!

"AZƏRBAYCAN" *qəzetinə*
*2024-cü il üçün abunə yazılışına başlanılır!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |




**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**

**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya* ***(Tel.: (012) 539-59-33)*** *zəng vura bilərsiniz.*


# Paşinyanın yeni korrupsiya fırıldağı

## Ölkə problemlər içərisindədir, baş nazir isə 2 milyon dollarlıq saat taxır

**Məğlub Ermənistanı idarə edən şəxslər ölkədə korrupsiya və rüşvət sistemini daim genişləndirmələri ilə də seçilirlər. Bu xüsusda erməni mediasında kifayət qədər maraqlı məlumatlar yer alıb və indiki baş nazir Nikol Paşinyanın əməllərinə xüsusi diqqət yetirilir. Məsələn, qeyd olunur ki, 5 il bundan əvvəl heç nəyi olmayan Nikol Paşinyan və ailəsi ötən müddət ərzində Ermənistanda ən varlı insanlara çevriliblər.**



Postmüharibə dövründə əhalinin gəlirlərinin azalmasına, iş yerlərində ixtisarlara və müəssisələrin bağlanmasına baxmayaraq, bu, baş nazirin rifahına təsir etməyib.

"4rd.am" nəşri yazır ki, Rusiyaya qarşı çıxaraq Qərbin kölgəsində gizlənən Paşinyanın ölkənin ən kasıb baş naziri sayıldığı günlər keçdi. 2018-ci ilin yazında o, Ermənistanın yüksək vəzifəli rəsmilərinin etika komitəsinə bir bəyannamə təqdim edib - bir il üçün qazancı təqribən 16 min dollardır, eyni zamanda bu məbləğin 12 min dolları deputat maaşı hesab olunur: "Məlum oldu ki, Paşinyan və həyat yoldaşının xarici aktivləri, bank hesabları və ya qiymətli kağızları yoxdur. Bununla yanaşı, Ermənistan hökumətinin başçısı heç bir daşınmaz əmlaka sahib deyil. Ermənistanın birinci xanımı Anna Hakopyanın 2018-ci ilin əvvəlində vergi vəsaiti 1000 dollar təşkil edib və ilin sonuna qədər bu məbləğ dəyişməyib".

Qeyd olunur ki, bir vaxtlar "korrupsiyaya bulaşsam, Ermənistan vətəndaşlarını məni meydanda asmağa çağırıram", - deyən Paşinyanın ailəsinin ABŞ-də malikanə alması ilə bağlı məlumatlar yayılıb: "Baş nazirin tərəfdarları bunun qarayaxma kampaniyası olduğunu deyirlər. Lakin biz də Ermənistandakı korrupsiya və yoxsulluğa qarşı mübarizə aparan Nikol Paşinyanın taxdığı 2 milyon dollara "Patek Phillippe" saatının fotosuna baxaraq gözlərimizə inanırıq".

Son günlərdə diqqət mərkəzində olan məsələlərdən biri də Paşinyanın komandasının dövlət büdcəsinə mütəmadi olaraq vurduğu ziyandır. Belə ki, yeni yaradılmış Ermənistan Xarici Kəşfiyyat Xidmətinin rəhbəri Kristine Qriqoryan vəzifəyə gəldikdən sonra mütəmadi olaraq layihələrini təsdiq üçün hökumətə təqdim edir.

Qeyd edilib ki, bununla Qriqoryan büdcədən yalnız xidmət işçiləri üçün və ya xidmətin ehtiyaclarını ödəmək üçün əlavə pul tələb edir. Məsələn, Xarici Kəşfiyyat Xidməti sahəsində təcrübəsi sıfır olan Qriqoryan dərhal hökumətin təsdiqinə təqdim edilən layihələrdən birincisi ilə tələb edib ki, xidmət işçilərinin mükafatlandırma fondu artırılsın. Hətta əsaslandırmayıb ki, hansı nəticəyə görə xidmət işçilərinə belə bir imtiyaz verilməlidir? Onun tələbi yerinə yetirilib və Xarici Kəşfiyyat Xidmətinin əməkdaşlarının mükafatı maaşın 10 faizi həcmində deyil, daha çox olacaq. Lakin Qriqoryan bununla kifayətlənməyib və hökumətin noyabrın 23-də keçirilən iclasının açıqlanmayan məsələlərindən biri ilə yenidən pul, bu dəfə hökumətin ehtiyat fondundan 8,5 milyon dram tələb edib. Layihəyə əsasən, Xarici Kəşfiyyat Xidmətinin cari fəaliyyətini təmin etmək məqsədilə 2023-cü il dövlət büdcəsində nəzərdə tutulmayan və prioritet hesab edilən xərclərin maliyyələşdirilməsi üçün həmin məbləğə ehtiyac var. Yenə də bunların hansı prioritet xərclər olduğu layihədə qeyd olunmayıb.

Bunların fonunda bütün sferalarda yaranan və gündən-günə dərinləşməkdə olan problemlərdən yaxın perspektivdə xilas üçün əhalidə heç bir ümid yoxdur. Bunu şərtləndirən əsas səbəblərdən biri kimi, baş nazir seçildikdən sonra verdiyi bütün vədlərə əməl etməyən Nikol Paşinyan iqtidarının konkret plan və proqramlara malik olmamasıdır. Digər səbəbi isə hakimiyyətdə yer alan bəzi vəzifəli şəxslərin səlahiyyətlərindən sui-istifadə edərək, korrupsiya və rüşvətxorluqla məşğul olmalarıdır.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

# Avropada ifrat sağçı partiyalar niyə güclənirlər?!

**Avropanın çox hissəsində populist sağçı partiyalar güclənir. Qitənin bir neçə ölkəsində hakimiyyət artıq onların əlindədir.**

Finlandiya, İsveç və İsveçrədə onların öz payı var. Almaniyada sorğular göstərir ki, "Almaniya üçün alternativ" partiyası son iki il ərzində tərəfdarlarının sayını 10 faizdən 22 faizə yüksəldib. Fransada ən böyük ifrat sağçı partiya olan Milli Birlik (RN) 24 faizlik dəstəyə malikdir. Başqa bir anti-immiqrant partiya olan "Reconquista" üçün 5 faiz əlavə etdikdə ifrat sağçılar ölkədəki ən böyük səsvermə blokuna çevrilirlər. Niderlandda islamofoblar, miqrasiya əleyhdarları və populistlər hakimiyyətə gəliblər.

Hətta onilliklərboyu əsas millətçi partiyaların heç bir uğur qazanmadığı yeni demokratiyalarda da (Portuqaliya, Rumıniya və İspaniyada) indi onlar baş qaldırıblar. Avropa Birliyinin ən çox əhalisi olan beş ölkəsindən dördündə istər hökumətdə, istərsə də sorğularda ifrat sağçı partiyaların reytinqi 20 faizdən yuxarıdır.

İfrat sağçı partiyaların gələn il keçiriləcək Avropa seçkilərində yaxşı nəticə göstərəcəyi də gözlənilir. İtaliyanın sağçı baş naziri Gorcia Meloni Avropa Parlamentindəki sağ mərkəzçi alyansı - Avropa Xalq Partiyasını (EHP) özünün başçılıq etdiyi ifrat sağçı Avropa Mühafizəkarlar və İslahatçılar ilə güclərini birləşdirməyə çalışır.







Fransada ifrat sağçıların fəaliyyəti hər prezident seçkilərində yüksəlir. Ola bilsin ki, son iki seçkidə ikinci olan Marin Le Pen 2027-ci ildə keçiriləcək növbəti seçkidə qalib gəlsin.

Bir sıra xarici amillər ifrat sağçılara dəstəyi stimullaşdırmağa kömək edir. 2015-ci ildə populist partiyalara dəstək yaradan qeyri-leqal miqrasiya pandemiya zamanı sakitlikdən sonra yenidən yüksəlir.

Ümumiyyətlə, ifrat sağçılar bahalı benzin, istilik və elektrik, iqlim dəyişikliyi ilə mübarizə siyasətindən yararlanırlar. Bu proses 2018-ci ilin sonlarında Fransada "Sarı jiletlilər" hərəkatı ilə başlayıb. Çox vaxt gənc, çalışqan ideoloqlarla dolu və xarizmatik liderlərdən asılı olan ifrat sağçı partiyalar parçalanmaya meyillidirlər. Avropanın populist partiyalarının qarşı çıxdığı dəyişikliklər sərtdir və ya, ən azı, asanlıqla geri qaytarılmır: demoqrafiya, cinsi azadlıq, gender bərabərliyi, mədən yanacaqlarından imtina. Onların dünya düzənini qaydaya salmaq üçün təklif etdikləri siyasət adətən uyğunsuz və ya əlçatmaz olur. Üstəlik, ifrat sağçı partiyalar sadəcə tənqid etməklə və dəstək cəlb etməklə debatları dəyişməyə kömək edirlər.

Ekspertlərin fikrincə, hazırda bütün qitədə sağ mərkəzçi partiyalar seçicilərin populistlərə tərəf keçməsini dayandırmaq üçün immiqrasiya siyasətlərini sərtləşdirib və mədəniyyət müharibəsi ritorikasını gücləndiriblər.

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti

**ALLAH RƏHMƏT ELƏSİN!**

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev Mahmud Cavadova qardaşı

**ƏRRƏHMAN CAVADOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Auditorlar Palatasının rəhbərliyi, kollektivi və üzvləri palatanın üzvü, "Nexia EA" QSC-nin direktoru Həsən Haqverdiyevə anası

**RƏHİLƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Əhməd Əhmədzadə Fikrət Əzizova qardaşı

**ELŞAD ƏZİZOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin rəhbərliyi Fikrət Əzizova qardaşı

**ELŞAD ƏZİZOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Sumqayıt Dövlət Universitetinin rektorluğu və Həmkarlar İttifaqı Komitəsi universitetin Azərbaycan və xarici ölkələr ədəbiyyatı kafedrasının baş müəllimi

**ZÖHRƏ QAFAROVANIN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

contact@azerbaijan-news.az
az.reklam@mail.ru



www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 5278
Sifariş 3055

Qiyməti 40 qəpik